KÖNÜL AYDIN NƏHMƏTOVA

# ESSE:
# yazı tiplərinə görə növləri

"Elm və təhsil"
Bakı - 2022

**Redaktor:** **Nadir Məmmədli**
*AMEA-nın Nəsimi adına*
*Dilçilik İnstitutunun Baş direktoru, professor*

**Rəyçilər:** **Ənvər Abbasov**
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
**Səməngül Qafarova**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Könül Aydın Nəhmətova.**
**ESSE: yazı tiplərinə görə növləri**
**Bakı, "Elm və təhsil", 2022, 140 səh.**

*Vəsait ali məktəb və ümumi təhsil müəllimləri, abituriyentlər və yazı bacarıqlarını inkişaf etdirmək istəyən hər kəs üçün nəzərdə tutulur.*

4702000000 qrifli nəşr
N-98-2022

**© K.Nəhmətova, 2022**

# GİRİŞ

## ESSE – TƏDRİSDƏ YAZI NÖVÜ KİMİ

Esse öncə ədəbi janr olmaqla yanaşı, ümumi təhsil və ali təhsil pillələrində dil və ədəbiyyat fənlərinin tədrisində rabitəli niqi, məntiqi və yaradıcı təfəkkürü formalaşdırmaq məqsədilə yazı növü kimi, həmçinin qiymətləndirmə üsulu kimi istifadə edilir.

Essenin janr xüsusiyyətlərinin səciyyələndirilməsində vahid bir yanaşma olmadığı kimi, tədrisdə istifadə edilən yazı növü kimi də əlamətlərini konkret müəyyənləşdirmək asan deyil. Forma, məzmun, mətnin tipi, mövzu, üslub baxımından esseni çərçivələmək olmur. Buna görə də onu ümumi şəkildə belə xarakterizə edə bilərik: Esse – mövzu ilə bağlı müəllifin şəxsi nəzər nöqtəsini aydın və yığcam şəkildə əks etdirən kompozisiyadır.

Yazı növü olaraq esseni qarşısına qoyduğu mövzu və ya problemə görə forma və qeyri-formal növlərə ayırmaq olar. Formal esselər, adətən, akademik xarakter daşıyır və ciddi mövzularda yazılır. Qeyri-formal esselər daha çox şəxsi xarakter daşıyır və hətta yumor elementlərini də ehtiva edir. Biz tədris prosesində istifadə edilən hər iki növdən bəhs edəcəyik.

Esse mətni, adətən, bir neçə səhifəni əhatə edir, lakin yeri gəldikdə, bütöv bir kitab da ola bilir. Esse müstəqil bir janr olmaqla yanaşı, sinkretik janr kimi də nümunələrinə təsadüf edilir: esse-hekayə, esse-roman, esse-rəy və s.

"Esse" sözü latınca "exigere" sözündən yaranaraq "qurmaq, tərtib etmək" mənasını verir ki, sonralar fransız dilində "essey" kimi istifadə edilmişdir. XV əsrin sonlarında "təcrübə, keyfiyyəti yoxlamaq" mənalarını verən söz olaraq işlənmişdir. Sözün ifadə etdiyi "təcrübə" mənasını fransız filosofu Mişel de Monten ilk dəfə kompozisiya yaradıcılığında istifadə etmişdir.

**Essenin tarixinə qısa nəzər salaq.** Mişel de Monten ilk dəfə "esseist" terminini Plutarxın "Əxlaqi yaradıcılıq" əsərinin izahında istifadə etmişdir. Həqiqətən də, bu əsər indiki dövrdə esse toplusu hesab edilir. Yeni termin altında Monten 1580-ci ildə rəsmi olaraq "Esse" adlı esselər toplusunu yazmışdır. Montenin məqsədi öz şəxsi ideyalarını nəsrlə ifadə etmək idi. Mişel Monten kitabının girişində bunu belə izah edirdi: "Bu, səmimi kitabdır, Oxucu. Öncədən səni xəbərdar edirəm ki, mən qarşıma məişət və şəxsi mətləblərdən başqa bir məqsəd qoymamışam. Mən zərrəcə nə sənin faydan, nə öz şöhrətim barəsində düşünməmişəm. Müvafiq məsələ üçün gücüm yetərli deyil. Bu kitabın təyinatı – öz doğmalarıma və dostlarıma özünəməxsus zövq bəxş etməkdir: məni itirdikdə (bu isə yaxın zamanda baş verəcək) onlar burada mənim xarakterim, fikirlərimin müəyyən izlərinə rast gələcəklər və bunun sayəsində mənim haqqında təsəvvürlərini tamamlayacaq və xatirəmi diri saxlayacaqlar.

Əgər mən bu kitabı dünya şöhrəti qazanmaq üçün yazsaydım, geyinib-keçinərdim və özümü təmtaraqlı təqdim edərdim. Lakin mən istəyirəm ki, məni gündəlik, adi, təbii görkəmimdə görsünlər, çünki mən bir başqa birini deyil, özümü təsvir edirəm. Mənim qüsurlarım və bütün simam da, təbii

ki, cəmiyyətə hörmətimlə birgə, həyatda olduğu kimi, burada canlı təqdim olunacaq, Əgər mən, söylənildiyi kimi, hələ də yaşayaraq təbiətin qanunlarından ibtidai formada zövq alan tayfalar içində olsaydım, səni inandırıram ki, özümü bütün boyumla və həmçinin çılpaqlığımla təsvir edərdim. Beləliklə, mənim kitabımın mündəricatı – mən özüməm. Bu da sənin öz boş vaxtını bu qədər yüngül və yararsız predmetə sərf etməmən üçün səbəb deyilmi?! Əlvida!” Müəlifin ön sözündən göründüyü kimi, esse ədəbi aləmə çox səmimi və tamamilə subyektiv bir mətn kimi daxil olmuşdur.

1597-ci ildə Frensis Bekonun yazıları ingilis dilində esse toplusu kimi işıq üzü gördü. “Esseist” termini isə ingilis dilində ilk dəfə dramaturq Ben Conson tərəfindən 1609-cu ildə işlənmişdir.

Esse yaradıcılığı Dünya ədəbiyyatında geniş şöhrət tapmış və günümüzə qədər ən gözəl nümunələri ilə oxucuların rəğbətini qazanmışdır. Qloballaşan dünyada fərdi təfəkkürün inkişafı ilə bağlı olaraq esse günümüzdə publisistikanı üstələməkdədir. Bu yanaşmadan çıxış edərək, deyə bilərəm ki, bu gün essenin tədrisdə yazı növü və öyrənənin mövzuya münasibəti, mövzu ilə bağlı məlumatlılıq səviyyəsini yoxlamaq üçün qiymətləndirmə üsulu kimi istifadə edilməsinin səbəbini anlamaq çətin deyil.

Hörmətli oxucular, esse yazı işlərinin təşkili istiqamətində təcrübəmə əsasən deyə bilərəm ki, indi bir çoxunuzun qəlbindən bir sual keçir: Şagirdin rabitəli nitqini, yaradıcı təfəkkürünü formalaşdıran yazı işlərimiz yox idimi? İnşa var ikən esseyə nə ehtiyac var?

**Essenin janr kimi tarixi qədimdir. Bəs inşa?**

Yuxarıda essedən ədəbi janr kimi bəhs etdik. İndi isə Azərbaycan dilinin tədrisində yazı növü kimi istifadə edilən inşa haqqında təməl biliklərə nəzər salaq.

"Lüğətdə əvvəlcə "ortaya çıxarmaq, icad etmək, yaratmaq" mənalarına gələn inşa daha sonra "qurmaq, tərtib etmək və yazmaq" kimi mənalarda da işlənmiş, ikinci istifadə məqamına görə "yazmaq, yazma sənəti və kompozisiya" kimi mənalar qazanaraq müəyyən zaman içərisində rəsmi və özəl yazışmaların müəyyən bir üsula görə tərtibatının incəliklərini və məktub yazma sənətini ifadə edən bir termin halına gəlmişdir. Bu sənəti öyrənən elmə "ilmül-inşa", bu elmin qaydalarına uyğun olaraq hazırlanmış mətnlərə "münşəat" adı verilmiş, rəsmi yazışmalar və məktublardan nümunə kimi dəyər qazananlar müxtəlif məcmuələrdə toplanaraq nəşr edilmişdir. Bu dar mənasıyla yanaşı, ədəbiyyatda bəlli qaydalara, bəlağət və fəsahət ölçülərinə görə söylənmiş və ya yazılmış ədəbî gözəllik daşıyan hər növ nəsr inşa termini ilə ifadə edilir. Bu növ yazıya "sənətli nəsr" (nəsr fənni), "gözəl nəsr" (nəsr cemil) və "sənətli yazı" (kitâbe fənniyyə) adları da verilmiştir. İnşa kəlməsi ayrıca dil elmi və dil fəlsəfəsində, dilin təməl iki kateqoriyasından (inşa-xəbər) və dil üzərindəki araşdırmalara əsaslanan əsl anlayışlardan biri olaraq, xüsusilə məani elminin təməl mövzularından birini təşkil etmişdir.

Ərəb ədəbiyyatında inşa kəlməsinin ədəbi bir növ ifadə edən termin olaraq nə zaman istifadə edilməyə başlandığı bilinmir. Kudame b. Cəfər 901 (288)-ci il civarında qələmə aldığı "Kitâbül-Ḫarac ve ṣınaatil-kitabə" adlı əsərinin

müxtəlif yerlərində bu kəlməni bir termin olaraq "inşâül-kitâb" (müəyyən bir üsula görə məktub yazma), "kitâb münşə" (qaydaya uygun yazılmış məktub) və "məclisül-inşa" (divani inşa) şəklində istifadə edilmiş, kəlmə daha sonra katiblik vəzifəsində olan şəxsin gördüyü işdən başqa "az və ya çox qaydalı məktub yazan bir kimsənin gördüyü iş" şəklində geniş bir məna qazanmışdır."

"Türk dili və İslam Ensiklopediyası"ndan aldığımız izahdan gördüyümüz kimi, inşa hər növ qaydalı nəsr nümunələrini əhatə edən ümumi anlayışdır. Həmçinin inşa kəlməsinin esse sözündən daha qədim tarixə malik olduğunu gördük. Mənə görə, məsələ bu anlayışların hansının daha qədimliyi deyil, ifadə etdikləri məfhumdur. Sözlərin etimologiyasından və ədəbiyyata termin kimi daxil olduğu anlayışlardan çıxış edərək belə qənaətə gəlirəm ki, inşa "inşa etmək" mənasını verərək "kompozisiya", "mətn tərtibi" anlayışları ilə assosiasiya olunur, esse isə "təcrübə" mənası ilə müəllifin sərbəst və şəxsi münasibətlərini paylaşmağı ifadə edir. Sözlərin etimologiyasını və mənalarını qarşılaşdırarkən esseni inşanın bir növü kimi görmək mümkündür. İnşa daha geniş anlayışdır, bədii yazılar istisna olmaqla, dilin tədrisində istifadə edilən bütün ədəbi, publisistik məqalələr, esselər və kompozisiyalar (portret, peyzaj, gündəlik, ədəbi məktub və s.) inşa adı altında səciyyələndirilə bilər. Və yaxud tədrisdə yaradıcı yazıları iki növə ayırmaq mümkündür – inşa (kompozisiya) və esse. İnşa Azərbaycan dili fənnində şagirdin yaradıcı mətn tərtibetmə bacarıqlarını formalaşdıran yazı növlərini (peyzaj, portret, gündəlik, ədəbi məktub), həmçinin bədii əsərlərin elmi-nəzəri təhlili-

ni aparan yazıları əhatə edə bilər. Bu yazı növlərini inşa və kompozisiya adı altında qrupaşdırmaq uyğundur. Xarici təcrübədə tədrisdə bədi əsərlərin analitik təhlili esse yazı növlərinə daxil edilsə də, bu analitik mətnin xüsusiyyətlərinin esse janrına məxsus olmamasını etiraf edən mütəxəssislər var. Essenin funksiyası şagirdin müstəqil, şəxsi mövqeyi, təəssüratı, ideyaları, təcrübələrini bölüşmək, problem həlletmə bacarığını formalaşdırmaqdır.

**Esse yazı işlərinin tədrisdə yeri və rolu.** Dil və ədəbiyyat dərslərində şagirdlərin ekspressiv nitq bacarıqlarının formalaşdırılması, dil hadisələri zəminində şagirdlərin idrak fəaliyyətinin və ünsiyyət bacarıqlarının inkişafı, düzgün şifahi və yazılı nitq vərdişlərinin inkişaf etdirilməsi, ədəbi dilin üslublarından istifadə imkanlarının genişləndirilməsi, şifahi və yazılı nitq prosesində nitq mədəniyyətinin tələblərinə riayət edilməsi bacarıqlarının formalaşdırılması baxımından esse yazı işlərinin aparılması əvəzedilməz rola malikdir. Yazı işlərinin rolu dedikdə, adətən, şagirdlərin yazı bacarıqlarının inkişafı nəzərdə tutulur. Lakin yaradıcı yazıların, həmçinin essenin şifahi nitqin formalaşmasındakı rolu gözardı edilməməlidir. Essenin strukturu istər yazılı, istər şifahi olsun, ümumilikdə probleməsaslı, bitkin nitqin strukturudur, yəni istənilən mövzuda rabitəli nitq qurmaq vərdişini formalaşdırmaq üçün esse yazı işlərinin aparılması səmərəlidir. Elə bu xüsusiyyətinə görə esse yalnız dil və ədəbiyyat dərslərində yazılı nitq bacarıqlarını inkişaf etdirən tapşırıq deyil, həmçinin digər fənlərin tədrisində təlim üsulu kimi tətbiq olunur.

# I FƏSİL

## ESSE – DÜŞÜNMƏYİ ÖYRƏDƏN YAZI NÖVÜDÜR

Esse ədəbi janr olmaqla yanaşı, həm də vacib təlim vasitəsidir. Azərbaycan dili və ədəbiyyat dərslərində əsas yazı növü kimi istifadə edilən esse digər fənlərin tədrisində də əhəmiyyətli qiymətləndirmə üsullarından biridir.

Essenin qısa xarakteristikasını belə vermək olar: müəllifin şəxsi mövqeyinin əsaslandırılmış şəkildə yazılı ifadəsidir. Bunu nəzərə almaq lazımdır ki, esse ədəbiyyatda ədəbi janr, tədrisdə isə yazı növü kimi istifadə olunur.

Esse qarşıya qoyulmuş sualın bazisi və ya baxılan məsələnin təkzibedilməz mənbəyi rolunda çıxış etmək iddiasında deyil. Bu yazı növü hər hansı məsələ ilə bağlı müəllifin subyektiv qənaətini və təsəvvürlərini ifadə edir. Buna görə də essenin yazı taktikası, müraciət forması tövsiyə xarakteri daşıyır. Mətnin əsas hissəsi şəxsi fikirlərdən ibarət olur.

Göründüyü kimi, esse sərbəst, yaradıcı yazıdır. Essenin məqsədi şagirdin şəxsi mühakimə qabiliyyətini, ən əsası isə hadisələrə, obyektlərə, fikirlərə öz münasibətini, mövqeyini ifadə etməyi formalaşdırmaqdır.

Esse yazmaq tamamilə müstəqil fəaliyyət olduğundan şagirdin yazı bacarığının ali səviyyəsi hesab edilir.

Essenin əsas əlamətlərini aşağıdakı kimi səciyyələndirə bilərik:

1. Konkret bir mövzunun və ya sualın qoyulması;

Problemlərin müxtəlif aspektlərinə görə analizinə həsr olunmuş əsərlər esse hesab olunmur.

2. Şəxsi təəssüratların və düşüncələrin ifadə olunması (şəxsi və avtobioqrafik esselərdə).

Problemi obyektiv işıqlandırmaq, hər hansı bir əsərin ideyasının dəqiq müəyyənləşdirilməsi essenin məqsədi və vəzifəsi deyil. Daha dəqiq desək, esse hər hansı bir mövzuda yeni və subyektiv ifadə olunmuş sözdür.

Esse fəlsəfi, tarixi-bioqrafik, publisistik, ədəbi-tənqidi, elmi-populyar və ya bədii-kütləvi xarakter daşıya bilər. Məsələn, sosial şəbəkələrdə bir mətn yayımlanmışdır. Bunu ibtidai sinif şagirdi olan Rusiya məktəblisi Krılovun "Cırcırama və qarışqa" əsərinə rəy-inşa olaraq yazmışdır, lakin bu mətn esse nümunəsidir.

### *Cırcırama və Qarışqa*
### *(tərcümə)*

*Çox böyük maraq və təəccüblə İ.A. Krılovun "Cırcırama və Qarışqa" təmsilini oxudum. Mən təmsilin ideyası ilə qətiyyən razı deyiləm. Təmsilin süjeti belədir ki, Cırcırama bütün yayı oxuyur, ehiyatını yığmır, odunları hazırlamır, qış isə həmişəki kimi gözlənilmədən gəlir. Soyuqdan və acından ölməmək üçün Cırcırama dostu Qarışqaya müraciət edir. O, Qarışqadan, sadəcə, sığınacaq və istilik " istəyir. Qarışqa isə ona etinasız cavab verir: "Sən get, sadəcə, əylən".*

*Məncə, təmsilin ideyası belə olmalıdır: əlbəttə ki, qarışqalar çox faydalı heyvanlardır, amma dünyanın daha rəngarəng olması və sadəcə, gözəllik üçün kimsə əylənməlidir. Mən Cırcırama və Kəpənəyə sığınacaq verərdim, ehtiyatları isə bölüşmək olar.*

Qeyd etmişdik ki, əsərin ideyasını dəqiq müəyyənləşdirmək essenin məqsəd və vəzifəsinə daxil deyil və bir də esse hər hansı bir mövzuda yeni və subyektiv yanaşmadır. Mətndəki bu xüsusiyyətləri nəzərə alaraq, onu yaxşı bir esse nümunəsi kimi dəyərləndirə bilərik.

Deyilənlərdən belə bir çıxarış edirik: Essenin məzmununda ilk öncə müəllifin şəxsiyyəti – onun dünyagörüşü, fikirləri və hissləri dəyərləndirilir.

Biz artıq – "Esse nədir?" – sualını müəyyən qədər cavablandırmış olduqsa da, müəllimlərdən bu suala cavab istəyəndə aldığımız ilk fikirlərlərdən biri bu olur ki:

"Essə ən qısa yaradıcı yazı növüdür."

Bu cavab isə essenin həcminə verilən tələbi əks etdirir. Lakin "Nə qədər qısa?" sualı hələ də müəllimlər üçün cavabsız qalır. Essenin həcminə verilən tələb söz və səhifə sayı ilə ölçülməyindən daha çox, məzmunun konkretliyi ilə ölçülməlidir. Yəni esse qarşıya qoyulmuş konkret bir problemin işıqlandırılması məqsədi daşıyan yığcam əsərdir.

Essenin dözmədiyi cəhət – sözçülükdür.

Esse müəyyən sayda sözlərlə məhdudlaşdırılır, buna görə də bu həcmi nəzərə almaq zəruridir. Bu, bəzən nə qədər maraqlı olsa da, müəllifdən müəyyən ideyalardan imtina etməyi tələb edir. Əlavə məsələlər oxucunun diqqətini yayındıra bilər və əsas fikrin kölgədə qalmasına səbəb ola bilər.

Uzun abzaslar – təsirli deyil. Uzun abzaslar müəllifin haqlı olduğunu sübut etməz, qısa abzaslar isə çox zaman daha artıq səmərə verir. Yaxşı olar ki, essedə uzun abzaslarla qısa abzaslar növbələşdirilərək verilsin. Yazı işinin oxu zamanı təsirini yoxlamaq üçün esseni hündürdən oxumaq lazımdır. Əgər hiss olunsa ki, abzas birnəfəsə oxunmur, bu zaman uyğun yerlərdə abzasları hissələrə bölmək olar.

Esseni mövzudan kənar fikir və informasiya ilə yükləmək olmaz!

## ESSENİN STRUKTURU VƏ KOMPOZİSİYASI

Esse əksər mətnlər kimi giriş, əsas və nəticə olaraq üç hissəyə ayrılır.

İlk abzaslar mətnin giriş hissəsini təşkil edir. Mətnin birinci abzası oxucunu essenin həsr olunduğu mövzu ilə tanış edir. Uzun girişə ehtiyac yoxdur – bir və ya iki abzas kifayət edər.

Əsas hissə daha çox diqqət tələb edən hissədir. Müəllif burada öz fikrini əsaslandırır.

Nəticə hissəsində essedə verilmiş fikirlər ümumiləşdirilir. Yekun qənaət girişdə və əsas hissədə verilmiş fikirləri təkzib etməməli, yaxud yeni fikirlərə yol açmamalıdır.

Mətnin, adətən, giriş hissəsində qarşıya qoyulmuş problemlə bağlı tezis irəli sürülür, arqumentlər gətirilir.

Tezis – müəllifin şəxsi fikirləridir, mətnin ideyasıdır. Bu fikirləri əsaslandıran sübutlara isə arqument deyilir. Arqumentlər essenin əsas hissəsində faktlar, həyati situasiyalar,

şəxsi təcrübə, elmi mənbələr, mütəfəkkirlərin fikirləri - bunlardan birinə və ya bir neçəsinə istinadla dəstəklənir.

Mətnin hissələri, tezis və arqumentlərin ardıcıllığı essenin quruluşunu təşkil edir.

Esse mətninin vahid bir strukturu yoxdur. Geniş yayılmış sxemləri nəzərinizə çatdırırıq:

1. Giriş

Əsas hissə:

- Tezis – arqument;
- Tezis – arqument.

Bu halda əvvəlcə fikri ifadə edirik, sonra onu əsaslandırırıq.

Nəticə




2. Giriş

Əsas hissə:

Əks quruluş – (fakt-çıxarış). Arqument verilir, sonra isə tezis çıxarılır. Bu, bir neçə dəfə təkrarlana bilər.

- Arqument – tezis

- Arqument – tezis
- ……

Nəticə




3. Giriş

Əsas hissə:

Tezis və bir neçə arqument. Bu halda bir fikri bir neçə dəlil ilə sübut edirik. Tezis bu dəlillərdən həm əvvəl, həm də sonra verilə bilər.

Nəticə




Orta ümumi təhsil səviyyəsində essenin 3-cü quruluş

sxeminə əsasən yazılması daha münasibdir.

Deyilənləri mühakimə-nəqli xarakterli bir esse üzərində izah edək:

## *BÖYÜKLƏR DƏ SƏHV EDİR*

*Atam elə hesab edir ki, mənə həmişə öyüd-nəsihət verməlidir. Amma mən düşünürəm ki, o, özü də hərdən səhv edir. Övladına inanmayanda (A1), özləri haqsızlıq edib üzr istəməyəndə (A2) valideynlər də səhv edirlər (T).*

*Mən lap balaca olanda atam evə şirniyyat almışdı. İki gündən sonra anam hay-küy saldı ki, şirniyyat yoxa çıxıb. Mən şirniyyatı çox sevirəm. Ona görə də hamı məndən şübhələndi. Nə qədər and içsəm də, inanmadılar. Hamının payını yediyimə görə danladılar.*

*Amma bir gün günahkar olmadığım məlum oldu. Otaqdakı şkafın yerini dəyişəndə gördük ki, şirniyyatlar divarın küncünə yığılıb. Əyilib baxdıq və orada bir deşik gördük. Atam da, anam da anladılar ki, şirniyyatı siçovul daşıyıbmış. (Dəlil 1)*

*Mən ürəyimdə onlardan küsdüm. Çünki səhvlərinə görə heç üzr də istəmədilər. İndi də məni utancaq olduğuma görə danlayırlar Bilmirlər ki, onlar mənə inanmadıqları üçün mən də özümə inanmıram. (Dəlil 2)*

*İndi gördünüzmü ki, valideynlər də səhv edirlər? Onlar bizi hər addımda sözlə tərbiyə edir, amma bəzən hərəkətləri ziyan vurur.*

Mətnin giriş hissəsi bir abzasdan ibarətdir. Bu hissənin sonuncu cümləsi mətnin tezisidir və tezis-cümlədə iki arqument gətirilmişdir.

Arqumentlər əsas hissədə faktlarla dəstəklənməlidir. Əsas hissə 3 abzasdan ibarətdir. Bu hissənin ilk iki abzası birinci arqumenti – "övladına inanmamaq valideynlərin səhvidir" arqumentini əsaslandıran situasiyanı təsvir edir.

Tezisdə neçə arqument verilirsə, əsas hissədə ən azı o qədər abzas olmalıdır. Yəni hər arqument ayrıca bir abzasda əsaslandırılmalıdır.

Əsas hissənin üçüncü abzası essenin ikinci arqumentini – "səhv edib üzr istəməmək valideynlərin səhvidir" arqumentini dəstəkləyir və müəllifin şəxsi təəssüratından ibarətdir.

Essedə əsas ideya ilə yanaşı köməkçi fikirlər də öz əksini tapır. Bu fikirlər, adətən, abzasın sonuncu cümləsində verilir.

"Onlar mənə inanmadıqları üçün mən də özümə inanmıram" fikri əsas fikirlə səsləşən köməkçi fikirdir. Valideynlər tərəfindən uşağa inamsızlığın nəticəsi kimi əsaslandırılır.

Esse mətninin tərtibində nəzərə alınmalı məsələlərdən biri tezis və arqumentlərin sayı ilə bağlıdır. İbtidai sinifdə mühakimə xarakterli essenin yazılması üçün bir tezis də kifayətdir. Arqumentlərin sayına gəldikdə, belə bir deyim var:

"Bir arqument azdır, üç arqument çoxdur".

Demək ki, bir tezisin əsaslandırılması üçün iki arqument yetər.

Essenin strukturunda nəzərə alınmalı məsələlərdən biri də hissələrin həcminə verilən tələbdir. Bu öz ifadəsini faizlə tapır:

Giriş – 20 %

Əsas hissə - 60 %

Nəticə - 20%

Verilmiş faizlər şərti xarakter daşıyır. Bunu hesablamaq üçün cümlələri saymağa ehtiyac yoxdur. Bir məsələni diqqətdə saxlamaq yetər: giriş və nəticənin həcmi əsas hissədən az olmalıdır.

## TEZİSİN NÖVLƏRİ

Yazı dərslərində şagirdə esse mövzusunu təklif etməyin üç yolu var:

1. Açar söz vasitəsilə;
2. Sual formasında;
3. Sitat əsasında.

Tapşırığın formasından asılı olaraq mövzunu müxtəlif müxtəlif şəkildə təklif etmək olar.

**Açar sözdən başlayaq.** Belə mövzular fikir mənbəyi kimi çıxış edir, lakin konkret bir fikri dəstəkləmir, istənilən istiqamətdə düşünmək, istənilən tezisi irəli sürmək mümkündür. Önəmli olan odur ki, mətn açar sözə əsaslansın.

**Nümunə:**

Mövzu: *Ana məhəbbəti.*
Tezis: *Mən düşünürəm ki, ana məhəbbəti yer üzündə ən güclü hissdir.*

Mövzu: *Qələbənin dadı.*
Tezis: *Düşünürəm ki, qələbə hər zaman sevinc gətirmir, hərdən acı da dada bilər.*

**Sual-başlıq.** Sual açıq  (ona bəli və ya xeyr cavabı vermək mümkün olmaz) və ya qapalı formada  ( bəli və ya xeyr sözləri ilə cavblandırıla bilər) qoyula bilər.
Əgər tapşırıq açıq sual şəklində təklif edilirsə, onu cavablandırmaq lazımdır. Suala verilən cavab özü tezis yerində çxış edir.

Problem: *Ədalət və şəxsi mənfəət arasında necə seçim etməli?*
Tezis: *Hesab edirəm ki, seçim insanın öz vicdanını nə qədər dinləməsindən asılıdır.*

Mövzu olaraq qapalı sual verilərsə, o zaman cavabınızı əsaslandırmalısınız (bəli, çünki / xeyr, ona görə ki...) Cavabın əsaslandırılması vacibdir, əks təqdirdə tapşırıq yerinə yetirilməmiş hesab ediləcəkdir.

Mövzu: *Hər zaman şəxsi mənfəəti ədalətə qurban vermək lazımdırmı?*

Tezis: *Bəli, hesab edirəm ki, yalnız ədalətli seçim yaxşı nəticə verə bilər.*

**Sitat-mövzu.**

Mövzu olaraq aforizm və yaxud əsərlərdən seçilmiş cümlə, beyt, bənd verilərsə, həmin müəllifin mövqeyi ilə fikrən razılaşaraq yeni bir cümlə ilə münasibətini bildirmək və onu əsaslandırmaq lazımdır.

Tezis əvəzinə: "Mən müəlliflə razıyam" – yazmaqdan çəkinin!

Mövzu: *"Gənclik – səhvlər çağıdır."*

Tezis: *Düşünürəm ki, insan səhvlərin çoxunu məhz gənclik çağında edir, çünki bu zaman müstəqil həyata qədəm qoyur, lakin təcrübəsiz olur.*

Mürəkkəb sitatlara da təsadüf olunur ki, bu zaman mənanı anlamaqda və ya arqumentlər gətirməkdə çətinlik çəkmək mümkündür. Bu halda fikri açmalı, özümüz üçün aydın cümləyə çevirməliyik.

Mövzu: *Sevgi – sehirli çiçəkdir, o qədər cəsarətli olmaq lazımdır ki, uçurumun kənarına gedib onu qopara biləsən.*

Sitatın izahı:

*Uçurumun kənarı – risq deməkdir.*

*Çiçəyi qoparmaq – aşiq olmaqdır.*

*Sevən insan nəyə risq edir? O, sonda qəlbinin qırılmağına, xəyallarının puç olmağına risq edir.*

Tezis: *Hesab edirəm ki, yalnız cəsarətli insan sevə bilir, çünki o, qəlbini risqə atır.*

İbtidai siniflərdə mövzunun açar söz və sitatlar vasitəsilə verilməsi daha uyğundursa, yuxarı siniflərdə tapşırıqların problematik mövzular əsasında verilməsi daha məqsədəuyğundur.

## TEZİSİN ƏSASLANDIRILMASI: ARQUMENTLƏR VƏ FAKTLAR

Essenin məzmununu qiymətləndirilməsinin əsas kriteriyalarını belə modelləşdirə bilərik:

**Qarşıya qoyulmuş problemə öz münasibətini ifadə edir:**

- müəllifin fikri ilə ya razılaşır və ya razılaşmır, münasibətini tezis şəklində ifadə edir;
- verilmiş suala açıq münasibət bildirir, tezisini aydın ifadə edir;
- verilmiş fikirlə razılaşaraq öz münasibətini tezis şəklində bildirir.

**Fikrini əsaslandırır:** İkidən az olmayaraq arqument göstərir, arqumentlərini faktlarla, nümunələrələ dəstəkləyir.

Nümunələri bədii, publisistik, elmi ədəbiyyat və ya həyat təcrübəsindən seçir.

**Həyat təcrübəsi və oxucu təcrübəsi nədir?**

**Həyat təcrübəsi:**

- özünün və ətrafdakıların həyatından real faktlar;
- şəxsi müşahidələr;
- ənənəvi-tarixi təcrübə.

Ətrafdakıların təcrübəsinə istinad edərkən yazıla bilər:

- Yadımdadır ki, anam ( atam, nənəm. babam, müəllimim və s.) danışırdı ki, necə...
- Düşünürəm ki, bu hadisə sizi .............inandıracaq.
- Bu zaman müəllif mövqeyi müəyyənləşdirilib, onun təsdiqinə uyğun misal seçilməlidir.

Şəxsi qənaətlər və müşahidələr əsasında arqumentlər gətirərkən belə ifadələrdən istifadə edilir:

- Mənim həyatımda buna bənzər vəziyyətlər olub...
- Böyük həyat təcrübəm olmasa da, buna bənzər vəziyyətlə .... ( dostum, sinif yoldaşım, qohumum) həyatında təsadüf etmişəm.

Ənənəvi-tarixi təcrübə görkəmli bir şəxsiyyətin avtoritet fikrinə, davranışına əsaslanır və güclü əsaslanadırmanı təmin etmiş olur.

Avtoritetə istinad

Dəlilər, adətən, "üçüncü tərəfə" – nümunəvi ictimai xadimə - alim, mütəxəssis, siyasi xadim fikirlərinə istinad, məsəl çəkmək, atalar sözündən, aforizmlərdən istifadə etməklə gətirilir. Belə arqumentlərin gücü ondadır ki, bu zaman yalnız esse müəllifinə məlum faktlardan deyil, kollektiv bilik bazasına istinad olunur.

Tərəflər kimlərdir?

Problematik sualın esse ilə cavablandırılmasında üç mövqe çıxış edir: **müəllif əsəri və ya problematik sualın müəllifi – esse – istinad mənbəyi.**

"Üçüncü tərəf" konkret bir şəxs və ya kollektivin, müəllif qrupunun münasibəti ola bilər.

**Oxucu təcrübəsi:**

- elmi-kütləvi ədəbiyyat;
- tarixi mənbə;
- bədii ədəbiyyat.

Oxucu təcrübəsinə istinad etmək tutarlı əsaslandırma deməkdir. Lakin bu təcrübədən yalnız mənbələr, müəllifin adı dəqiq xatırlandığı halda istifadə etmək lazımdır ki, faktiki səhvlərə yol verilməsin.

Öz fikirlərinə əsaslanıb arqument gətirdikdə belə bir qəlibdən istifadə etmək olar: Mən düşünürəm ki, müəllifin toxunduğu problem (aktualdır, əhəmiyyətlidir, bir çoxumuzu düşündürür, geniş ictimaiyyətin diqqətindədir), çünki bir çoxumuz oxşar (suallarla, hadisələrlə, insanlarla, vəziyyətlə) qarşılaşırıq.

Essedə nəzər nöqtəsini ifadə edən sözlər, ifadələr, cümlələr işlətmək vacibdir:

- mənim fikrimcə, inanıram ki, şübhəsiz ki,
- Müəllif məni problemə yeni nəzər nöqtəsindən baxmağa sövq etdi...
- Ola bilər ki, mən yanılıram, amma problәmә öz münasibətimi ifadə edə bilərəm..
- Müəllif sanki mənim düşüncələrimi, hisslərimi ifadə edib və s..

Nəzərə almaq lazımdır ki, tezis əsaslandırılmış fikirdir və essedə müəllifin mövqeyinin tutarlı arqumentlərlə əsaslandırılması vacib meyarlardan biridir.

# II FƏSİL

## ESSE YAZI İŞİNİN TƏŞKİLİ METODİKASI

## ESSE YAZI IŞININ TƏŞKİLİ NECƏ APARILIR?

Şagirdlərə fikirlərini sərbəst və məntiqi ardıcıllıqla ifadə etməyi öyrətdikdən sonra verilmiş mövzu üzrə esse yazdırmağa başlamaq olar. Essenin tədrisinin başlıca məqsədi – rabitəli nitqin qurulması üçün fəaliyyətlər sisteminin formalaşdırılmasıdır. Bu sistemə aşağıdakı bacarıqlar daxildir:

- verilmiş mövzuya uyğun müzakirə etmək, araşdırmaq və mətn tərtibi ilə bağlı fəaliyyətləri analiz etmək;
- plan qurmaq və onun əsasında məzmunu əhatə etmək;
- plana əsasən müəyyənləşdirilmiş strukturu qurmaq;
- mətni redaktə etmək – hadisələrin təsvirinin ardıcıllığını, cümlələrin və abzasların rabitəliliyini, informasiyanın tamlığını, üslub xüsusiyyətlərini və düzgün yazı qaydalarını yoxlamaq.

Yazı işinin təşkili prosesində, adətən, mövzunu müəllim verir. Mövzular məişət həyatı, şagirdin məktəb həyatı, onların maraq dairəsi, ictimai, milli və mənəvi, tarixi proseslərlə bağlı olur. Essenin mövzusu olan obyekt və ya təzahürlər şagird üçün maraqlı və tanış olmalıdır. Risq qrupuna daxil olan uşaqlarla işləyərkən esseni həyati məsələlər əsasında

deyil, seriya şəkillərin nümayişi, filmlərə baxmaq, süjetli şəkilləri izləmək, şagirldlərin fəaliyyətləri (məsələn, məktəb həyətində ağac əkmək və ya ekskursiyalar) əsasında yazdırmaq məqsədəuyğun hesab edilir.

Şagirdləri esse yazdırmağa alışdırmaq üçün yazı işi müəyyən ardıcıllıqla aparılır:

1. Motivin izah edilməsi (Mən nə haqqında danışacam?)
2. Ümumi fikrin yaradılması (Necə izah edəcəm?)
3. Yazılacaq mətnin strukturlaşdırılması (Hansı ardıcıllıqla izah edəcəm?)
4. Mətnin tərtibi prosesinin yoxlanılması (Bütün fəaliyyətləri doğru yerinə yetirdimmi?)

## ESSENİN MƏZMUNU ÜZRƏ İŞ

Esse yazı işinin əsasını təşkil edən nəzəri məlumatları müəllim fənnin Yazı məzmun xətti üzrə standartların ehtiva etdiyi bilik və bacarıqları nəzərə alaraq müəyyənləşdirir. Aşağıdakı sxem esse yazı işi üzrə bilik və bacarıqların inkişaf dinamikasını əks etdirir.

*Sxem 1.* Mətn tərtibi üzrə bacarıqların inkişaf dinamikası



**Şagird öz yazısında nəyi yoxlamalıdır?**

Şagirdin esse yazı bacarıqlarını inkişaf etdirmək üçün təlimin doğru təşkili mühüm şərtdir. Amma əldə edilən mətnin dəyərləndirilməsinin məqsədyönlü aparılması və nəticənin təhlili də vacibdir.

Esseni qiymətləndirmək üçün isə öncə onun yoxlanılması meyarlarını müəyyənləşdirmək lazımdır. Bu meyarlar yalnız müəllimə deyil, həm də şagirdlərə açıq olmalıdır. Çünki yoxlama prosesi şagirdin özünü yoxlamasından başlayır. Buna görə də müəllimlər şagirdləri essenin əsas xüsusiyyətləri və yazı işinə verilən tələblərlə tanış etməlidirlər:

**1. Subyektiv münasibət və fərdilik:** Hər şeydən öncə, xatırlamaq lazımdır ki, esse subyektiv yazı növüdür, şagird məsələlərə öz nəzər nöqtəsindən baxmalı, predmeti subyektiv dəyərləndirməlidir: məhz sənin nə düşündüyün əhəmiyyətlidir.

**2. Real insan obrazı:** Esseni xarakterizə edən əsas xüsusiyyət şəxsi təəssüratlar, şəxsi mövqe olduğuna görə oxucu bu yazıda real insan obrazını görmək, müəllifin səsini eşitmək istəyəcək. Nəzərə alın ki, gələcəyə hazırladığımız namizədlərin esse yazılarında işəgötürənlər məhz onların özlərini görmək istəyəcəklər. Necə ki deyilir:

***"Biz sənədlərdə rəqəmlərin göstərə bilmədiyini görmək istəyirik, buna görə də ümid edirik ki, onu essedə tapaq. Heç bir halda öz essenizdə bizə özünüz haqqında danışmaq imkanını əldən verməyin. Bu, bizə kömək edəcəkdir ki, müxtəlif göstəricilər toplusunu deyil, tamamilə real insanın namizədliyini nəzərdən keçirək."***

Esse yazıda özünüifadə üçün ağıllı, bilikli görünmək deyil, sadəcə olduğun kimi olmaq lazımdır.

**3. Fərdilik:** Ümumi fikirlərdən ibarət yazıları oxumaq darıxdırıcıdır. Şəxsi olanı, yalnız sizə məxsus olanları yazınızda əks etdirməklə daha maraqlı və cəlbedici olacaqsınız.

**4. Faktların dəyərləndirilməsi:** Hansı suala cavab verməyinizdən asılı olmayaraq, siz müəyyən məqsədə nail olmalısınız. Bunun üçün isə esse yazdığı zaman müəyyən məqamları nəzərə aldığına əmin olmaq üçün bəzi suallara cavab verməlidir:

- Verilmiş suala cavab verdimmi?
- Fikrimi hansı faktlarla, sitatlarla əsaslandırdım?
- Gətirdiyim dəlillər tutarlı və dəqiqdirmi?

**5. Yazılı nitq vərdişləri:** Esse yazı işində üslub və dil məsələləri qoyulmuş problemin aid olduğu sahədən asılı olaraq müəyyənləşir. Sözlər və onların ifadə vasitələri də buna görə seçiləcəkdir. Yazı növünün xarakterini nəzərə alıb, elmi-akademik üslubdan, terminlərdən sui-istifadədən çəkinmək lazımdır. Aydın, səlis nitq, yazı qaydalarına doğru riayət etmək yazı işinin vacib şərtlərindəndir.

**6. Detallar**: Essedə yazılanları nümunələrlə, öz təcrübələrinə isnadla dəstəklənməsi yazı işinin dəyərini artırır. Detallar esseni maraqlı, təkrarolunmaz, özünəməxsus edəcəkdir.

**7. Fərqləndirici cizgilər - maraqlı, yumoristik:** "Qaydaları pozmaqdan" qorxmaq lazım deyil. Ən yaxşısı özün kimi olmaqdır.

Çoxları fərqli fikirləri yazmaqdan çəkinirlər. Amma bilmirlər ki, bununla onların yazısı da, özləri də uduzmuş olur. Əlinizdə olan bütün imkanlardan elə istifadə edin ki, esseniz yaddaqalan olsun.

**8. Düzgünlük:** Qondarma olmaq məntiqsizlikdir. Yaxşı olar ki, hər bir vəziyyəti olduğu kimi əks etdirəsiniz. Düzgün, həm də pozitiv olmaq lazımdır. Özünüzün mənfi xüsusiyyətlərinizdən yazmalı olarkən islah olunan tərəflərinizi də göstərin.

**9. Bədiilik -** yüksək poetik dil demək deyil. İndi "münşəat" heç kimə cəlbedici görünmür. Bunun üçün, təəssürat paylaşmaq, hadisənin təfərrüatını vermək, portret yaratmaq, yeri gəldikdə isə, yumor ən yaxşı vasitədir. "Yumor güclü vasitədir, amma ondan yerində istifadə edin."

## ESSENİN QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ ÜMUMİ MEYARLAR

Essenin qiymətləndirilməsi üçün beynəlxalq və yerli qiymətləndirmədə müxtəlif rubriklər mövcuddur. Bir çox rubriklərin təhlili nəticəsində essenin qiymətləndirmə meyarlarını belə müəyyənləşdiririk:

**A. Mövzu və məzmun**

Essenin məzmünü mövzuya uyğundur.

Mövzu, problem və tezislərini aydın ifadə edir.

Tezisi mətn boyunca inkişaf etdirir.

Seçdiyi mətn tipinə uyğun olaraq məlumatlarla zənginləşdirir.

Mövzudan kənaraçıxmalara yol vermir.

Mövzunu tam əhatə edir.

Essenin məzmununu təkmilləşdirmək üçün düzəlişlər edir.

**B. Struktur və həcm**

Verilmiş həcm tələbini gözləməklə esse yazır.

Esseni tərkib hissələrinə ayırır və abzaslarla fərqləndirir.

Hissələrin həcmində tələblərə riayət edir.

Tezisi hissələrdən birində aydın ifadə edir.

Essenin giriş hissəsində mövzunu təqdim edir, problem qoyur.

Essenin əsas hissəsində fakt və nümunələrdən istifadə edir.

Essenin nəticə hissəsində firkirlərini ümumiləşdirir, qənaətini essenin əsas tezisi ilə uyğunlaşdırır.

Hissələri və abzasları keçid söz və cümlələrlə əlaqələndirir.

Essedə struktur xüsusiyyətlərinə uyğun olaraq düzəlişlər edir.

**C. Arqumentləşdirmə**

*Arqumentləri aydındır:* Yazdığı essedə arqumentlərini aydın və birmənalı ifadə edir;

*Arqumentləri etibarlıdır:* Arqumentlər dəlillərlə dəstəklənir;

*Arqumentləşdirmə uyğundur:* nəticədə verdiyi qənaət girişdəki arqumentlərlə səsləşir;

*Arqmentləşdirməni tam aparır:* Əsaslandırılmamış fikrə və arqumentlərdənkənar dəlillərə yol vermir;

*Arqumentləri doğrudur:* İstifadə etdiyi faktların, nümunələrin doğruluğunu yoxlayır.

Essedə tezisi ən azı iki arqumentlə əsaslandırır.

Essedə hər arqumenti ən azı iki fakt və ya nümunə ilə dəstəkləyir.

**D. Nitqin sintaqmatik təşkili və üslub vahidliyi**

Essedə uyğun yazı tiplərindən istifadə edir.

Fikirlərini səlis və aydın ifadə edir.

Mövzuya uyğun üslub seçir və uyğun söz ehtiyyatından istifadə edir.

Söz qruplarından mövzuya və üsluba uyğun istifadə edir.

Üsluba uyğun olaraq bədii təsvir və ifadə vasitələri ilə zənginləşdirir.

Esseni müxtəlif söz birləşmələri və cümlə quruluşları ilə zənginləşdirir.

**E. Dil və yazı normaları**

Yazdığı essedə ədəbi dil normalarına riayət edir: fonetik, leksik, qrammatik.

Essenin aydın oxunması üçün hüsnxət normalarına əməl edir.

Yazdığı esseni və başqalarının yazılarını təkmilləşdirmək məqsədi ilə dil və hüsnxət normalarına əsasən düzəlişlər edir.

## ŞAGİRD ESSESİ ƏSASINDA YOXLAMA ÜSULU VƏ QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ

## "RƏNGLİ SAHƏLƏR" ÜSULU

"Rəngli sahələr" üsulu interaktiv təlim üsuludur, dərsdə yoxlama zamanı interaktivliyin yaradılması məqsədilə tətbiq edilir.

Şagird yoxlama işini yazarkən abzasları müəyyən rənglə seçir. Hər rəng bir mənanı ifadə edir, bu isə müəllimə müəyyən işarədir.

Qırmızı sahə - "Bütün səhvlərimi düzəldin".

Yaşıl sahə - "Bütün səhvləri qeyd edin. Onları mən özüm düzəltmək istəyirəm",

Göy sahə - "Səhvlərin sayını qeyd edin, onları mən özüm tapıb düzəldəcəm".

Bu üsulu mətnin yoxlanmasında müxtəlif məqsədlərlə istifadə etmək olar. Məsələn, dil qaydaları üzrə səhvlər və uyğunsuzluqların seçilməsi üçün aşağıdakı üsuldan istifadə etmək olar.

**Leksik uyğunsuzluq / səhv – qırmızı**

**Qrammatik uyğunssuzluq / səhv – yaşıl**

**Orfoqrafik səhvlər – göy**

**Durğu işarəsi səhvləri - sarı**

**Şagird essesi**

**Essenin yoxlanmasında "sahəni rəngləndir" üsulundan istifadə edilmiş və şagird "Səhvlərimi göstər, özüm düzəliş edərəm" bəndini seçmişdir.**

***Kiçiklər də xeyirxahlıq edə bilər***

*Yaxşı, xeyirxah insan heç bir zaman yaxşılıq etmək fürsətini qaçırmır. Əli kimi, Səlim kimi. Yaxşı insanın bünövrəsi uşaqlıqdan qoyulur.*

*Əli və Səlimi birləşdirən cəhət xeyirxahlıq etməkləridir. Hər ikisi azyaşlı olmalarına baxmayaraq, onlar hər an hər kəsə kömək etməyə hazırdırlar. Hər bir insan yaxşılıq edə bilər. Yaş, var-dövlət bunlar hamısı yalnış olan məhdudiyyətlərdir.*

*Əli öz arzularının təməlini qoymaq üçün xeyirxah işlərə özünü öyrəşdirir. O, imkan daxilində hər kəsə kömək edərək gələcək həyatda daha vacib işlərə doğru gedir.*

*Səlim özünün həyatını gözə alaraq başqa birinin həyatını qurtarır. Səlim bunu bizə çatdırır ki, çox təvazökar və xeyirxah biridir.*

*Yaş, sadəcə, insanın yaşadığı müddətdir. Yaşın demək olarki, insan həyatında heç bir əhəmiyyəti yoxdur.*

***Turqut Nəhmətli***
**211 nömrəli məktəb, V sinif şagirdi**

***Müəllimin qeydləri***

*1. Yazı işində hansı mənbəyə istinad edildiyi məlum deyil. Əli və Səlimin kim olduğu açıqlanmayıb. Məzmun aydındır, amma detalların dəqiqləşdirilməsinə ehtiyac var.*

*2. Mətnin birinci cümləsi fikri dəqiq ifadə etmir. Xeyirxah insan yaxşılıq etmək üçün fürsət axtarırmı? Bu fikrin üzərində düşün.*

*3. "Yaxşı insanın bünövrəsi uşaqlıqdan qoyulur" cümləsini sözlərin daha doğru istifadəsi baxımından necə təkmilləşdirə bilərsən?*

*4. Əli və Səlimin yaxşılıqlarının sübutu açıqlanmayıb. Faktları dəqiqləşdir.*

*5. "Səlim bunu bizə çatdırır ki, çox təvazökar və xeyirxah biridir." Yardımçı fikir olaraq cümləni məzmuna və əsas tezisə uyğun təkmilləşdir.*

*6. Yekun qənaəti – essenin sonuncu cümləsini tezisə uyğun olaraq təkmilləşdir.*

*7. "Yalnış" sözü səhv yazılmışdır, düzəlt.*

*8. "Demək olarki" sözündə səhv var, düzəlt, zəhmət olmasa.*

**Balın hesablanması:**

| Aspektlər | Qeydlər | Bal |
|---|---|---|
| **Mövzu və məzmun vəhdəti** | Məzmun aydındır, lakin detalların dəqiqləşdirilməsinə ehtiyac var. | **17** |
| **Struktur və həcm** | Struktur tamdır. Əsas hissənin genişləndirilməsi uyğun olar. | **18** |
| **Arqumentləşdirmə** | Tezis yardımçı fikirlərlə sona qədər dəstəklənir. 2 arqument gətirilib. Hər arqument üçün bir faktdan istifadə edilib. | **20** |

| | | |
|---|---|---|
| **Nitqin sintaqmatik təşkili** | Mətnin birinci cümləsi fikri dəqiq ifadə etmir. Dörd cümləni fikrin ifadəsi baxımından təkmilləşdirmək lazımdır. Mətnin dili sxematikdir. Əsasən, sadə cümlələrdən istifadə edilib. | **14** |
| **Dil qaydalarına riayət** | 2 leksik, 1 qrammatik uyğunsuzluq, 2 orfoqrafik, 1 durğu işarəsi səhvi qeydə alınır. | **16** |

**Cəmi: 85 bal**

**Qeyd:**

1. Meyarlar siniflər üzrə şagirdin mənimsədiyi bilik və bacarıqlara görə müəyyən edilir. (Verilmiş nümunə yazı üzrə xüsusi bacarığı ilə fərqlənən şagirdə məxsus olduğu üçün V sinif meyarlarından kənara çıxır.)

2. Summativ qiymətləndirmə vasitələri müxtəlif tapşırıqlardan ibarət olduğu halda esse yazı işinin digər tapşırıqların həcmi və çətinlik səviyyəsi ilə müqayisədə balını müəyənləşdirib 20, 25, 50 və digər ballarla qiymətləndirmək olar.

Yoxlamadan sonra essenin müəllimin qeydləri nəzərə alınaraq təkmilləşdirilmiş variantını təqdim edirik:

### *KİÇİKLƏR DƏ XEYİRXAHLIQ EDƏ BİLƏR*

*Xeyirxah insan heç bir zaman köməyini əsirgəmir: Səlim kimi, Əli kimi. Səlim "Təcili qan axtarılır", Əli isə "Xeyirxah Əli" hekayəsinin kiçik qəhramanlarıdır. Hər iki əsərin məzmununa əsasən deyə bilərəm ki, insanın yaxşılıq etməyinin bünövrəsi uşaqlıqdan qoyulur.*

*Əli və Səlimi birləşdirən cəhət xeyirxahlıq etməkləridir. Hər ikisi azyaşlı olmalarına baxmayaraq, onlar həmişə hər kəsə kömək etməyə hazırdırlar. Hər bir insan yaxşılıq edə bilər. Yaş, var-dövlət - bunlar hamısı yanlış olan məhdudiyyətlərdir.*

*Əli kasıb sinif yoldaşına maddi kömək göstərir. O öz arzularının bünövrəsini uşaqlıqdan qoyur. O, böyüyəndə biznesmen olub imkansızlara kömək etmək istəyir.*

*Səlim yaxın dostunun atasına qan verərək onun həyatını xilas edir. Onun bu hərəkəti kiçikyaşlıların da yaxşılıq edə biləcəyini sübut edir.*

*Yaş, sadəcə, insanın yaşadığı müddətdir. Yaşın insanın keyfiyyətlərinin formalaşmasında böyük əhəmiyyəti yoxdur.*

**Esse yazmaq üçün tapşırıq verərkən meyarların təqdim edilməsində də "sahəni rəngləndir" üsulu səmərəlidir.**

**Nümunə (Xarici təcrübədən):**

*Müəllim şagirdlərə esse yazmaq üçün tövsiyələr verir:*

*1. **Strukturu nəzərə alın:** giriş, mövzunun lehinə olduğunuzu bildirən əsas abzaslar, mövzunun əleyhinə olduğunuzu bildirən əsas abzaslar, nəticə.*

*3. **Bitərəf olun və rəsmi dildən istifadə edin**. Emosional və ya qeyri-rəsmi dildən çəkinin.*

*4. Əsas tezisi vermək, köməkçi fikirlərlə inkişaf etdirmək, əlaqələndirmək və ümumiləşdirmək üçün **uyğun söz və ya ifadələrdən istifadə edin.***

*5. **Fikirlərinizi əsaslandırmaq üçün nümunələrdən istifadə edin**.*

*2. Hər iki mövqeyi qorumaqla nəticədə **qənaətlərinizi ümumiləşdirin**.*

***TEZİS: Onlayn ünsiyyət üzbəüz ünsiyyətə nisbətən üstün tutulur.***
***Mühakimələrinizi yazın.***

*Hal-hazırda üzbəüz ünsiyyətdən daha çox biz sosial media və yaxud da video zənglər kimi onlayn ünsiyyət üsulları ilə əlaqə qururuq. Onlayn ünsiyyətin qaçılmaz olduğu hallar vardır, ancaq üzbəüz ünsiyyətin əksinə, daha çox onlayn ünsiyyətə üstünlük verdiyimiz zamanlar da mövcuddur. Beləliklə, sual yaranır: Müasir dünyada onlayn ünsiyyət daha üstün tutulurmu?*

*Mən öncə onlayn ünsiyyətin üstünlüklərini qeyd etmək istərdim. Onun lehinə söylənilə biləcək əsas arqumentlərdən biri*

*odur ki, o, dünyanın müxtəlif yerlərindəki insanlar üçün ünsiyyət imkanı yaradır. Bunun iş yerində faydaları var, çünki Stokholm, San Fransisko və Şanxay arasındakı videokonfrans vasitəsilə aparılan görüşlər, yorucu, uzunmüddətli işgüzar səfərlərə ehtiyac olmadan baş tuta bilər. Bundan əlavə, ayrı-ayrı ölkələrdə məskunlaşan ailələr və dostlar üçün gündəlik əlaqə saxlamaq üçün imkan yaradır. Başqa bir məqam ondan ibarətdir ki, yazılı onlayn ünsiyyət bizə dərhal və ya bizə uyğun gələn vaxtda cavab vermək, həmçinin mesajımızı redaktə etmək imkanı verəcəkdir.*

*Digər tərəfdən, onlayn ünsiyyətdən həddən artıq istifadənin bir sıra önəmli çatışmazlıqları var. Bəzi ekspertlər üz-üzə qarşılıqlı əlaqənin olmamasının empatiya qurmaq və vəziyyətlərə reaksiya vermək kimi həyati sosial bacarıqların inkişafına mane olduğundan narahatlıq duyurlar. Həmçinin, onlayn ünsiyyətin mahiyyəti fərqlidir. İfadələrlə bəzədilmiş qısa dialoq parçaları birbaşa söhbətin daha uzun hissələrini real üzlərdə ifadə olunan emosiyalarla əvəz edərsə, biz gerçək ünsiyyətin nə olduğunu unuduruq.*

*Mən onlayn ünsiyyətin bugünkü qlobal cəmiyyətdə faydalı olması fikrinin lehinəyəm. Bununla belə, biz əyani ünsiyyətin faydalarını nəzərdən qaçırmamağa da diqqət etməliyik.*

## XARİCİ TƏCRÜBƏDƏ ESSENİN QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ NÜMUNƏLƏR

**Qeyd:** Tərcümə zamanı nümunələrin orijinal mətnlərindəki səhvləri saxlamağa çalışmışıq.

**Nümunə 1**

**Problem**

Texnologiya insanların həyatında mühüm rol oynayır. Komputerlər, avtomobillər, mətbəx maşınları hər kəs tərəfindən istifadə olunur. Texnologiyadan istiifadənin insanların həyatına faydası və ziyanı nələrdir? Cavabınızda misallardan istifadə edin.

***Esse***

*İllər ərzində texnologiya çox inkişaf etmişdir. Müasir dövrdə, demək olar ki, hər kəs texnologiyadan istifadə edir. Texnologiyanın bəşəriyyətə verdiyi xeyir çox böyükdür, lakin onun ziyanları barədə danışmamaq mümkünsüzdür.*

*Birinci kompüterlərdən başlayaq. Kompüterlər onu istifadə edən şəxsin ailə üzvləri ilə münasibətlərinə ziyan vurur. Məsələn, bir masa ətrafında şam yeməyi adəti ailə üzvlərinin birinin kompüter aludəçiliyi səbəbindən pozula bilər. Buna görə də insanlar texnologiya erasına adaptasiya olmaqla bəzi ailə dəyərlərini və adətlərini unudurlar.*

*Ikincisi, texnologiyadan istifadənin artması yalnız ailə dəyərlərinə deyil, həmçinin ətraf-mühitə də zərərlidir. Insanlar*

*şəxsi avtomobilindən davamlı istifadə edərkən və ya öz noutbuklarını gün ərzində açıq qoyarkən istifadə olunan enerji və işığın yalnız yerli ətraf-aləm üçün deyil, bütün dünya üçün təhlükəli olduğu barədə düşünmürlər. Texnologiyanın həddən artıq istifadəsi cəmiyyəti qlobal istiləşmə təhlükəsinə daha da yaxınlaşdırır, buna görə də biz dayanmalıyıq.*

*Girişdə vurğuladığım kimi, texnologiya təbiəti məhv etmək üçün yox, əksinə, dünya əhalisinə kömək məqsədilə yaradılmışdır. Müasir dövrdə ailələr 1950-1990-cı illərdəki kimi o qədər də bir-birinə bağlı deyil, lakin bu bağlılığı davam etdirmək və qohumlarla əlaqədə olmaq üçün texnologiya bizə alternativ üsullar təklif edir. Buna Skype, Whatsapp və Viber kimi proqramları misal göstərmək olar. Biz sevinməliyik ki, bəzi kasıb ölklələrdən fərqli olaraq, texnologiyanın həyatımıza gətirdiyi möcüzələrdən istifadə edirik.*

*Düşünürəm ki, texnologiyanın insanlara faydalıdır. Lakin onun həddən artıq istifadəsi artıq təhlükəli hal almağa başlayıb və bu nəzarət altına alınmalıdır.*

**Qiymətləndirmə**

Esse 97 balla qiymətləndirilir. Bu mətn redaktə edilmiş yazı nümunəsdir. Essedə sintaktik nəzarət güclüdür. Müəllif mürəkkəb və çoxşaxəli sintaktik strukturların üzərində ardıcıl nəzarəti nümayiş etdirir. İstifadə olunan lüğət dili zəngindir. Essedə tamlıq vardır. Esseni oxuyarkən fikirlərin ardıcıllığını izləmək rahatdır. Esse aydın oxunur.

**Nümunə 2**

**Problem**

Insanlar həkimlərdə müxtəlif xüsusiyyətlərə üstünlük verirlər. Hər kəs savadlı həkim axtarışındadır. Bəs həkimdə digər xüsusiyyətlər önəmlidirmi? Əgər elədirsə, səbəbini izah edin.

***Esse***

*Həkimlərin cəmiyyətdə rolu danılmazdır. Hər bir şəxs sağlamlığını onlara əmanət etdiyi üçün həkimlərin təhsilli olması vacibdir. Insanların həyatda qalması çox zaman onların əlindədir. Demək olar ki, hər kəs çox savadlı və təcrübəli həkim axtarışındadır.*

*Savadlı olmağın bir həkim üçün önəmli olmasına baxmayaraq, "yaxşı həkim" anlayışını yalnız bilik faktoru təşkil etmir. Xarakter və bütövlük də önəmli rol oynayır. Cəmiyyətə qarşı məsuliliyyətli davranmaq həkimlərin ən əsas xüsusiyyəti olmalıdır. Nəzərə alsaq ki, gənclərin əksəriyyəti gələcəkdə bu peşəyə yiyələnmək istəyir, bu xarakterlə onlar gənclərə örnək olmalıdırlar.*

*Məsələn, vətənim Nigeriyada tibb sahəsində problemlər çoxdur. Bəzən həkimlər xəstəyə qarşı məsulliyyətli davranmırlar və bunun əsas səbəbi xəstənin tibbi müayinə üçün nəzərdə tutulmuş məbləği ödəyə bilməməsidir. Andiçmə mərasimində həkimlər xəstənin sağlamlığının onlar üçün hər şeydən önəmli olduğunu qeyd etsələr də, bəzən buna əməl etmirlər. Doğrudur, "Üçüncü dünyanın" həkimlərinin çox çətinliklərlə qarşılaşması faktı danılmazdır, lakin mən inanıram ki, "yaxşı həkim" xəstənin həyatını qurtarmaq üçün dərhal hərəkətə keçməlidir. Kana-*

*dada qaldığım qısa müddətdə "yaxşı həkim"lərin burada üstünlük təşkil etdiyinin şahidi oldum.*

*Sonda qeyd etmək istəyərdim ki, savadlı, lakin pis xarakterli və pul qazanmaq istəyi xilas etmək istəyindən daha çox olan həkim "pis həkimdir".*

**Qiymətləndirmə**

Bu esse 93 balla qiymətləndirilir. Müəllif oxunaqlı və məqsədəuyğun esse yazıb. Müəllif güclü sintaktik strukturdan istifadə edərək, əlaqəli və vəhdət təşkil edən yazı nümunəsi təqdim edib.

Bəzi yerlərdə uyğun olmayan ifadələri çıxmaq şərtilə, müəllifin lüğətdən istifadəsi qənaətbəxşdir.

Essenin bəzi hissələrində  mözudan cüzi yayınmalar var.

**Nümunə 3**

**Problem**

Yeni yerlərə səyahət edərkən bəzi insanlar peşəkar bələdçilər tərəfindən aparılan qrup turlara üstünlük verirlər. Digərləri  isə bu yerləri özləri kəşf etmək istəyirlər. Siz hansına üstünlük verirsiniz? Fikirlərinizi əsaslandırmaq üçün səbəblər və misallar göstərin.

***Esse***

*Səyahət və yeni ölkələrin kəşf edilməsi həyəcanvericidir. Mən, adətən, səyahət etdiyim yeni məkanları kəşf etmək üçün bələdçi tərəfindən aparılan turlara üstünlük verirəm. Bununla*

*da həmin ölkənin gəzməli yerlərini və restoranlarını tanımaq və müxtəlif ölkələrdən olan turistlərlə ünsiyyətdə olmaq şansı əldə edirəm.*

*Bu ekskursiyalara qatılmaqla turistlər həmin ölkənin tarix və mədəniyyət ocaqlarını gəzmək imkanı əldə edirlər. Məsələn, keçən il Dubaya səyahətim zamanı bu əsrarəngiz şəhəri gəzmək üçün "Big Bus Tour"a qoşuldum. Dubay muzeyini gəzərkən belə gözəl şəhərin 60 il bundan qabaq salındığını öyrəndim. Bu tura qatılmasaydım, belə önəmli məlumat barədə xəbərsiz olardım.*

*Belə turlara önəm verməyimin digər səbəbi isə turistlərlə birgə zaman keçirməyimdir. Tur ərzində müxtəlif ölkələrdən olan vətəndaşlarla tanış olmaq və hisslərini bölüşmək şansı əldə edirsən. Bu da öz növbəsində müxtəlif mədəniyyətlərlə tanış olmaq və dostluq əlaqələri qurmaq üçün əlverişlidir. Məsələn, iki il əvvəl Meksikaya səyahət edərkən mən fərqli mədəniyyətlər barədə məlumatlar əldə etdim .*

*Turlara önəm verməyimin başqa bir önəmli faktoru odur ki, ölkənin ən populyar restoranları ilə tanış olmaqdır. Bələdçi kağızlarının bu barədə məlumat verməsinə baxmayaraq, tur bələdçiləri daha yerli qeyri-adi restoranları məsləhət görürlər. Məsələn, Meksikada ən dadlı yeməkləri bələdçinin məsləhəti ilə getdiyim restoranda daddım. Bu unudulmaz bir təcrübə idi.*

*Sonda qeyd etmək istəyirəm ki, peşəkar turlara pul xərcləməyə dəyər, çünki bununla siz müxtəlif mədəniyyətlər və məşhur restoranlarla tanış olmaq imkanı əldə edirsiniz.*

**Qiymətləndirmə**

Bu esse 87 balla qiymətləndirilir. Essedə mövzunun inkişafı yaxşıdır. Müəllif fikrini aydın ifadə edir və fikrini

əsaslandırmaq üçün yetərli sübutlar irəli sürür. Müəllif sadə cümlənin növlərindən uğurla istifadə edir, lakin daha mürəkkəb cümlələrdə çox az səhvlərə yol verir. Yazının dili və üslubu mövzuya uyğundur, lakin xüsusi anlayışlardan az istifadə olunub. Essenin 87 bal ilə qiymətləndirilməsinin səbəbi odur ki, mövzunun inkişafı və cümlələrin quruluşu düzgündür.

**Nümunə 4**

**Problem**

Müasir dövrdə əsas işlə yanaşı müxtəlif part-taym işlərlə olurlar. Bunun faydası və ziyanı nələrdir? Fikrinizi əsaslandırmaq üçün misallardan istifadə edin.

***Esse***

*Cəmiyyətin inkişaf etməsi ilə əlaqədar insanların yaşayış tərzi də tədricən dəyişir. Cəmiyyətin müxtəlif part-taym işlərdə işləməsi geniş yayılmışdır. Bunun şahidi olan insanlar bir neçə işdə işləməyin onlara faydalı və ya zərərli olduğunu dərk etməyə çalışırlar. Düşünürəm ki, belə iş şəraitinin insanlar üçün faydası ilə yanaşı zərəri də vardır. Bəziləri part-taym işləyərək onlara maraqlı gələn müxtəlif sahələrdə eyni zamanda çalışmaq və daha çox pul qazanmaq şansı əldə edirlər. Lakin bəzi insanlar düşünürlər ki, eyni gündə müxtəlif işlərlə məşğul olmaq çox enerji və vaxt tələb edir.*

*Part-taym işlərdə işləməyin ən böyük faydası müxtəlif işlərdə özünü sınamaq şansıdır. Məsələn, mənim qardaşım bankda məsləhəçi vəzifəsində çalışır. Lakin eyni zamanda da o, barmen-*

*lər haqqında çoxlu videolara baxdığı üçün barmen olmaq qərarına gəldi və gecələri barmen olaraq fəaliyət göstərir. Bu iş ona dünyağörüşünü artırmaqda və xəyallarını gerçəkləşdirməkdə kömək oldu.*

*Həmçinin part-taym işlər insanlara daha çox pul qazanmaq imkanı verir. Part-taym işləmək pula ehtiyacı olanlar üçün çox əlverişlidir. İnsanlar günün əksər hissəsini işləməklə keçirsələr də, bu onlar üçün faydalıdır. Cəmiyyətdə uşaqların təhsil haqqını və ya digər ödənişləri qarşılamaq üçün part-taym işliyən yetərincə insan vardır.*

*Part-taym işlərlə məşğul olmaq zaman və enerji tələb edir və bu da belə işlərə çalışmağın ən pis cəhətidir. Insanlar işləməkdən yorğun düşürlər və daha stresli olurlar. Onlar ailələrinə vaxt ayıra bilmirlər. Part-taym işlərdə çalışanların yeganə istəyi işi tamamlayıb yatmaqdır. Əgər ailə başçısı ata eyni zamanda müxtəlif part-taym işlərdə çalışırsa bu onun övladına ziyanlı ola bilər. Uşaq ata sevgisindəm məhrum olar və atasından örnək aldığı kimi gələcəkdə yalnız iş barədə düşünər.*

*Bütün bunları nəzərə alaraq sonda qeyd etmək istiyərdim ki, part-taym işləmək sizin üçün faydalı olmaqla yanaşı, zamanınızı məhv edə də bilər. Ona görə də belə bir məsuliyyətin altına girməzdən öncə düşünmək lazımdır. Zaman hec vaxt geri qayıtmır.*

**Qiymətləndirmə**

Esse 77 balla qiymətləndirilir. Essedə bütövlük var və məntiqi nəticə ilə bitir. Müəllif sadə və mürəkkəb mətn vahidlərindən istifadə edir, lakin bunu mükəmməl bacarmır. Bəzi cümlələrdə morfoloji, orfoqrafik səhvlər var. Istifadə

olunan lüğət müəllifin fikrini ifadə etməsi üçün yetərli deyil. Esse aydın yazılıb, mövzunun inkişafı qənaətbəxşdir.

**Nümunə 5**

**Problem:**

İnsanlar həkimlərdə müxtəlif xüsusiyyətlərə üstünlük verirlər. Hər kəs savadlı həkim axtarışındadır. Bəs həkimdə digər xüsusiyyətlər önəmlidirmi? Əgər elədirsə, səbəbini izah edin.

***Esse***

*Aydındır ki, həkim seçərkən insanlar onun bitirdiyi universitetə və təhsilinə önəm verir, çünki onlar həyatlarını həkimə etibar edirlər. Buna baxmayaraq, xəstəxanada xəstənin vəziyətinə təsir göstərən digər önəmli faktorlar da var. Birinci faktor həkimin xəstəni onun vəziyyəti və əldə etdiyi irəliləyiş barədə məlumatlandırma bacarığıdır. Xəstəxanaya yerləşdirilən hər bir kəs burada hansı proseslərdən keçəcəyi barədə narahatdır. Həmçinin əməliyyata girən xəstə hazırki vəziyyəti və əməliyyatdan sonra onu nə gözləyəcəyi barədə düşünür. Həkim çox savadlı və təcrübəli olsa da, xəstəyə lazımi məlumatları vermədikdə xəstə qorxu hissi keçirir.*

*Ikincisi həkimlər xəstəyə isti münasibət göstərməlidirlər. Onlar xəstənin keçirdikləri hissləri anlamalıdırlar. Bu sağalmaz xəstəliyə yoluxan xəstə üçün böyük motivasiyadır.*

*Müasir dövrdə cəmiyyət çox dəyişib . Bu dövrün həkimləri xəstələrə öz ailə üzvü kimi baxmalı və səbirli olmalıdırlar.*

**Qiymətləndirmə:**

Bu esse 67 balla dəyərləndirilir. Mətnin məzmununda natamamlıq var. Lakin müəllif ilk abzasda cümlələrin quruluşunu düzgün tərtib edir və müəyyən qədər məntiqi ardıcıllıqla davam etdirir. İlk abzasdan sonra müəllif fikirlər üzərində idarəni itirir və essedə uyğunsuzluq yaranır.

Sonrakı abzaslarda istər cümlələnin sintaktik quruluşunda, istərsə əlaqəsində kobud səhvlər vardır. Müəllif birinci paraqrafda nümayiş etdrdiyi bütövlüyü sonrakı abzaslarda saxlaya bilmir.

**Nümunə 6**

**Problem:**

Dünyada müxtəlif enerji mənbələri vardır (məsələn, günəş, külək, neft, su, təbii qaz və s.). Bu mənbələrdən birini seçin, mənfi və müsbət cəhətlərini müzakirə edin.

***Esse***

*Insanlar iddia edirlər ki, su enerjidir. Biz suyu hər yerdə istifadə edə və görə bilərik. Hər bir varlığın çox miqdarda enerjini təmin etmək üçün suya ehtiyacı vardır.*

*Su dünyada çox önəmli rola malikdir. İnsanlar suyu paltar yumaq və ya enerji yığmaq üçün istifadə edirlər. Həmçinin dənizlərin və çayların suları da lazım olan əşyaların daşınmasında bizə köməkçi olur. Hərkəs üçün ən önəmlisi enerjidir.*

*Lakin onun mənfi cəhətləri də vardır. Məsələn yağışın çox yağması təbii fəlakətə çevrilə və insanların həyatını məhv edə bi-*

*lər. Həmçinin ətraf-aləmi qorumasaq su çirklənə bilər və çirkli suyu içmək bizə çox zərər gətirər.*

*Sonda qeyd etmək istiyərdim ki, su bizə həyat verir və buna görə də biz onu qorumalıyıq. Çalışın suların çirklənməsinin qarşısını alın.*

**Qiymətləndirmə:**

Bu esse 63 balla qiymətləndirilir. Mətn mövzuya uyğundur, lakin çox məhduddur. Müəllif mətnin təşkili biliklərindən istifadə etmişdir və girişdən sonluğa qədər bunu tətbiq etməyə çalışmışdır. Lakin bunu etməsinə baxmayaraq oxucu esseni oxuyarkən mənanı və əlaqəni anlamaqda çətinlik çəkir. Mətn bütöv deyil. Cümlələri dərk etmək üçün təkrar oxumaq lazımdır.

**Nümunə 7**

**Problem:**

Dünyada müxtəlif enerji mənbələri vardır (məsələn, günəş, külək, neft, su, təbii qaz və s.). Bu mənbələrdən birini seçin, mənfi və müsbət cəhətlərini müzakirə edin.

***Esse***

*Dünyada çoxlu insanlar və hərkəs susuz yaşaya bilmir. Çünki çoxlu səbəblər vardır. Bu esseylə mən məlumat verməyə çalışacam. Birinci əsas faktor suyun əlçatanlığıdır. Çünki su həyatımızda əsas yerə malikdir. Bizi suyu yerdə torpağın altında, yağış yağanda görə bilərik. Suyun çoxlu faydaları var. dünyada*

*hər kəs suya ehtiyacdır. Bitkilər və heyvanlar sudan hər gün istifadə edirlər.*

*Ikincisi insanların suya ehtiyacı vardır. Evləri təmizləyəndə də biz sudan istifadə edirik.*

*Heçkimi susuz təsəvvür elemir. Düşünürəm ki, qazetlər və jurnallardan suyu necə qorunmaq barədə yetərincə məlumat almaq olar.*

**Qiymətləndirmə:**

Bu esse 57 balla dəyərləndirilir. Essenin həcmi verilən bala nisbətdə çox olsa da, yazılan cümlələri anlamaq çətindir. Cümlələrin sintaktik quruluşu çox zəifdir, müəllif sadə bir cümləni belə düzgün qura bilmir. Lüğətdən səhv istifadə olunub. Mətn mövzuya uyğun olsa da, ümümi fikri anlamaq çox çətindir. Qrammatik səhvlər çoxdur.

**Nümunə 8**

**Problem**

Dünyada müxtəlif enerji mənbələri vardır (məsələn, günəş, külək, neft, su, təbii qaz və s.). Bu mənbələrdən birini seçin, onun mənfi və müsbət cəhətlərini müzakirə edin.

***Esse***

*Günəş yayda müxtəlif ölkələrdə qızdırıcıdır. Qorumaq üçün eynək və şlyapa taxın, baş ağrısı yarada bilər. Açıx rəngli paltarlar geyinin ki, günəşin istiliyi çox hopmasın. Yayda hamı dənizə gedirlər. Çünki sərinləmək istiyirlər. Çiməndən sora günəşın al-*

*tında oturmuyun. təhlükəsiz olmaq üçün duş alın. Çünki dəniz duzdudu və daha da yana bilırsız.*

**Qiymətləndirmə**

Bu esse 53 balla qiymətləndirilir. Müəllif mövzunu yanlış anlamışdır. Abzaslara ayırmamışdır. Kifayət qədər qrammatik, orfoqrafik və sintaktik yanlışlıqlara yol verilib. Cümləlləri anlamaq çətindir.

**QEYD:** ***Esselər 100 ballıq şkala ilə qiymətləndirilmiş və 50 bal yalnız imtahanda iştiraka görə nəzərdə tutulmuşdur. Buna görə də bütün yazı işləri 50-dən yuxarı balla qiymətləndirilmişdir.***

# III FƏSİL

# ESSENİN YAZI TİPLƏRİNƏ GÖRƏ NÖVLƏRİ

## ESSENİN YAZI TİPLƏRİNƏ GÖRƏ NÖVLƏRİNİN SƏCİYYƏLƏNDİRİLMƏSİ

Azərbyacan dili dərsliklərində essenin növləri mətnin tipinə görə belə səciyyələndirilir:

- Nəqli esse
- Təsviri esse
- İnformativ esse
- Mühakimə xarakterli esse.

Xarici təcrübələrdə essenin növləri müxtəlif yollarla səciyyələndirilir. Görkəmli esseist Oldos Xaksli müəllif mövqeyinə görə üç əsas qrupa ayırmışdır:

- şəxsi və avtobioqrafik,
- obyektiv və faktik,
- mücərrəd və universal.

Oldos Xaksli essenin növlərini mətnin tipinə görə belə səciyyələndirilir:

**Nəqli / şəxsi essedə** müəllif çox zaman şəxsi təcrübəsinə aid olan hadisə nəql edir. Nəqli/şəxsi esselər insanların əhval-ruhiyyəsini möhkəmləndirmək və ya dərs çıxarmaq, müxtəlif həyati məsələlərdə nümunə olmaq məqsədilə yazılır. İnsanlar esse növlərindən ən çox nəqli esse ilə

tanışdırlar, çünki yazıçılar və görkəmli şəxsiyyətlərin nəşr etdirdikləri esselərlə çox qarşılaşırlar.

**Təsviri esse:** Təsviri essedə insan, predmet, situasiya təfərrüatları ilə təsvir edilir. Essenin mövzusu o qədər konkret, məzmunu elə canlı, “əyani” ola bilər ki, onu sanki istənilən duyğu üzvi ilə və ya duyğuların beşi ilə də hiss etmək olar.

**İnformativ/izahedici esse** – konkret bir konsepsiyanı və ya problemi izah edən faktoloji yazıdır. Araşdırmaçı-jurnalistlər, adətən, öz yazılarında bu metoddan istifadə edirlər, idarəçilərin tərtib etdikləri mətnlər də bu üslubda olur.

**Akademik esse:** təhsilverənlər çox vaxt öyrənənləri müəyyən predmet üzərində dərin düşünməyə cəlb etmək və onların biliklərini yoxlamaq üçün bu essedən istifadə edirlər. Buna görə də akademik essedə rəsmi dil və intonasiyadan istifadə edilir, buraya mənbələrin göstərilməsi və bioqrafiya daxil edilə bilir. Bu, obyektiv essedir və faktlara əsaslanır, burada, adətən, beş abzas modeli tətbiq olunur: giriş, əsas hissədə üç abzas və nəticə. Essenin digər bir sıra digər – arqumentləşdirilmiş, izahedici tipləri də bu anlayışla eyniləşdirilə bilər.

Akademik esse mövzusu olaraq problematik sual verilir. Essenin məqsədi oxucuları sübutlarla əsaslandırılmış ideyaya inandırmaqdır.  Burada tezisin isbatı və arqumentləşdirmə olmalıdır. Mətndə hər hansı bir mövzuda təqdimat olur və ya müzakirə aparılır: tezisin mühakimə və sübutlarla inkişafı izlənilir.

Akademik essedə nümunələr, dəlillər və ya informasiyalar akademik mətnlər və ya etibarlı mənbələrdən seçilir.

**Analitik esse** – hər hansı bir sosial hadisəni, bədii əsəri və ya sənət əsərini təhlil edir. Bu tip esse özündə obyektiv yanaşmanı və həmçinin şəxsi nəzər nöqtəsini birləşdirir. Filmlərin, televerilişlərin, sənət əsərlərinin professional şərhi analitik essenin çox yayılmış formasıdır ki, insanlar gündəlik həyatlarında bununla mütəmadi qarşılaşırlar.

**Arqumentləşdirilmiş / sübutedici esse**: esseist mübahisəli məsələ ilə bağlı öz fikrini deyir və əks nəzər nöqtəsini təkzib edir. Onun məqsədi – oxucunu özüylə razılaşdırmağa nail olmaqdır. Bu esselər şəxsi, faktiki və eyni zamanda qarışıq ola bilər.  Onların yumoristik və ya satirik olması da mümkündür. Conatan Sviftin "Ciddi təklif" əsəri satirik essesidir ki, burada təsdiq olunur ki, irlandiyalılar üçün yoxsulluqdan qurtarmağın yolu – uşaqlarını zəngin adamlara qida mənbəyi kimi satmaqdır[1]. (**https://www.supersummary.com/essay/**)

**Qeyd 1.** Vəsaitdə essenin növləri həm "Azərbaycan dili" fənninin məzmununda səciyyələndirildiyi kimi, həm də müəyyən məqamlarda xarici təcrübəyə əsasən izah edilir.

[1] Arqumentativ essenin bu xüsusiyyəti felyetonu xatırladır. Fərqi müəyyənləşdirmək üçün araşdırmaya ehtiyac var.

**Qeyd 2.** Yaxşı yazılmış esselər əsas hissəsində müxtəlif mətn tiplərindən istifadə edilir. Mısələn, nəqli esselərdə təsvirə yer verilir. Situasiyanın təsviri olan mətnləri təhkiyədən kənar tutmaq mümkün deyil və yaxud arqumentativ esselərdə epizodlardan çox istifadə edilməsinə təsadüf edirik və s.. Beynəlxalq təcrübəyə əsasən belə nəticəyə gəlmək olar ki, esse yazı işində istifadə olunan aparıcı yazı tipinə görə səciyyələndirilir.

## NƏQLİ ESSE

Nəqli esse - oxucunun diqqətini müəyyən konkret və ya ekspressiv detallara cəlb etməklə, hekayənin müəllifin nəzər nöqtəsindən təqdimatıdır.

Nəqli esseni hekayə janrından fərqləndirən cəhət məqsədin, sadəcə, bədii bir əsər yazmaq deyil, danışdığı hadisə vasitəsilə müəllifin bir problemlə bağlı öz münasibətini ifadə etməsidir. Müəllif öz şəxsi təcrübəsini əks etdirən hadisəni nəql edir, həmçinin oxucunun diqqətini hekayəni danışmaqda məqsədinə, problemin həllinə cəlb edir.

Xarici mənbələrdə nəqli essenin funksiyasını izah edən müxtəlif yanaşmalarla qarşılaşmaq olur. Məsələn:

1. Nəqli esse – sizin maraqlı və anlaşıqlı şəkildə hekayə danışma bacarığınızı yoxlayır. Bu zaman sizin öz hekayənizi haradan başlayıb, harada bitirəcəyiniz, onu cəlbedici dillə necə təqdim edəcəyiniz gözlənilir.

2. Nəqli essedə siz çox zaman şəxsi həyatınızdan hadisə danışırsınız, həmçinin müəyyən məqamları vurğula-

yırsınız. Burada məqsəd cəlbedici hekayə danışmaq deyil, əldə etdiyiniz təcrübənin əhəmiyyətini aydınlaşdırmaqdır.

Hər iki yanaşmanı doğru qəbul etmək olar, lakin birinci yanaşmada nəqli essenin funksiyası dəqiq ifadə edilməmiş, sadəcə, onun təhkiyə xüsusiyyətləri vurğulanmışdır. Nəqli essenin bu şəkildə tərif edilməsi məlumatsız oxucunun təsəvvürünü yanlış formalaşdıra bilər və bunun sayəsində yanlış olaraq bəzən nəqli esse, sadəcə, müəllifin şəxsi hekayəsinin nəql edilməsi kimi başa düşülə bilər. Halbuki nəqli esse yalnız süjetdən ibarət deyil, essenin digər növləri kimi problematik giriş, hekayədən ibarət əsas hissə və ümumiləşdirici funksiyanı yerinə yetirən nəticə hissəsindən ibarət olur.

**Niyə nəqli esse yazırıq?**

Bunu edərək siz öz fikirlərinizi, qənaətlərinizi, yanaşmalarınızı dünyaya təqdim etməyi öyrənirsiniz. İnsanların sizin tarixçənizdən ilhamlanmaları üçün fikirlərinizi ardıcıl və cəlbedici şəkildə ifadə etmək və bölüşmək bacarığına yiyələnirsiniz.

İşi görən təhkiyədir:

İnsan beyni 70 faiz informasiyanı hadisə əsasında və 95 faizini emosiya əsasında yadda saxlayır; buna görə də insanları sizi dinləməyə cəlb etməyin əsas yolu onlara hekayənizi danışmaqdır.

Nəqli esse kimi yazılı tapşırıqlar hadisəni insanları cəlb edəcək şəkildə danışmaq bacarığını formalaşdırır.

Sizin düzgün yazılmış esseniz başqalarını dünyanı sizin gözünüzlə görə bilmələri və öz yanaşmalarınızı paylaşmağınız üçün ən yaxşı vasitədir. Bu, həm də oxucuların

dünyagörüşlərini artırmaq, öz həyat təcrübələrindən daha yaradıcı faydalana bilmələri üçün ən yaxşı üsuldur.

Şəxsi hekayənin gücünü dəyərləndirmək çətindir. Kristiana Censin riqqətə gətirən TED çıxışlarını dinləyin. Məgər ilham və motivasiya üçün kifayət deyilmi?

**Nəqli essenin xüsusiyyətləri**

Bunu bilməlisiniz!

Nəqli esse qısa hekayə demək deyil. Bu, fantaziya, təxəyyül deyil. Nəqli esse də tədrisdə istifadə edilən digər növlər kimi, baş vermiş reallıqları əks etdirən formal mətndir.

Əgər siz uydurma hekayə yazacaqsınızsa, bu, nəqli esse olmayacaq.

Beləliklə, nəqli essenin xarakterik cizgiləri bunlardır:

– Qeyri-rəsmidir, birinci şəxsin dilindən yazılır (Siz burada təhkiyəçisiniz).

– Mübahisə və ya öyrətmək məqəsdilə deyil, məlumatlandırmaq, maarifləndirmək məqəsdilə yazılır.

– Xronoloji ardıcıllıqla səhnəni, hadisələri təsvir edir.

– Uydurma deyil, real təcrübədən bəhs edir.

– Hekayənin elementlərindən təşkil olunsa da, essenin strukturuna uyğun yazılır.

**Nəqli essenin quruluşu**

Digər akademik yazılar kimi, nəqli esse də öz quruluşuna malikdir. Nəzərə alsaq ki, bu, şəxsi təcrübə haqqında qeyr-rəsmi yazı növüdür, təhkiyənin xüsusiyətləri, formatı və elementlərinə malik olacaq.

1 – **Elementlər**

Hər bir təhkiyə hekayə olmaq üçün beş elementdən ibarət olur: problematika, situasiyanın məkanı, xarakter, konflikt və süjet.

***Problematika:*** bu, hekayətinizin qarşısında duran sualdır: Siz bu hekayəni niyə söylədiniz? Hansı məsələni qaldırdınız?

***Parametrlər:*** hadisə nə vaxt və harada cərəyan edir; başqa sözlə, bu, zaman və məkandlr.

***Personaj:*** sizin tarixçənizin süjetini idarə edən əsas qəhrəmandır. Həmçinin ikincidərəcəli qəhrəmanların verilməsi mümkündür. Hekayədə qəhrəmanların xarakteri açılır.

***Konflikt:*** bu, personajn gərgin məqamda aradan qaldırmalı olduğu problemdir. Ədəbiyyatda konflikt qəhrəmanın əks qüvvələrlə mübarizəsi kimi müəyyənləşir. Bu qüvvələr üçdür: digər personajlar (düşmənlər), xarici qüvvələr (cəmiyyət. təbiət, texnika, taleh) və qəhrəmanın özü (onun daxili konflikti). Öz nəqli essenizdə bu üç qüvvədən birindən istifadə etməyə çəkinməyin.

Bütün bu beş elementi nəqli essedə birləşdirmək və hadisəni hekayəyə çevirmək üçün sizə süjet lazımdır:

***Süjet:*** Sizin mətninizdə təsvir edilən hadisədir (hekayənizdir), xronoloji ardıcıllıqla nəql edilir.

**2 – Hekayə**

Süjet – sizin tarixçənizdə hadisələrin ardıcıllığıdır.

Süjetin xronoloji tərtibarı beş elementdən ibarətdir: ekspozisiya, düyün (zavyazka) , zirvə (kulminasiya), açılış (razvyazka), sonluq (final).

Hələ 1963-cü ildə alman yazarı Qustav Freytaq hekayənin süjetinin ümumi qanunauyğunluqlarını öyrənmiş və təhkiyənin ardıcıllığını piramida formasında təsvir etmişdir.




**Nəqli essenin strukturu**

Nəqli essenin quruluşunu akademik yazı qaydalarına əsasən tərtib etmək vacibdir. Bunun üçün beş abzaslı esse formatından istifadə edin:

Giriş yazın ( nəqli essenizin ümumi məzmunu). Mövzunun təsviri, tezis və onu hekayəylə əlaqələndirməyi unutmayın.

Essenin əsas hissəsi üçün üç abzas yaradın (inkişaf edən fəaliyyətlər, kulminasiya və hadisənin açılışı). Şərait, per-

sonajlar, baş verən hadisələr, konflikt və onun nəticəsi haqqında yazın.

Nəhayət, nəticə yazın. Öz hekayənizdən çıxarılan ibrəti, onun niyə vacib olduğunu və aditoriya üçün perspektivini – esseni oxuduqdan sonra nə etmək istəyə biləcəyini izah edin.




Mənbə: https://bid4papers.com/blog/narrative-essay

## Nəqli esse nümunələri

**MƏNİM İLK MÜƏLLİMİM**
**(ədib essesi)**
**A. Aleksin**

*Müşahidə etdiyim qədər, çoxları öz məktəb illərini laqeydliklə xatırlayır. Amma mən öz məktəbimi, uşaqlıq yoldaşlarımı çox sevirəm. Mənim sevimli müəllimlərim də olub. Ümumiyyətlə, mən hər şeydən artıq iki peşəyə üstünlük verirəm: müəllim və həkim. Bu adlar nədəsə oxşardır: hər ikisi insanın sağlamlığının qayğısına qalır: lakin birinci, mənəvi salamlığın, ikincisi isə - fiziki... Yadımdadır ki, ədəbiyyat dərslərimi səbirsizliklə gözləyirdim. Mariya Fyodorovna Smirnova bizə "ədəbiyyatı keçmirdi" (çünki nəyinsə üstündən və ya yanından keçmək olar), bizi böyük yaradıcılıqlarla ünsiyyətə cəlb edirdi. Onun dərsləri yalnız ədəbiyyat dərsləri deyildi, həm də humanizm dərsləri idi.*

*Məsələn, Mariya Fyodorovna deyirdi:*

*— Vanka Jukov "kəndə - babasına" məktub yazdı. Tutaq ki, o, ünvanına yetişdi... Babası Vankaya nə cavab verərdi?*

*Və biz bütün 4 "Q" sinfinin şagirdləri Vankaya babasının adından cavab verərdik və onu "hər şeyin yaxşı olacağına inandıraraq" kəndə geri dönməyə çağırardıq. Bəli, bunlar, həqiqətən, xeyirxahlıq dərsləri idi.*

*Mariya Fyodorovna mənim naşı ədəbi şərhlərimlə öncə tanış olardı, sonra isə ciddi və dəyərli məsləhətlər verərdi.*

*.. Sonra isə biz öz müəllimlərimizlə vidalaşırıq. Həyat döngələrində, təəssüf ki, biz onları o qədər də tez-tez xatırlamırıq və onlarla tamamilə az görüşürük. Əlbəttə ki, bəzən başqa cür də*

*olur. Lakin çoxunda bu günahı yuyan təsadüflərdir... İlahi, bizi bağışla.*

*Mariya Fyodorovna özü mənə məktub göndərdi. Bildirdi ki, məni diqqətlə "izləyir", bir povestimi oxumadan, bir tamaşama baxmadan ötürmür. Məktubun sonunda öz telefon nömrəsini, ünvanını da qeyd etmişdi. Mən təcili ona cavab verdim. Bir gün mütləq görüşməyimiz üçün razılaşdıq. "Amma mümkündürsə, təxirə salmayaq", – deyə sanki o, üzr istəyərək məndən xahiş etdi. Həmin axşam, əslində, onu görməyə getməyim lazım idi.... Lakin mənim "Dostların siması" adlı televerilişimin çəkilişləri başlamışdı. İndi isə mən düşünürəm: niyə gündəlik qayğılar, o sıradan da bu "Dostaların siması" verilişi məni şəxsi dostlarımın simasını görməkdən uzaqlaşdırırdı, onlara yaxınlaşmağa imkan vermirdi? Baxmayaraq ki, öz dostlarımı həmişə çox səmimi və hədsiz dəyərləndirirdim. Verilişdən sonra tamaşaların repetisiyalarını başqa şəhərlərdə də təşkil edirdilər. Mən də mütləq iştirak etməli idim. Hələ daha sonra... Saymağın da faydası yoxdur artıq...*

*Nəhayət, işıq ucu göründü! Mən öz ən sevimli müəllimimlə görüşmək üçün zəng elədim. Mənə cavab verdilər ki.., o, artıq yoxdur! Axı o, xəbərdarlıq emişdi: "Amma çox da təxirə salmaq lazım deyil". Yəqin, xəstə imiş... Lakin təkid etmədi.., özünün dəyişilməz incəliyi sayəsində. Bəs mənim incəliyim hanı? Niyə biz bəzən, xüsusilə ən yaxınlarımıza, ən çox sevdiklərimizə aid olanları təxirə salırıq?" Sonra da saçımızı yoluruq... Həyatım boyunca, həqiqətən, xahişlərə cavab verməyə, kömək əlimi uzatmağa çalışdım. Amma həmişə eyni nəticə alındı: hara ki təcili yetişməliydim, yetişə bilmədim. Qayğılar... Qayğılar...*

*"Xeyirxahlıq üçün tələsmək lazımdır, yoxsa o, ünvansız qalar bir gün", - mənim personajlarımdan biri deyir bunu. O, haqlıdır.*

*Gecikmiş etiraflar. Kimin qarşısında günahkarsınızsa, bunu edin. Kimin üçün gecikmisinizsə... Əgər bacarırsınızsa, bunu özünüz də edin, edənləri də bağışlayın.*

**OYUN MEYDANÇASI XATİRƏLƏRİ (xarici nümunə)**

*İbtidai sinifdə oxuyanda oyun meydançasında çoxlu təcrübələrim olub. Mənə tez-tez boyum və çəkimə görə bulinq edirdilər. Böyük oğlanlar eqolarını təmin etmək üçün məni hədəf görürdülər. Onların evlərində problem ola bilərdi və ya özləri də zorakılığa uğrayırdılar, məyusluqlarını dəf etmək üçün məni alət edirdilər.*

*Başımı dolaba saldıqdan, yumruq və təpiklərdən, ləqəblər, zarafatlar, və başqa təhqirlərdən sonra, nəhayət, mən doydum. Artıq psixoloji olaraq özümə hörmətimin itməsinə dözə bilmədim.*

*Ad günümdən bir və ya iki gün sonra basketbol meydançasında oynayırdım. Anam mənə top hədiyyə etmişdi və mən bu yeni idmandan zövq alırdım. Amma gözlənildiyi kimi (baxmayaraq ki, o zaman bu barədə fkirləşməmişdim), başqa uşaq məni narahat etməyə başladı. O mənə yaxınlaşdı və topu çiləyərkən heç nə demədən mənim əlimdən aldı. Mən təəccübləndim və emosional olaraq bu hədiyyəyə bağlandığım üçün uşağa yumruq vurdum. Onu yıxdım və o, dərhal ağlayaraq qaçdı. Mən heç so-*

*ruşmadım ki, o oynamaq üçünmü topu məndən almaq istəyirdi. Amma mən belə bir hərəkətə sərt reaksiya vermək üçün kifayət qədər zorakılıq yaşamışdım.*

*Görünür, oğlan müdürün yanına gedib məndən şikayət etmişdi. Mən növbəti dərs müdirin otağına çağırıldım. Oğlan zorakılıq etmişdi və qarşılığa layiq idi. Amma müdir və mən təbii ki, göz-gözə gəlmədik. O mənim anama hadisə barədə zəng etdi və anam mənim belə bir şey etdiyimə təəccübləndi. Mən hər zaman sakit uşaq idim: öz-özümə oyuncaqlarla oynayırdım və ya digər uşaqların yanında iştirakçıdan çox, şahid kimi idim. Heç kəsin anası öz uşağından kimisə yumruqlamasını gözləməz, amma bu, müəyyən səbəblərdən mümkün olur. Mənim vəziyyətim isə bu idi ki, illərlə sinif yoldaşları tətəfindən zorakılıq görürdüm və bu qəzəb və utanc zorakı hərəkətlərlə nəticələndi.*

*O vaxtdan anladım ki, mən incidilməyə səbir etməməliyəm, bir iş görməliyəm, cavab verməliyəm. Qəzəbim və inciklyimin mənə normal, sakit uşağın davada adi gücü ilə müqayisə olunmayacaq qədər vəhşi və qarşısıalınmaz güc verdiyini gördüm. Müəyyən mənada mən şər qüvvənin tərəfinə keçdim ("Ulduz Döyüşlərində"ki kimi), düşmənlərimlə mübarizə aparmağın bir yolunu tapdım, lakin ən sağlam yollarla deyil.*

*Orta məktəbdə mən bir oğlan mənə bir neçe dəfə hücum etdikdən sonra dırnaqlarımı oğlanın qoluna ilşdirdim və onu saxladım. O, məndən çox uzun və böyük idi, amma qəzəbim məni məntiqsizliyə yönəltdi.*

*Ali məktəbdə bir gənc mənim əkiz qardaşımı döydü, mən və qardaşım o vaxt birinci kursda idik. Belə bir vəziyyətdə nə etməli olduğumuzu bilmirdik. Onu yanımda görəndə boğdum və işıq dirəyinə qədər sürüyüb əlini ona vurdum, onun sevgilisi qor-*

*xuyla baxırdı. Dəqiq bilmirəm, üstümə nə gəldi , lakin o vaxtdan – ibtidai məktəbdən bəri bir problemi həll etmək üçün əvvəlcə yumruqlarımdan istifadə edirdim. Mən özümü güclü və inamlı hiss etdirə bilən və dünyaya meydan oxuyacaq bir həll tapdım. Lakin bir problem var idi: bu yol yataq otağımın qapısında deşiklər qoydu, ailəmə qarşı lazımsız hücumlara səbəb oldu və əsəbimi kontrol edə bilməməyin narahatedici olduğunu gördüm.*

*Şükürlər olsun ki, meditasiyaya başladım. On doqquz yaşıma gələndə zorakılıq artıq bir problem deyildi və qəzəbimə heç ehtiyac qalmadı. Hər gün meditasiya edəndə gördüm ki, qəzəbdən kənar adam cəmiyət içində daha məqbuldur. Mən hər gün daha çox xəyalımdakı kimi olmaq istəyirdim. Və hər gün meditasiya etməyə davam etdim, nəticədə, olmaq stədiyim kimi biri oldum. Qəzəbin müvəqqəti bir həll yolu olduğunu öyrəndim və onu illər boyu bəsləməyə ehtiyac duymadım. İndi içimdə dinc olmaqdan məmnunam.*

## *ƏLAVƏ MƏLUMAT TOPLAMAQ NƏYƏ LAZIMDIR?*
**(şagird yazısı)**

*Humay Nəhmətli*

***VII sinif şagirdi***

*Hər birimiz müxtəlif dərslərdə müəllimin tapşırığı ilə əlavə məlumat toplamışıq. Bəzən bu məlumatlar bizə müəllimlər tərəfindən ev tapşırığı kimi verilir. Biz də məcburən tapşırıqları yerinə yetiririk: ensiklopediyalardan və ya internetdən axtararaq məlumat toplayırıq. Bəs düşünmüşükmü, bu bizə nə fayda verir? Bu bizə nəyə görə lazımdır?*

*Müəllimlərim mənə hər dəfə məlumat toplamaq üçün tapşırıq verəndə anamdan xahiş edərdim ki, mənə kömək etsin. Anam da hər dəfə verilmiş mövzu üzrə məlumatlar toplayıb mənə verərdi. İlk tapşırığımdan başlayaraq uzun illər belə davam etmişdi.*

*Həmişə olduğu kimi, bir dəfə yenə musiqi müəlliməsi məlumat toplamağı tapşırmışdı. Mən də həmişəki adətim üzrə anamın yanına getdim. Onu məcbur etdim ki, mənə məlumat toplasın. Anam məndən soruşdu:*

- *Bu məlumatlardan sinifdə necə istifadə edirsiniz?*
- *Hərə öz topladığı məlumatı oxuyur.*
- *Sadəcə bumu?*
- *Hə.*
- *Qızım, əvvəl topladığın məlumatlar yadındadır?*
- *Yox.*
- *Bəs, onda müəllimə sizə niyə əlavə məlumat toplamağı verir?*

*Anamın sözləri məni düşündürdü.*

*Məncə, siz də anamla razısız. Unudulacaq şeyi niyə bir də oxuyaq axı?!. Görəsən bəs necə edək ki, topladığımız məlumat uzun müddət yadımızda qalsın?*

**NOVRUZ ƏNƏNƏLƏRİ**
**(şagird essesi)**
Turqut Nəhmətli
**III sinif şagirdi**

*Hər bayramın özünə aid ənənələri var. Novruz bayramının da gözəl ənənələri var. Novruz bayramında uşaqlar yumurta döyüşdürürlər, tonqaldan hoppanırlar, papaq atırlar. Bu bayramda təzə paltar geyinmək, küsülüləri barışdırmaq lazımdır.*

*Bunlar hamısı maraqlı adətlərdir., amma bəzi ənənələr var ki, bunları ana və atanın icazəsi ilə etməlisən. Məsələn, tonqaldan hoppanmaq, papaq atmaq.*

*Torpaq çərşənbəsi idi. Mən məktəbə yollandım. Sinif yoldaşlarımla bayramlaşdım. Sonra dərsə bir neçə dəqiqə qalmış sinif yoldaşlarım müəllimaya qonşuya papaq atdıqlarını dedilər.*

*Axşam ailəlikcə tonqaldan atlandıq. Sonra anamdan papaq atmaq üçün icazə istədim, anam isə razı olmadı. Dedi:*

*- Qapıya papaq atmaq yaxşı deyil, bəlkə, qonşunun evində artıq heç nəyi yoxdur.*

*Mən də bundan dərs çıxardım. O gündən hər hansısa bir işi görəndə əvvəlcə düşünürəm.*

## TƏSVİRİ ESSE

Təsviri esse mətnin qarşısında duran problemi təsvir vasitəsilə işıqlandıran yazı növüsdür. Təsviri esse müxtəlif məqsədlərlə yazıla bilər:

- Nümunəvi şəxsin portretini yaratmaq;
- Predmeti dəyərləndirmək;
- Maraqlı məkanı tanıtmaq;
- Şəraiti, mühiti təsvir etmək və s..

Təsviri esse vasitəsilə oxucunun təsəvvüründə insan, predmet, məkan və ya hadisə haqqında dəqiq təəssürat yaranır. Essedə təffərrüatlı və canlı təsvirlərə yer verilməlidir.

Təsviri essenin problemi dedikdə həyatımızda önəmli rol oynamış şəxsin əsas keyfiyyətlərinin nədən ibarət ol-

ması, hər hansı predmetin bizim üçün əhəmiyyəti, müəyyən bir məkanın mahiyyətinin nədən ibarət olması və s. motivlər nəzərdə tutulur.

Esse yazmaq üçün şagirdə müxtəlif formalarda mövzu vermək olar. Məsələn:

Açar söz: "Mənim sevimli əşyam", "Bizim həyatimiz", "Mənim anam" və s.

Sual formasında: "Yaşadığın şəhərdə ən çox sevdiyin məkan haradır?"

Teziz formasında: "İçəri şəhər Bakının ən görkəmli yeridir".

**Təsviri esse yazmaq üçün tövsiyələr:**

**Şəxsiyyət seçin.** Təsviri esse yazmaq üçün ən vacib obyektlərdən biri müəyyən hissləri doğuran insandır. Öz dostunuzu, müəlliminizi və ya valideyninizi nümunə olaraq təsvir edin. Məsələn, şəxsiyyətinizin formalaşdığı dövrdə sizə ən yaxın olan adamı (ana, ata) seçin. Şəxsən tanış olmadığınız, lakin şəxsi keyfiyyətləri və ya uğurlarından ilhamlandığınız insanı təsvir edin (sevimli sənətkar, alim, memar və s.)

Təsviri essedə sizin üçün nümunə olan və ya sizə himayədarlıq edən insan haqqında danışa bilərsiniz. Onun nə üçün sizin həyatınızda önəmli olduğu və ya ondan aldığınız əhəmiyyətli dərslər haqqında mütləq məlumat verin.

**Predmet seçin.** Sizin üçün əhəmiyyətli və dəyərli əşya təsviri esse üçün yaxşı mövzudur. Öz uşaqlıq və ya gənclik dövrünüzdəki əşyanız haqqında yazın. Və ya ən sevmədiyiniz əşyanı təsvir edin. Seçdiyiniz predmetin mənə-

vi dəyəri və ya mühüm şəxsi əhəmiyyəti haqqında məlumat verin.

Məsələn, essenin mövzusu kimi sevimli uşaqlıq oyuncağınızı seçə bilərsiniz. Həmin oyuncağı təsvir edin. Onun uşaqlıq çağınızda sizin üçün əhəmiyyətini paylaşın.

**Məkan seçin.** Mövzu olaraq sizin üçün əhəmiyyətli və vacib məkandan istifadə edin. Bu, sizin doğma şəhəriniz, şəxsi otağınız, oxuduğunuz məktəbdə sevimli guşə ola bilər. Həmçinin görmədiyiniz yerlər - dünyada səyahət etməyi arzuladığınız məkan haqqında yaza bilərsiniz.

Məsələn, nə zamansa gəzdiyiniz gözəl bir yer haqqında yazın. Bu məkanın insanda yaratdığı hisslər və əhval-ruhiyyəni təsvir edin.

**Situasiya seçin**. Əhəmiyyətli bir situasiya düşünün və onu öz essenizin mövzusu edin. Bu situasiya lap yeni və ya uzaq keçmişdə yaranmış ola bilər. Sizə təsir edən və ya baxışınızı dəyişən həmin vəziyyət haqqında yazın.

Məsələn, yaxın adamınızın xəstəxanada ziyarətinizi və ya dostunuzla ilk tanışlığınızı təsvir edin.

Esse yazmaq üçün məzmunun təsviri ilə bağlı tövsiyələrdən göründüyü kimi, təsviri essenin məqsədi portret, peyzaj yaratmaq və ya situasiyanı təsvir etmək deyil, bu təsvirlər vasitəsilə təəssürat, dəyər yaratmaq, təcrübə bölüşməkdir. Yəni təsviri esse, sadəcə, təsvirdən ibarət olan bədii mətnlərdən fərqli olaraq müəyyən bir mövqeni işıqlandırmağa xidmət edir.

## PLAN TƏRTİB EDİN

Təsviri essenin planını qurarkən müəyyən ardıcıllıq nəzərə alınır:

1. **Xronoloji ardıcıllıq.** Zamanın keçmə ardıcıllığına uyğun olaraq xronoloji qaydada plan tərtib edin. Təhkiyə hadisələrin bir-birinin ardınca baş vermə sırasına görə aparılacaqdır. Belə plan hadisə və ya situasiyanın təsvirinin verilməsi üçün uyğundur. Qaralama plan təxminən belə görünəcək:

Abzas 1. Giriş

Abzas 2. Səhnə 1.

Abzs 3. Səhnə 2.

Abzas 4. Səhnə 3.

Abzas 5. Nəticə və qənaət.

Hər bir səhnə birdən artıq abzas təşkil edə də bilər və yaxud hər bir abzasın sayı planın bəndləri sayına bərabər ola bilər.

2. **Məkanın quruluşu.** Belə plan məkanın nizamına görə tərtib olunur, bu zaman esse situasiya məkanına görə abzaslara ayrılır. Belə mətndə süjetin inkişafı film operatorunun işini xatırladır və hər bir yerin təfərrüatı verilir. Bu plan əhəmiyyətli bir yerin təsviri üçün çox uyğundur. Planın sxematik görünüşü:

Abzas 1. Giriş

Abzas 2. 1-ci məkan

Abzas 3. 2-ci məkan

Abzas 4. 3-cü məkan

Abzas 5. Nəticə və qənaət.

3. **Kulminasiyaya görə ardıcıllıq** (əhəmiyyətlilik sırasına görə). Bu halda planın bəndləri məkanın daha az vacib olan yerlərindən başlayaraq ən əhəmiyyətli yerlərinə sarı sıralanır. Bunun sayəsində süjetin daha çox vacib və gərgin anları mətnin sonuna doğru inkişaf etdirilir. Müvafiq planı insan, məkan, predmet və ya situasiya olmasına baxmayaraq, istənilən mövzunun yazılmasında tətbiq etmək olar.

Planın sxematik görünüşü:

Abzas 1. Giriş

Abzas 2. Daha az vacib olan detal və təfərrüatlar;

Abzas 3. Daha vacib detal və təfərrüatlar;

Abzas 4. Açar təfərrüatlar və detallar;

Abzas 5. Nəticə və qənaət.

4. **Tezis yazın.** Tezis essenin quruluş növündən asılı olmayaraq tələb olunur. Əsas fikir birinci abzasda, əsas hissənin əvvəlində və yaxud sonunda verilə bilər və nəticə hissəsində təkrarlanar. Düzgün tezis əsas ideya və mövzu haqqında məlumat verir və essenin qalan mətni üçün bələdçilik rolu daşıyaraq esse xəritəsinin yaradılmasına xidmət edir.

Məsələn, mövzu olaraq nümunəvi şəxsi seçməklə belə bir tezis yazmaq olar: "Həmin gün mən onun davranışları sayəsində dərslərin birində neqativdən abstraktlaşdırmanı öyrəndim və öz rəsm yaradıcılıq bacarığıma inandım."

**MARAQLI giriş yazın.**

1. **Oxucunu marağını çəkə bilən ilk cümləni yazın.** Esseni yer, hadisə, predmet və ya insanı təsvir edən parlaq bir cümlə ilə başlayın. Həmçinin o yer, predmet, insanla tanışlığın, hadisədən təəssüratı, emosiyaları paylaşmaq olar. Oxucunu ilk sətirlərdən hadisənin, prosesin içinə çəkin.

Məsələn, dəyərli olan o predmetlə qarşılaşdığınız zaman haqqında yazın: *"Parlaq, mavi gözlü farfor gəlincik mənim əlimə aldığım ilk anda mən heyrət içində şükür etdim".*

2. **Məzmun və əsas məlumatlardan bəhs edin.** Oxucunu məzmunla tanış etmək üçün seçilmiş mövzu haqqında qısa məlumatlar verin. Predmet, məkan və ya xatirənin əhəmiyyətini anlamaq üçün lazım olan informasiyaları verin. Oxucuya müəllifin hiss və emosiyalarını anlaması və dünyanı onun gözüylə gərməsinə məhz məzmun kömək edər.

Məsələn, həmin andakı təcrübənizə və təəssüratınıza əsasən predmetin sizin üçün əhəmiyyətini təsvir edin. Yazın: *"Əvvəllər heç vaxt mənim öz gəlinciyim olmamışdı, buna görə də məhəllədə digər qızcığazlar öz gəlincikləri ilə oynadıqları halda mən bu anı beş il gözləməli oldum"*

3. **Hisslərinizi təfərrütları ilə təsvir edin.** Yaxşı essenin əsas gösrtəricilərindən biri yazıda beş duyğu orqanının istifadə edildiyi məqamların təsviridir: lamisə, dad, görmə, eşitmə, qoxu. İlk abzası hissiyyat detalları ilə zənginləşdirin. Ətraf səsləri və ya öz dadbilmə hissiyyatınız-

dan bəhs edin. Predmetin qoxusundan və onun təsirindən danışın. Məkanıın ətraflı təsvirini verin.

Məsələn, *"Gəlincik gözəl idi"* əvəzinə, hissiyyatınızı təsvir edin: *"Gəlinciyə toxunananda zəriflik və xoş bir soyuqluq hss etdim. O, çiçək ətirləri və uşaq pudrası kimi qoxuyurdu. Onu bağrıma basanda gəlincik incə bir səs çıxardı".*

4. **Danışmağa deyil, "göstərməyə" çalışın.** Essenin başlanğıcında fəaliyyətdən bəhs etmək deyil, fəaliyyət məkanını seyr etdirmək lazımdır. Situasiyalar haqqında xəsisliklə hessabat verməyin, bir fəaliyyətin təsviri ilə kifayətlənməyin. Oxucu sizin yerinizdə özünü hiss etsin, o anları, xatirələri sizinlə birgə yaşasın deyə hisslərinizin təfərrüatlarını parlaq boyalarla təsvir edin.

Məsələn, ata evindəki uşaqlıq hisslərinizi təsvir edin: *"Uşaqlığımın ən gözəl anları yadımda dizimdəki yara izləri, bədənimdəki cızıqlar və ata evinin divarındakı əlamətlərlə qalıb. Onlar bacı və qardaşlarımla birgə ötüşmək üçün qaçdığımız və qayğısızca dəliliklər etdiyimiz zaman qazanılıb".*

Əgər siz insanı təsvir edirsinizsə, onun necə biri olduğunu xəsisliklə söyləmək əvəzinə, davranışları əsasında xarakterini nümayiş etdirin.

Məsələn: *"Mənim ilk müəllimim mənə başqalarını hiss etməyi öyrətdi, çünki o, daim dərsdən sonra mənimlə məşğul olmaq üçün vaxt tapırdı. Mən kiçik taxta stulda onun yanında əyləşib, penaldan qələmimi çıxarıb mənə ismin hallanmasını necə izah etməsini dinləyirdim. Onun səsi qətiyyəli və hündürdən çıxırdı, bununla belə o, çox səbirli idi."*

# TƏSVİRİ ESSE: BİR ŞƏXSİN TƏSVİRİ
# MƏNİM BABAM

| | |
|---|---|
| **Giriş**<br>Burada siz:<br>• Həmin şəxs haqqında ümumi faktları qeyd edin: ilk dəfə onu nə vaxt, harada və hansı şəraitdə tanımısınız.<br>• Məhz bu şəxsi seçməyinizin səbəbini söyləyin. | *Mənə ən çox təsir edən şəxs mənim babam olub. Babam mənə qayğıkeş, gülərüzlü, mərhəmətli olmağı öyrədib. Babam çox sevdiyim və dəyər verdiyim bir insandır.* |
| **Əsas abzas #1 və #2**<br>Həmin şəxs haqqında aşağıdakı bəzi məlumatları təsvir edin:<br>• fiziki görünüşü<br>• şəxsi keyfiyyətləri<br>• hobbiləri / maraqları<br>• ixtisası / təhsili<br>• nailiyyətləri.<br>Digər mövzularla əlaqəsi olmayan bir mövzuda yeni abzas tərtib et.<br>• Məsələn:<br>Abzas #1 – fiziki görünüş və şəxsi keyfiyyətlər ;<br>Abzas #2 – təhsil, ixtisas və nailiyyətlər. | *Babam Cek ortaboylu adamdır. Yetmişə yaxın yaşı olsa da, yaşına görə olduqca cavan görünür. Arıqdır, qısa çal saçları var. Dəyirmisifətdir, gülərüzdür. Xırda mavi gözləri mərhəmət doludur. Babam gündəlik geyim tərzində. adətən, cins və qolsuz köynəyə üstünlük verir ki, bu da onu daha cavan göstərir .*<br>*Mənim babam inanılmaz dərəcədə həssas insandır, o, ehtiyacı olan hər kəsə yardım edir. Yaxşılıqlarının əvəzində isə heç kimdən heç nə ummur. Üstəlik, babam o qədər səxavətlidir ki, sahib olduqlarını başqaları ilə bölüşməyi xoşlayır. Məsələn, o, Holokost qətliamından sağ çıxanlara yardım* |

| | |
|---|---|
| | *edən təşkilata 10 min şekel bağışlayıb. Bundan başqa, mən bütün problemlərim haqqında babamla söhbət edə bilirəm, çünki o, güvəniləcək adamdır və mənim bütün sirlərimi gizli saxlayır. Təkcə yalana dözümü yoxdur. Həmişə mənə deyir ki, əgər yalan danışsan, özünə olan hörmətini zədələyəcəksən.* |
| **Yekun abzas**<br>• Nəticə yazın və burada həmin insana olan şəxsi münasibətinizi ifadə edin | *Bir sözlə, babam mənim həyatımda ən önəmli insanlardan biridir. İnanıram ki, o, mənim başqalarına şəfqət və həssaslıq göstərmək bacarığımın formalaşmasına böyük töhfə verib.* |

**Nümunə**

**KLAVDİ MİXALNA**
**Könül Aydın**

*Klavdiya Mixaylovna: biz onu belə çağırırdıq: Klavdi Mixalna. O, mənim ibtidai sinif müəllimim idi. Sısolo kəndində azkomplekti bircə sinifdən ibarət olan məktəbin yeganə müəllimiydi.*

*Məktəbin bir də direktoru vardı. Biz onun ancaq vəfat edəndə tabutunu gördük.*

*O gündən sonra Klavdi Mixalna məktəbin tək sahibi idi.*

*Klavdi Mixalna mənim yadımda çox səbirli, həlim, qayğıkeş insan kimi qaldı. Nədənsə hər yaş mərhələmdə düşünürəm onu.*

*Uşaq vaxtı məni çox sevməsindən başqa bir şey xatırlamazdım. Hərdən isə parta yoldaşım Alyoşanın göz yaşları yadıma düşərdi. Qəfildən yanaqları qıpqırmzı qızarar, kiprikləri yaşla dolar, sonra da üzü aşağı süzülərdi. Mən də mat qalardım, başımı çevirib arxaya baxanda Klavdi Mixalnanı partamızın arxasında görərdim. Üzümə gülümsəyib, dəftərimə baxıb partalar arasıyla davam edərdi.*

*Bir az böyüyüb yuxarı siniflərə çatanda anladım ki, Klavdi Mixalna Alyoşanın başının arxasından vurub onu ağladarmış. Bizim səhvlərimizə çox səbirlə yanaşan müəlliməmiz öz oğlunun qüsurlarına soyuqqanlı qala bilmirmiş.*

*Yaşa doldum, yenə Klavdi Mixalnanı və o sinfi unuda bilmədim. Hərdən xəyalən o sinfin partalarında əyləşib dərsi dinləyirəm. Görürəm ki, Klavdi Mixalna yenə acıqlanıb:*

*- Tanımadığımız uzaq bir ölkədən gəlib, dilimizi bilmədikləri halda dərslərini gör necə oxuyurlar. Siz isə... Siz isə öz evinizdə-eşiyinizdə, rahat yerinizdə oturub dərsə hazır gəlmirsiniz. Nəyiniz çatmır? Əlbəttə, ata da, ana da axşamdan səhərə kimi sərxoş, səhərdən axşama kimi paxmel olanda uşaqlarından nə xəbəri olacaq.*

*– "Ah, bu rus milləti!" - deyib yanıb-yaxılardı Klavdi Mixalna.*

*O danışardı, mən isə gözlərimi sinifdə gəzdirib uşaqların üzünə baxardım bir-bir. Nə edib bu uşaqlar? Bunların valideynləri o qədər pis adamlardır ki, təhqir edilirlər?*

*Nələrsə anlayardım, toyda da içirlər, yasda da içirlər. Məktəbimizin direktorunun hüzür yerində bacım mərhumun həyat*

*yoldaşına qoşulub o qədər ağladığı halda bunlar içib mahnı oxuyurdular. Üzüaçıq cənazəyə baxıb həya da etmirdilər.*

*Uşaqlığımdan bəri bax beləcə böyüyərdi xatirələrim, yaşa dolardı. Amma bircə şeyi düşünməzdim: haqlı idimi Klavdi Mixalna?*

*Bir az da böyümüşəm, yəqin... Xatirlələrim bir az da aydınlandı. Uşaqların siması gəlib keçdi gözlərimin önündən. Başlarını aşağı salıb gözlərimlə toqquşmasın deyə gözlərini gizlədirdilər. Bircə Alyoşa hündür boyu ilə dimdik görünərdi sonuncu partada – mənim yanımda. Gözümün ucu ilə duruşunu sezərdim, başımı qaldırıb onun üzünə baxmazdım heç zaman o anlarda. Ona görə də anasının sözlərindən üzünün ifadəsini xatırlaya bilmirəm. Bilmirəm, o, nə hiss keçirərdi.*

*Bir az böyümüşəm, yəqin, ona görə indi sualıma cavab axtarıram: haqlı idimi Klavdi Mixalna?*

*Düşünürəm ki, bizi sevdiyi qədər o uşaqları da sevə bilsəydi, bəlkə, onların gələcəyi valideynlərinkindən fərqli ola bilərdi. Yay tətilində bizə seçib gətirdiyi kimi, qucaq-qucaq kitab daşıyıb aparsaydı onların da qapısına... Harada valideynlərini görsə, yaxşı cəhətlərini söyləsəydi... Amma Klavdi Mixalna bizim hamımızın yol verdiyimiz kimi, ümidsizlik, çarəsizlik girdabından qurtula bilmədiyi üçün bütün millətin acığını ö günahsız uşaqlardan çıxırdı. Axı onlar da elə mənim kimi, anlamırdılar ki, müəllim niyə çığırıb-bağırır. Biz hamımız ancaq qəzəbi və ya sevgini hiss edirdik. Qəzəbi bizi qorxudurdu, sevgisi öyrədirdi. Beləcə, biz öyrənirdik, onlar isə qorxa-qorxa cavab verirdilər...*

*İndi anlayıram ki, Klavdi Mixalna yaxşı insan idi, övladını da çox sevirdi, miləti üçün isə elə yanırdı ki... Amma müəllim kimi, bu barədə bir az da düşünməliyəm. Qalsın bir başqa yaşa...*

*Onu qiymətləndirməyə hələ də acizəm. Çünki o, mənim müəllimim idi!*

**MƏNİM CÖĞRAFİYA MÜƏLLİMİM**
**Könül Aydın**

*Beşinci sinifdə oxuduğum zaman sinfimizə bir coğrafiya müəllimi gəldi. İlk baxışda gözəlliyi ilə diqqətimi cəlb etdi. Adını da ilk dəfə eşidirdim - Nuridə. Adına və simasına valeh oldum.*

*Yaxşı dərs keçirdi. Dərsində darıxmazdıq, heç kim cürət edib səs də çıxarmazdı. Həvəslə dinlədiyim dərslərdən ən yaxşısı idi.*

*Bir gün coğrafiya sonuncu dərsimiz idi. Nə qədər gözləsək də, müəllim gəlib çıxmadı. Axır qərar verdik ki, gedək evə. Sinfin dağılışdığını görüb mən də evə gəldim.*

*Növbəti dərsdə müəllim: "Keçən dərsdən qaçanlar lövhəyə çıxsın" - dedi.*

*Təəccüblə ətrafıma baxdım ki, yəni hamımız getməmişdikmi. Əksəriyyət, eləcə də mən yerimizdən qalxıb lövhəyə çıxdıq. Yerdə beş-altı uşaq qaldı.*

*Müəllim sırayla bir-bir uşaqları silləläyərək mənə çatdı. Üzümdən necə bir sillə çəkdisə, gözümdən qığılcımlar çıxdı. Ağlamadım. Susdum və ilk və son dəfə oldu ki, müəllim cəzasına qarşı səsimi çıxarmadım.*

*Bu hadisəni evdə valideynlərimə söyləmədim. çünki tərəddüdlü idim: mən günahkar idim mi?*

*Sinif yoldaşlarıma gəlincə, bizdən sonra sinifdə qalmış uşaqlara acığım tutdusa da, deyəsən, onları ürəyimdə bağışlamışam. Çünki heç birini indi xatırlamıram. Amma müəllimi bağışlamadım. Çünki bütün zərifliyi o sərt silləsiylə gözlərimdəki qığılcımda yanıb külə*

*dönmüşdü. Bağışlamadım, sevmədim, amma gözəl təlimlərinə görə ona hörmət etdim, indi də dərin hörmətlə yad edirəm.*

## Təsviri esse: situasiyanın təsviri
## Banci campinq

| | |
|---|---|
| **Giriş**<br>• Burada situasiyanın adını verirsiniz, yarandığı zamanı, yeri və səbəbini göstərirsiniz. | *Keçən il Avstraliyada "Delfinlər vadisi" adlı gizli bir yerə getmişdim. Orada özümə çox gözəl bir əyləncə növü – banci campinqi kəşf etdim!!! <u>Bu səfərimə qədər mən bir dəfə də olsun banci campinqi sınamamışdım</u>, amma sınaqdan keçirdikdən sonra əmin oldum ki, bu mənim gələcəkdə təkrar etmək istədiyim sensasion bir təcrübədir.* |
| **Əsas abzas #1**<br><br>• Hadisəyə aparan bütün hazırlıqları təsvir edin.<br>• Mümkün qədər sifətlərdən çox istifadə edin. | *Banci meydançası nəhəng ağaclar, iri qaya parçaları və hər tərəfdən qum təpələri ilə əhatələnmiş körpünün üstündə yerləşirdi. Körpüyə qalxan yolda məni bir az həyəcan basdı. Körpüyə çatanda o qədər qorxmuşdum ki, dizlərim tir-tir əsirdi.* |

| | |
|---|---|
| | *Sonra atraksion sahibi mənə yaxınlaşıb yaşımı, əvvəllər banci campinq təcrübəmin olub-olmadığını soruşdu. O, məni tərəzidə çəkdi, boyumu ölçdü. Nəhayət, tullanmağıma icazə verdi. Amma necə qorxurdum! Sonra o, topuqlarıma orta ölçülü bouling toplarına bənzər çəki daşları bağladı. Uzun banci kəndirini də çəki daşlarına bənd etdi. Axırda ən önəmli ehtiyat tədbirini almalı idim – başımı qorumaq məqsədilə açıq sarı rəngli dəbilqə taxdım.* |
| **Əsas abzas #2**<br>• Real hadisəni təsvir edin.<br>• Sifətlərdən mümkün qədər çox istifadə edin.<br>• Bir müddət əvvəl iştirak etdiyiniz hadisələri aydın təsvir etmək üçün keçmiş zamanlardan istifadə edin. | *Əsl tullanmağın vaxtı gəlib çatdı. Atraksionun sahibi – "Getdin!!" – söyləyərək mənə tullanma əmri verdi.*<br>*O, həmçinin bəzi yararlı məsləhətlər də verdi, məsələn, tapşırdı ki, tullanan zaman aşağı baxmayım. O, elə bunu demişdi ki, mən aşağı baxdım və ilk gördü-* |

| | |
|---|---|
| | *yüm böyük bir çay və kələ-kötür iti qayalar oldu. Gözlərimi yumdum, açanda isə atraksion sahibi sayırdı: "Bir… iki…. üç… Getdin!" Tullandım və elə bir hiss keçirtdim ki, sanki ürəyim sinəmi dəlib çölə çıxacaqdı. Gözümü açanda hər şey başıaşağı idi. Ya bir dəfə, ya da iki dəfə tullandım, vəssalam. Bütün bədənimdə xoş həyəcanverici sürətli br axın hiss etdim və bu hiss ayağım möhkəm yerə dəyənə qədər davam etdi.* |
| **Yekun abzas**<br>• Hisslərinizi, yaxud hadisə haqqında yekun fikirlərinizi ifadə edə biləcəyiniz nəticə yazın. | Körpüyə qayıdanda anladım ki, mən bunu etmişəm. Bu indiyədək keçirdiyim ən möhtəşəm hiss idi. Banci campinq bu günə qədər mənim həyatımda önəmli bir təcrübə olaraq qalır və bunu özümə bənzəyən, macəraçı ruhu olan insanlara da tövsiyə edirəm. |

**Nümunə**

**Beç abzaslı təsviri esse nümunəsi**
**(Situasiya)**
(xarici təcrübədən)

*Yeni nəsə öyrənmək bizim üçün qorxulu ola bilər. Mənim üçün ən müərkkəb fəaliyyətlərdən biri üzməyi öyrənmək idi. Mən həmişə sudan qorxurdum, lakin özüm üçün vacib olan bacarığı qazanmağa – üzməyi öyrənməyə qərar verdim. Mən düşünürdüm ki, bu yaxşı məşq olacaq və mənim fiziki olaraq güclü olamağıma kömək edəcək. Amma nəyi anlamırdım: üzməyi öyrənmək məni özümə daha güvənli bir insana çevirəcək.*

*Həmişə yeni situasiyalar mənə bir az əsəb gərginliyi verir, üzməyi öyrənməyə başlamaq da istisna olmadı. Qarderobda üzgüçülük kostyumumu geyindim və basseynin yanında hazır duraraq müəllimimin və digər yoldaşların gəlişini gözlədim. Yarım dəqiqədən sonra müəllim yaxınlaşdı. O gülümsündü və özünü təqdim etdi, bizə həmçinin iki tələbə yaxınlaşdı. Onlar məndən böyük olsalar da, üzməyi bacarmadıqları üçün özlərini narahat hiss etmirdilər. Mən də özümü bir az daha sərbəst hiss etməyə başladım.*

*Biz basseynə girdik və suyun üstündə qala bilməyimiz üçün müəllim bizə parlaq su qanadları geyməyi tapşırdı.*

*Tələbələrdən biri olan Mey bizdən öncə bir dəfə başlanğıc dərsi keçdiyi üçün özü kikbordu götürdü və və məşq etmək üçün getdi. Digər tələbəyə - Cerri və mənə basseynin yanında durmaq tapşırıldı və barsı yerinə yetirməyin qaydası nümayiş etdirildi. Bir-birimizin ardınca müəllim bizi kikborddan yapışmağa təhrik*

*edirdi, onu suda çəkdikcə, biz də ayaqlarımızla təkan verirdik. Çox tezliklə Ceri özü baseynin sonuna qədər süratlə hərəkət edərək özü bununla tək məşğul olmaq üçün getdi.*

*Mənim üçün heç nə çox sadə deyildi, lakin müəllim çox səbirli idi. Yenə bir neçə həftədən sonra ayaqlarımı idarə edə bilməyim məlum olduqda o, mənə əl hərəkətlərini öyrətməyə başladı. İndi mənim əl və ayaqlarımı idarə etməyim üçün iki alətim vardı. Mən özümü ümidsizcəsinə müvazinətimi itirmiş kimi hss edirdim. Lakin mənim təsəvvür etdiyimdən də daha tez hər şeyin "doğru" olduğunu gördüm və üzməyi bacardım. Bu, çox gözəl hiss idi – sanki uçuş kimi.*

*Üzməyi öyrənmək mənim üçün asan olmadı, lakin nəticədə mənim cəhdim qorxularımı yendi.. Mən nəinki üzməyi və su qarşısında qorxumu yendim, həmçinin öyrənmə haqqında nələrisə öyrəndim. Artıq mən yeni situasiya ilə qarşılaşanda əvvəlki kimi həyəcanlanmıram. İşin əvvəlində özümü rahat hiss etməsəm də, artıq anlayıram ki, bu situasiyada da məşq etməklə öz vərdişlərimi inkişaf etdirəcəm, özümü getdikcə daha rahat hiss edəcəyəm. Qarşına qoyduğun məqsədə çatdıqda yaşadıqların gözəl, azad hisslərdir.*

## *MƏN ONUN ÜÇÜN NƏ EDƏ BİLƏRDİM*
### *(ədib essesi)*
### *Rizvan Qarabağlı*

*Müharibə insanı çarəsizliklə üz-üzə qoyan bəlalardan ən böyüydür. An olur ki, insan o qədər çarəsiz hiss edir ki özünü, hətta dilsiz-ağızsz canlıdan da utanır.*

*Birinci Qarabağ savaşı zamanı gedən əks hücumda kəndimiz işğaldan azad olmuşdu. Bu zaman ora getdim. Evlər sökülüb, yandırılıb dağıdılmışdı. Sanki kəndə nəhəng bomba düşmüşdü.*

*Bu xarabalıqlar arasında evimizi tapdım. Daha doğrusu, evimizin xarabalığını tapdım. Təndirimizin çardağı yox idi. Amma özü dururdu. Oraya yaxınlaşanda gördüklərimə inana bilmədim. İtimiz təndirin içində yatmışdı. Əvvəl elə bildim, onu da öldürüblər. Sonra gördüm nəfəs alır. Onu səslədim. Yavaşca gözlərini açdı və məni görən kimi üstümə atıldı. O, sevincindən bilmirdi neyləsin. Əllərimi, ayaqlarımı yalayırdı.*

*İlahi o, necə də arıqlamışdı. Tükləri əlçək-əlçək sallanırdı. Qabaq ayağı biləyindən sınmışdı. Onun bu halı məni çox ağlatdı....*

*Yadıma düşdü ki, o acdır. Çantamdan çörək çıxarıb qarşısına qoydum, açgözlüklə yedi. Sınmış biləyində güllə yeri görünürdü. Görünür ermənilər evimizi dağıdanda onlara hücum edib və onlar da onu güllə ilə vurublar.*

*O, çörəyi yeyib qurtardı, ona su da verdim. Geri qayıdanda özümlə aparmaq istədim, getmədi. Qəribə hərəkətlər edərək məni də buraxmadı. Düşündüm, bəlkə ayağı ağrıyır. Ehmalca qucağıma götürdüm. Yola düzələndə qucağımdan yerə atıldı. Hiss etdim ki, o, nə evimizdən, nə də məndən ayrılmaq istəyir...*

*Mən onu o xarabalıqda necə tərk edib döndüyümü bu gün xatırlaya bilmirəm. Amma dilsiz-ağızsız o canlının yurda, torpağa sədaqətini unuda bilmədim. Onu tərk edib gəlməyimin ağrısı ürəyimdə qaldı. Hərdən yadıma düşdükcə öz-özümə sual veririrəm: mən onun üçün daha nə edə bilərdim?*

**Qeyd.** Situasiyanı təsvir edən esse qarışıq tipli essedir, çox zaman nəqli esse ilə fərqləndirməkdə çətinlik yaradır.

Həmçinin məkan təsvirini əhatə etdiyi üçün bu növlə də qarışdırıla bilər. Bu esse növləri arasındakı əsas fərq ondan ibarətdir ki, nəqli essenin təyinatı bütöv hadisəni danışmaqdır, təsviri esse müəyyən hadisənin təfərrüatlarının təsvir yolu ilə ifadəsini nəzərdə tutur.

Anlayış kimi situasiya və hadisə arasında fərq ondan ibarətdir ki, situasiya gedən prosesin, baş verən hadisənin ətrafdakılara təsiri kimi qavranılır, hadisə isə, sadəcə, baş verənlərdir.

Ümumiyyətlə, essenin növləri şərti fərqləndirildiyi üçün nəqli və təsviri essenin bu növünün fərqləndirilməsi də şərtidir. Bu fərqləndirməni essenin məzmununu yazarkən təhkiyədə detalları görə bilmək bacarığını formalaşdırmaq üçün aparmaq olar.

## Təsviri esse: bir yerin təsviri
## Bohol adası

| | |
|---|---|
| **Giriş**<br>Burada:<br>• Yerin adını və coğrafi mövqeyini qeyd edin.<br>• Həmin yeri seçməyinizin səbəbini söyləyin. | *Üç il bundan əvvəl gözəl Bohol adasına səfər etmişdim. Bohol adası Sebu əyalətinin yaxınlığında – cənubda yerləşir. Manila şəhərindən buraya təyyarə, ya da gəmi ilə gəlmək olar. Sadə dillə desək, Bohol adası Sakit Okeanın cənub hissəsinin gizli, qiymətli daşıdır və bu yer mən̲d̲ə̲ ̲ö̲m̲ü̲r̲l̲ü̲k̲ ̲g̲ö̲z̲ə̲l̲ ̲x̲a̲t̲i̲r̲ə̲l̲ə̲r̲ ̲b̲u̲r̲a̲x̲ı̲b̲.* |
| **Əsas abzas #1**<br>• Yerin görünüşünü təsvir edin və burada nələr görə biləcəyinizi söyləyin.<br>• Təsvir etdiyiniz yerin tablosunu yaratmaq üçün sifətlərdən çox istifadə edin. | *Ağ qumsallı çimərlikləri və Şokolad təpələri ilə yanaşı çoxəsrlik kilsələr və qalalar da Boholun turizm sərvətləri siyahısına daxildir. Burada siz sualtı üzgüçülük üçün əlverişli gözəl yerlər, möhtəşəm şəlalələr, sirli mağaralar və tarixi məkanları ziyarət edə bilərsiniz. Bundan başqa vəhşi və ekzotik heyvanları da görmək istəyəcəksiniz.* |

| | |
|---|---|
| **Əsas abzas #2**<br>• Bu yerdə nə ilə məşğul ola biləcəyinizi təsvir edin (fəaliyyət növləri, görməli yerlərin ziyarəti və s.)<br>• Bu fəaliyytləri təsvir etmək üçün sifətlərdən çox istifadə edin. | *Boholda tətilini əyləncəli keçirmək üçün bir çox fəaliyyət növü ilə məşğul ola bilərsiniz. Məsələn, bir qayıq kirayələyib adalardan birinə gedə bilərsiniz. Orada təzə dəniz məhsulları almaq, yaxud üzən restoranda yemək imkanınız var. Həmçinin, suyun altına dala bilərsiniz, ya da gözəl sahilləri olan şəffaf sulu, mavi dənizdə üzərsiniz. Bundan əlavə, yerli əhali o qədər qonaqpərvər, mehribandır ki, məmnuniyyətlə sizi cürbəcür maraqlı yerlərə aparacaqlar.* |
| **Yekun abzas**<br>• Bu yerlə bağlı fikirlərinizi, hisslərinizi və tövsiyələrinizi əks etdirən bir nəticə yazın. | *Bir sözlə, Bohol adası füsunkar bir xoşbəxtlik adasıdır. Əgər dincələmək və əylənmək üçün əla bir yer axtarırsınızsa, o zaman Bohol adası sizin yerinizdir.* |

## Təsviri esse:
## Bir əşyanın təsviri
## Mənim xatirə qutum

| | |
|---|---|
| **Giriş**<br>Siz burada göstərirsiniz:<br>• əşyanın adını;<br>• əşyanı seçmə səbəbinizi. | *Yataq otağımdakı çarpayımın altında iyirmi ildir ki, bir özəl əşya – qırmızı qutu saxlayıram. Amma bu adi bir köhnə qırmızı qutu deyil. İçində həyatımın kiçik və qiymətli keçmiş anları olduğu üçün bu qutu məndən ötrü böyük məna daşıyır. Bu qutu mənim çox özəl xatirə mücrümdür.* |
| **Əsas abzas #1**<br>• Əşyanın nəyə bənzədiyini təsvir edin. Təsviriniz dəqiq olmalıdır.<br>• Təsviriniz əşyanın ölçüsü, ağırlığı, forması, naxışı və rəngi haqqında məlumatları əhatə etməlidir.<br>• Sifətlərdən mümkün qədər çox istifadə edin. | *Mənim xatirə qutumun ölçüsü nə böyük, nə də balacadır. Çarpayımın altına asanlıqla yerləşə bilən ölçüdədir. Parlaq qırmızı mücrümün üstünə bütünlüklə işıldayan xırda bəzək pulcuqları bənd edilib. Mücrü ipək kimi yumşaq və metal materialdan hazırlanıb. Üstündən illər keçsə də, qutunun görünüşü dəyişməyib, rəngi solmayıb. Qutu mükəmməl dördkünc formadadır, küncləri azacıq yuvarlaqdır. Qutunun içi də qırmızı rəngdədir, sadəcə, bir az açıq qırmızıdır. İç materialı da üstü kimi yumşaq və ipəkdəndir.* |

| | |
|---|---|
| **Əsas abzas #2**<br>• Əşyadan nə kimi istifadə etdiyinizi və / və ya onun nə üçün əhəmiyyətli olduğunu təsvir edin.<br>• Mümkün qədər sifətdən çox istifadə edin. | *Bu qutunun əsas rolu mənim xatirələrimi özündə saxlamaqdır. Qutuda ilk pasportum, uşaqlarımın doğum evində biləklərinə bağlanan qolbaqlar, atamın keçmiş işçisinin şəxsiyyət vəsiqəsi kimi müxtəlif kiçik, lakin mənalı əşyaları saxlayıram. Qutuda həmçinin tanıdığım insanlar haqqında, eləcə də həyatımda müəyyən rol oynamış hadisələrlə bağlı yazılmış məqalələr toplusu saxlayıram. Qutuya bir neçə xırda bəzək əşyası da qoymuşam; bu əşyalar mənə məktəb illərimi xatırladır. Məsələn, məktəbi bitirmək münasibətilə keçirilən buraxılış gecəsinin dəvətnaməsini on beş il öncə bu qutunun içinə qoymuşam ki, tədbirin necə gözəl keçdiyini hər zaman xatırlaya bilim.* |
| **Yekun abzas**<br>• Bu əşya haqqında fikirlərinizi, hisslərinizi və / və ya tövsiyələrinizi əhatə edən nəticə yazın. | *Yekun olaraq demək istəyirəm ki, bu parlaq qırmızı qutunun maddi dəyəri cüzi olsa da, mənəvi dəyəri hədsiz böyükdür. Tövsiyəm odur ki, <u>əgər sizin özəl xatirə qutunuz yoxdursa, elə indi bu məqsədlə bir qutu ayırın</u>. Bir xatirə mücrünüz olsun ki, iyirmi il sonra keçmişin izlərinə nəzər salanda siz də mənim kimi xoş xatirələrə dala biləsiniz.* |

**Nümunə**

***ƏN ÇOX SEVDİYİM FƏSİL***
***(Predmet)***
***(şagird mətni)***
***Turqut Nəhmətli,***
***IV sinif şagirdi***

*Yaz, yay, payız, qış... Bu ardıcıllıq fəsillər adlanır. Hər fəslin öz gözəlliyi var və bu gözəlliklərə görə fəsilləri sevirik. Fəsillər həm də bizi ana kimi bəsləyir. Gəlin keçək mənim sevdiyim fəslə. Mən bütün fəsilləri sevirəm, çünki fəsillərin hərəsinin sevdiyim cəhətləri var.*

*İlk fəsil bahar adlanr. Bu fəsildə Novruz bayramı qeyd edilir. Bahar fəsli gələndə hər tərəf yaşıllaşır.*

*Yay fəslində havalar isinir. Bu fəsildə də bir bayram qeyd edilir – Uşaqların Beynəlxalq Müdafiəsi Günü. Yay fəslində həmçinin uşaqlar yay tətilinə çıxırlar.*

*Payız da gözəl fəsildir. Payız fəslində təbiətdə hər rəng olur. Bu rənglər gözəl mənzərə yaradır. Payızda meyvələr bol olur. Onlar da təbiətə həm gözəllik verir, həm də bizi qidalandırır.*

*Qış. Ən soyuq fəsil. Qar yağır, çaylar donur. Ağaclar yuxuya gedir. Qış fəslində hava – bu, sizə küləyi, soyuq və istini, qarlı və yağışlı günləri xatırladır. Biz havadan asılı qalırıq. Hava tez-tez dəyişir. Biz havadan asılı olaraq hər şəraitdə ona uyğunlaşmağa çalışırıq. Qışı uşaqlar qarına görə sevir və həmişə həsrətlə qarın yağmasını gözləyirlər.*

*Fəsillər bizi bəsləyir. Ona görə də bütün fəsillər bizə vətən və ana kimi vacibdir.*

## İNFORMATİV / İZAHEDİCİ ESSE

İnformativ mətn müəyyən mövzu haqqında təsəvvür yaradan elmi-kütləvi ədəbiyyatdır.

İnformativ mətnin tipik nümunələri aşağıdakı mənbələrdə yer alır:

- qəzetlər
- onlayn məqalələr
- informasiya broşürləri
- ensiklopediyalar
- elmi-kütləvi jurnallar
- dərsliklər
- məşğələ proqramları
- praktik və prosedural kitab və məqalələr
- bioqrafiya və avtobioqrafiyalar.

İnformativ mətn qrafika, başlıq, lüğət, yarımbaşlıq kimi mətn elementləri ilə müşaiyət olunan faktlardan ibarət olur.

İnformativ mətn kimi, informativ essenin də məqsədi başqalarını müəyyən mövzu ilə bağlı məlumatlandırmaqdır.

Adətən, bu yazı növü beş suala cavab verir: kim, nə, harada, nə zaman və niyə.

İnformativ essenin strukturu:

- Giriş;
- Əsas məqamlar;
- Nəticə.

İnformatif esse necə sualına da cavab verə bilər: nəyisə necə etməyi izah edərək. Bu, həm də izahedici esse adlandırılır.

Bu növdə esse yazarkən mütəxəssislər öncə informativ sxem hazırlamağı tövsiyə edirlər. Bu, zamana qənaət etməyə imkan verrir, mətnə daxil edəcəyiniz informasiyaları qruplaşdırmağa kömək edir.

İnformativ esse nümunələrində müxtəlif məqamlara diqqət edin. Birinci abzasda tezisi tapmağa çalışın. Sonra əsas hissədə keçid sözlərinə diqqət edin. Məsələn, «təhlükəsizliklə əlaqədar olaraq...», «əyləncə baxımından»və s. kimi ifadələr informativ essenin abzaslarını əlaqələndirməklə yanaşı, informasiyanın inkişafını izləmək baxımında da səmərəlidir.

**İnformativ esse üçün mövzu nümunələri:**

*Qanı necə verməli*
*Xolesterin və ürək xəstliyi arasındakı əlaqə*
*Evi necə almalı*
*Çikaqo şəhərində yoxsulluq səviyyəsinin müəyyənləşdirilməsi*
*Gündəlik mütəmadi məşqlərin əhəmiyyəti*
*Qlobal istiləşmənin üç əsas səbəbi*
*Havalanma sisteminin təmizlənməsi niyə vacibdir*
*Kommersiya məqsədilə sürücülük vəsiqəsini necə almalı.*

## *SƏYAHƏTİ TƏKLİKDƏ NECƏ UĞURLU ETMƏK OLAR*
**(Xarici təcrübə)**

*Ceyms Bolduin bunu hamıdan yaxşı demişdir: Mən Avropada çox insanla qarşılaşdım, hətta özümlə də üz-üzə gəldim." (Болдуин, 2014). Tək səyahət etmək sizə nəinki yalnız cəlbedici zirvələri fəth etməyə, həmçinin özünüzlə - səbatınız, sizin macərapərəst ruhunuz, azadlığınızla tanış edəcək. Tək səyahət etmək ayaqqabınızın bağnı bağlamaq qədər vacibdir ki, bunu da məhz bu gün öyrənməlisiniz.*

*Birincisi, tək səyahət etmək üçün ən uğurlu üsullardan biri öz məkanını öyrənməkdir. Turistlər üçün bir nömrəli təhlükə küçənin ortasnda dayanıb onun GPS-nə kiminsə baxmasıdır.*

*" World Travel News Report"a görə, on beş turistdən beşi qələbəlik küçənin ortasında dayanarsa, oğurlanacaq. (Parker, 2019). Bundan çıxış yolu ərazi haqqında yerli əhali qədər məlumatlanaraq ictimai nəqlyiyyat sistemini anlamaqdır.*

*Təhlükəzisliklə əlaqədar olaraq yaşayış məkanını öyrənmək lazımdır. Siz oteldə qala bilərsiniz, lakin məlumatlarla ciddi maraqlanmalısınız. Otelin təhlükəsiz yerdə yerləşməyinə və təhlükəsizliyin onlar üçün prioritet olmağına əmin olun. Siz hətta öz vanna otağı olan fərdi otaqlara da baxa bilərsiniz,*

*Məmnunluq üçün əşyalarınızı kampaniyanıza uyğun götürün. Macəralarınızı yazmaq üçün gündəlik tutun. Kafedə gözlədiyiniz zaman vaxtınızı keçirmək üçün yumşaq üzlü kitabınız olsun. Səyyah Samanta Birnc deyir: "Mən heç vaxt dostlarımla səyahət etmirəm. Yeni ərazini öyrəndiyim zaman mənim gündəliyim mənim yeganə köməkçim olur." (Бирнс, 2018).*

*Bu, ona öz ətrafını yaxından tanımağa, yeni tanışlıqlar qazanmağa və özüylə qarşılaşmağa kömək edir. Birnc davam edir: "Biz iş, ailə, ev işləri və işgüzar məsələləri dqqət mərkəzində saxlayırıq. Tək səyahət etmək gündəlik fəaliyyəti yeniləmək üçün özümüzə dönməyə kömək edir ki, bu da işlərimizi mükəmməl görməyə imkan yaradır." (Бирнс, 2018).*

*Təklikdə uğurlu səyahət etməyi öyrənmək əldə edilmiş qələbədir. Əgər siz ərazi haqqında məlumatlısınızsa, təhlükəsizlikdə olacaqsınız və yaşayış yerini ağıllı seçəcəksiiniz. Bununla yanaşı, siz köhnə gündəliyin köməyilə sadə addımlarla həqiqi transformasiyanı hiss edəcəksniz. Nə deyirsiniz? Fərdi səyahətləri araşdıracaqsınızmı? Müdrik olun, bu, sizin həyatınızı həmişəlik dəyişə bilər.*

## ANALİTİK ESSE

Analitik esse şagirdin təhlil bacarıqlarını formalaşdıran yazı növüdür, əsasən, sənət əsərlərinin təhlili məqsədilə yazdırılır, şagirdin əsəri elmi-nəzəri aspektdən obyektiv dəyərləndirmə bacarığını formalaşdırır. Belə yazılar, adətən, bədii mövzuları təhlil etmək və sətiraltı mənaları üzə çıxarmaq məqsədilə yaradıcı əsərlərə - incəsənət, ədəbiyyat, kino və ya musiqiyə həsr olunur.

Analitik esse — izahedici essenin növüdür, ona görə də ehtimal, mülahizə əks etdirməməlidir. Hətta müəllif bəzən öz yanaşmasını ifadə etməyə çalışsa da (və ya əks tərəfin yanaşmasını təkzib etməyə çalışsa da), onun arqumentləşdirməsi istisnasız olaraq fakta, məntiqə əsaslanmalı, müəllifin şəxsi təəsssüratları minimuma endirilməlidir.

Hər bir analitik esse bir neçə ünsürdən təşkil olunur: başlıq, epiqraf, giriş, əsas hissə, nəticə.

Başlıq mövzu, problematika və elmi tezisə uyğun ola bilər.

Analitik esseyə epiqraf yazmaq mümkündür. Epiqraf essenin ideyasını ifadə etmək üçün istifadə olunur. O, analitik essenin yazılmasında əsas şərt olmasa da, uğurlu epiqraf – şagirdin materialı doğru mənimsədiyinin göstəricisidir. Epiqraf olaraq mətndən bir cümlə, yaxud, hər hansı bir aforizmi, atalar sözünü seçmək olar.

Epiqraf mövzu ilə səsləşməli, təsirli və qısa olmalıdır. Epiqrafın verilməsi də mənbəyə istinadən olmalıdır. Həmçinin qrafik təşkilinin də düzgün aparılmasına – mətnin üzərindəki yerinə diqqət edilməlidir.

Analitik essenin strukturunu giriş, əsas hissə, nəticə təşkil edir. Plan tərtibində bu hissələr rum rəqəmləri ilə işarələnməli və hər biri ayrılıqda adlandırılmalıdır.

Girişdə əsərin yazıldığı dövr, əsərin yazılma tarixi, qəhrəmanların prototipləri haqqında danışmaq olar.

Planın əsas hissəsi bir neçə ərəb rəqəmi ilə sadalanmış bənddən və hərflərlə fərqləndirilmiş alt-bənddən təşkil edilir.

1) Əsərin qəhrəmanının sosial vəziyyəti
2) Portret
3) Xarakter cizgiləri
4) Qəhrəmanın digər obrazlarla ünsiyyəti
5) Digər obrazların əsərin qəhrəmanına münasibəti
6) Onların dövrün ictimai həyatında iştirakı
7) Qəhrəmanın nitqi və ilaxır...

Bütün bunlar mətndən sitatlarla əsaslandırılır.

Nəticədə mətnə əsaslanaraq çıxarışlar etmək, qənaətləri yazmaq, seçilmiş qəhrəmana öz münasibətini ifadə etmək olar.

Beləliklə, analitik esse yazmaq üçüm əsərin mətnini bilmək, onun məzmununu qavramaq və planlaşdırmanın 4 şərtinə – epiqrafın seçilməsi, girişin, əsas hissənin və nəticənin adlandırılmasına – yəni planın tərtib edilməsinə əməl etmək lazımdır. İstinadlardan dəqiq istifadə etmək tələb olunur.

Analitik esse şagirdin mətni qavrama səviyyəsini, fikrini məntiqi ifadə etmə bacarığını yoxlamaq məqsədi ilə yazdırılır. Bütün bunlar təcrübə və vərdiş sayəsində qazanılır.

Essenin planlaşdırılmasında şagirdin çətinlikləri:

1) Mövzunun xüsusiyyətlərini anlaya bilməmək;
2) Giriş hissədə mövzunu yanlış müəyyənləşdirmək;
3) Əsas hissənin suallarını müəyyənləşdirə bilməmək;
4) Nəticənin essenin məzmununa uyğun olmaması;
5) Çıxarışların və ümumiləşdirmələrin aparılmaması;
6) Planın yanlış qrafik tərtibi, bəndlərin səliqəsiz nömrələnməsidir və s..

Analitik esse üçün plan tərtib edilərkən öncə rum rəqəmləri, sonra ərəb rəqəmləri, ardınca hərfi nömrələnmə aparılmalıdır.

Məsələn:

***I.***

***1.1.***

***1.1. a)***

***II.***

***2.1.***

***2.1. b)***

Esseni yazmağa öncədən əlavə ədəbiyyatların oxunması şərti ilə hazırlaşmaq tövsiyə olunur. Mətnin yazılmasında da plan tərtibində yol verilən səhvlərdən çəkinmək lazımdır. Analitik esse yazarkən şagirdlərin yol verdiyi tipik səhvlər bunlardır:

- mövzuya uyğun olmayan materiallardan istifadə etmək;
- materialın təmin olunmaması;
- yazıda ardıcıllığın pozulması;
- hissələrin həcm tələblərinin pozulması;
- məzmunun plana uyğun olmaması;
- eyni fikirlərin təkrarlanması;
- sitatlardan istifadə edə bilməmək (ya həddindən artıq istifadə etmək, yaxud heç istinad etməmək)
- tarixi, ədəbi, bioqrafik faktların təhrifi;
- müasirliklə süni əlaqləndirmə;
- hissələr arasında məntiqi əlaqəsizlik;
- mənbələrdən uyğun olmayan şəkildə istifadə.

Analitik essenin öncə qaralamada yazılması, təkrar işləndiyi zaman cümlələr əlavə edə biləcək qədər yer qoyulması tövsiyə olunur.

Yazı işinin qaralamada tamamlanmasından sonra onu diqqətlə yoxlamalı, bütün fəaliyyətlərin uyğnluğuna əmin olduqdan sonra yeni vərəqə köçürülməlidir.

## RƏY

Rəy tədris prosesində hər hansı bir sənət nümunəsi, mədəni fəaliyyəti dəyərləndirmək üçün yazılan yaradıcı yazı növüdür. Professional sahədə yeni əsərlərin dəyərləndirilməsi məqsədilə istifadə olunan rəy məktəb praktikasında da oxşar mahiyyət kəsb edir. Rəy şagird mətni, film, ədəbi-bədii gecə, ekskursiya və s. haqqında yazıla bilər. Dil və ədəbiyyat dərslərində, adətən, oxunmuş bədii mətnə münasibət bildirmək məqsədilə yazılır.

Rəyin məqsədi əsərin müsbət və mənfi xüsusiyyətlərini üzə çıxararaq əsərin dəyərləndirilməsidir. Rəyçi öz subyektiv mövqeyindən çıxış etməyinə baxmayaraq, obyektiv qiymətləndirmə mövqeyini də sona qədər qorumalıdır.

Rəydə obyektivliyin qorunması onun üslubunu şərtləndirən əsas xüsusiyyətlərdəndir. Artıq emosionllıq, kəskin dil, kəskin müqayisələr rəyin xüsusiyyətlərinə ziddir. Rəyin obyektivliyini göstərən əsas cəhət dəlillərin gətirilməsidir. Rəy müəllifi əsərə münasibətini mütləq əsaslandırmalıdır. Burada arqumentləşdirməni bədii əsərdən sitatlar, üslub göstəricilərinin qeydə alınması, forma, leksika, uyğunluq haqqında qeydlər təşkil edir.

Bədii mətnə rəy yazmaqdan öncə şagirdi esse-təəssürat və rəyin müqayisəsi ilə tanış etmək olar.

| Aspektlər | Esse-təəssürat | Rəy |
|---|---|---|
| Yazı növünün əsas xüsusiyyəti | Şagirdin əsər haqqında emosional-qiymətləndirici (ekspressiv) təhlili - şəxsi təəssüratı | Məzmun və forma vəhdəti əsasında bədii əsərin tənqidi analizi - əsərin obyektiv təhlili |
| Məqsədi | Əsər haqqında təəssüratlarını bölüşmək; Bəyəndiyi əsəri diqqətə çatdırmaq; Müzakirədə iştirak etmək. | 1) Bədii əsərin ideya-poetik xüsusiyyətlərini qiymətləndirmək; 2) Həmçinin esse-təssüratın məqsədləri |
| Yanaşmanın xüsusiyyəti | Şagird əsərdə qaldırılmış problemin ictimai əhəmiyyətini və aktuallığını şəxsi yanaşmaları əsasında izah edir. Arqumentləşdirmə sistemi oxucu təcrübəsi, zövqü və seçimlərinə əsaslanır. Bədii qəhrəmanlar insan xarakteri, tipi kimi nəzərdən keçirilir; personajlar və onların davranışlar əxlaqi-etik, mənəvi cəhətdən dəyərləndirilir. Nəticə şagirdin həyata şəxsi yanaşmasını, onun şəxsi keyfiyyətlərini, əsərdə verilmiş müxtəlif situasiyalara münasibətini əks etdirir. | Rəydə emosional-subyektiv (bəyənildi – bəyənilmədi) deyil, obyektiv dəyərləndirmə aparılır. Oxucu-şagird tənqidçi-araşdırmaçı kimi çıxış edir. Araşdırma obyekti - əsər bədii mətn kimi, müəllifin poetikası, mövqeyi və ifadə vasitələridir (problematika, konflikt, kompozisiya-süjet xüsusiyyətləri, personajlar sistemi, dil və üslub və s.). Şagirdin müstəqil təfəkkürü ifadə formalarından ( mən düşünürəm, ...; mənim fikrimcə, ....) artıq, üslubun fərdiliyi, mühakimələrin dərinliyi, müstəqil assosiasiaya, arqumentlərin inandırıcılığına görə müəyyənləşir. Rəy araşdırmanın tamlığına iddialı deyil, o, əsərin və onun xüsuiyyətlərinin da- |

| | | |
|---|---|---|
| | | ha parlaq, əhəmiyyətli tərəflərini nəzərə alır.<br>Rəy publisistik ola bilər, polemik xarakter daşıması mümkündür, həmçinin essenin xüsusiyyətlərini özündə əks etdirə bilər. |
| Məzmunun inkişafı və strukturu | Oxu təəssüratlarının və prosesinin nəqli, əsərlə tanışlığın, tarixçəsi. Əsərin qısa qiymətləndirilməsi ilə bağlı tezis.<br>II. Əsərin dəyərləndirilməsinin arqumentləşdirilməsini ehtiva edən mühakimə:<br>1) Əsər müəllifinin toxunduğu mövzunun və qaldırdığı problemin aktuallığı;<br>2) Əsərdəki ən vacib epizodların xülasəsi (nəqli deyil);<br>3) Personajların davranışlarının dəyərləndirilməsi, onların təsvir edilmiş hadisələrdəki rolu, personajlara və onların taleyinə münasibət;<br>4) Mühakimə qənaətləri (əsərlə bağlı şagirdin fikir və hissləri).<br>III. Oxunmuş əsər yazıçının digər əsərləri də xatırlanmaqla | I. Rəy üçün səbəbin əsaslandırılması (yenilik, adın "qaytarılması", yazıçının yeni əsəri, yazıçının yaradıcılığı - ədəbi prosesdə əhəmiyyətli təzahür kimi, yazıçının yaradıcılığı ətrafında polemika, əsərin problematikasının aktuallığı, yazıçının yubileyi və s.). Məktəb təcrübəsində ədəbiyyat dərsliklərindəki bədii mətnlərin tədris əhəmiyyəti baxımından əsaslandırılması məqsədəuyğundur.<br>II. Bir əsərin dəqiq seçilməsi və təhlilinin aparılması mütləq şərtdir. Tezis - araşdırılan mətnin tarixi-mədəni dəyəri barədə fikri ehtiva edir.<br>III. Əsərin ideya-bədii xüsusiyyətlərinin təhlili və dəyərləndirilməsi.<br>1) Adların analizi (semantika, allüziya, assosiasiya)<br>2) Təhkiyənin təşkili üsulları (müəllifin, qəhrəmanın dilindən, "hekayə |

| | | |
|---|---|---|
| | dəyərəndirilə və potensial oxuculara xitab olunaraq müəllifin yaradıcılığı ilə tanışlıq təklif olunmaqla mühakimə ümumiləşdirilə bilər. | içində hekayə" və s.) və digər kompozisiya xüsusiyyətləri və onların bədii əhəmiyyəti.<br>3) Problematika, bədii konflikt və onun süjet boyunca inkişafının xarakteristikası.<br>4) Bədii ideyanın ifadəsində personajlar sisteminin təşkili; xarakterlərin yaradılması sənətkarlığı.<br>5) Müəllif mövqeyinin digər ifadə vasitələri (müəllif xarakteristikası, lirik ricətlər, peyzaj və s.) və onların dəyərləndirilməsi.<br>6) Müəllif üslubu və metodunun digər özəllikləri.<br>III. Mətnin bədii keyfiyyətləri və ədəbi prosesdə, ictimai həyatda əhənmiyyəti haqqında qənaət. Polemikaya dəvət. |

## RƏYİ NECƏ YAZMALI
### *(metodik tövsiyələr)*

Rəyi yazmağa necə başlamalı? Təəssürat, mühakimə, şəxsi mövqe, ədəbi təhlili bir mətnə necə yerləşdirməli?

Necə başlamaq olmaz? Məntiqi yanaşmaları ilə məşhur olan filoloq V.Şklovski yazırdı: "Tənqidi məqaləni – "mən kitabı açdım", "məni maraqlandırdı", "vərəqlədim", "baxdım" kimi sözlərlə başlamaq olmaz. Teatr resenziyasını da – "mən teatra gəldim və kresloya əyləşdim" sözləri ilə başlamaq olmaz. Kitabı vərəqləmədən oxumağın mümkün olmadığı kimi, bu da mümkünsüzdür".

Bəs necə başlamalı? Rəy, adətən, əsərin biblioqrafik təsviri və qısa məzmunu ilə (iki-üç cümlə) başlayır.

Məzmunun uzun xülasəsi rəyin dəyərini azaldır: birincisi, əsərin özünü oxumaq maraqlı olmayacaq; ikincisi, haqlı olaraq zəif rəyin əsas göstəricisi kimi, əsərin təhlili və interpretasiyasının məzmunun nəqli ilə əvəz edilməsi hesab olunur.

Bəzi rəyçilər qeyri-ənənəvi yoldan istifadə edirlər: onlar başqalarının öz yazılarını bitirdiyi yerdən – qənaətlərindən başlamağa üstünlük verirlər.

Bütün əsərlər oxu prosesində interpretasiya edərək mənasını kəşf etmək istədiyimiz başlıqla başlayır. Başlığa çıxarılmış söz qeyri-ixtiyari mətnin açar sözünə çevrilir. Şagirdlərə bu sualın üzərində düşünməyi təklif edin: əsərin adını oxuduqları zaman təsəvvürlərində hansı şəxsi, mədəni və ya bədii assosiasiyalar yaranır?

Aydındr ki, əsərin adı oxucuda mətnin məzmununun qavranılması ilə bağlı bir çox assosiasiyalar yarada bilər. Yaxşı əsərin adı özlüyündə bir simvol və metafor olduğu üçün çoxmənalı olur.

İlk cümlə və ya birinci abzas. Mətnin ilk abzasını səsli oxumaq və şagirdlərə proqnozlaşdırma aparmağı - davamında nə olacağını, oxucuda hansı gözləntilər yaratdığını söyləməyi təklif etmək olar. Sonra sonuncu abzası oxuyuruq – belə bir finalı gözləyirdinizmi, yoxsa aldadılmış gözləntilər təsiri yaratdı? Birinci cümlədə açar sözlər tapmağa çalışırıq.

* * *

Kompozisiyanın təhlili mətni daha yaxşı anlamaq və interpretasiya etmək üçün səmərəlidir. Mətn məntiqi ardıcıllıqla tərtib edilir. Bu ardıcıllıq heç vaxt təsadüfi olmur.

Mətni hansı hissələrə bölmək olar? Onlar necə yerləşdirilir? Bu sualları müzakirə edərək şagirdlərin əsərin hissələrə ayrılması ilə bağlı fikirlərini paylaşmalarına şərait yaradın.

Hər bir uğurlu əsərdə yazıçı öz təkrarolunmaz aləmini yaradır. Burada zaman və məkan xüsusi qanunlarla mövcuddur. Düşünək: bu aləmdə dəyərli olan nədir? Bəzən mətndə bu sualın açar sözlərlə verilmiş birbaşa göstəriciləri olur. Müəllif bununla öz oxucularına əsərin ideyası barədə işarə edir.

Əsərdə müəllif tərəfindən yaradılmış aləmə detallar vasitəsilə də nüfuz etmək olar. Hətta feil formaları da təcrübəli oxucuya çox söz söyləyə bilər. Cümlələrin sintaktik

quruluşu, sadə və mürəkkəb cümlələrin istifadəsi, giriş sözlər, həmcins üzvlər də rəyçi-oxucu üçün mühakimə vasitələridir.

**Yadda saxla!**

Rəy – hər hansı bir sənət əsərini və ya elmi əsəri təhlil edərək dəyərləndirməkdir.

**Rəy**:

- çoxfunksiyalı (informasiya, əlaqələndirmə, inandırma, təhlil funksiyalarının cəmini yerinə yetirir);
- arqumentləşdirilmiş (əsaslandırma, müəllif mövqeyinin obyektivliyini ifadə etməyi şərtləndirir);
- emosional (tənqidçinin subyektiv, şəxsi zövqü, maraqları nəzərə alına bilir);
- çoxünvanlı (geniş oxucu auditoriyasına ünvanlanır);
- yazılı;
- fərdi (müəllif – konkret şəxsdir);
- üslubca qarışıq (elmi-publisitik üslubda yazılır) **yazı növüdür.**

**Rəyin əsas struktur elementləri:**

- əsər haqqında məlumat ( müəllif, əsərin adı, yazılma və nəşr yeri və ili);
- əsərin ümumi xarakteristik-qiymətləndirilməsi (əsərin qısa məzmunu və süjetin şərhi, kulminasiya anının təsviri, sitat gətirmək və digər üsullar);
- əsərin məzmunu və formasının təhlili;
- əsərin öz müəlifinin yaradıcılığında və bütövlükdə ədəbi prosesdə yeri və rolu;
- oxucunun diqqətinin əsərə yönəldilməsi.

**Bədii əsərə yazılan rəyin konstruksiyası**

**1. Əsərin təqdimatı:**

Ümumi xarakteristik-qiymətləndirmə

2. **Məzmunun təhlili**:

• mövzu və əsas ideya;

• süjet;

• obrazlar sistemi (həmçinin müəllif, təhkiyəçi obrazı);

• başlıq və epiqrafın rolu;

• janrın xüsusiyyətləri.

3. **Formanın təhlili:**

· kompozisiya (peyzaj, portet, epizodların rolu);

· dil və üslubun təhlili;

4. **Əsərin ümumi qiymətləndirməsi.** Əsərin bədii-estetik, mənəvi-əxlaqi xüsusiyyətləri dəyərləndirilir, lazım olduqda qeydlər olunur, yaxud tövsiyələr edilir.

**5. Digər oxuculara uğurlar diləmək (müəllifə də mümkündür).** Əsərin mütaliəsinin əhəmiyyəti qeyd olunur, oxunması tövsiyə olunur. Müəllifə gələcək fəaliyyətində uğurlar arzulanır.

**Rəyin tipik nitq konstruksiyası**

| Təhlil edilən aspektlər | Mətndə rast gəlinən tipik ifadələr və cümlələr |
|---|---|
| **Müəllif haqqında** | *Müəllif nəinki yalnız görkəmli yazıçıdır, həmçinin psixoloq, filosofdur....*<br>*Onun əsərləri (hekayələri, şeirləri) insanda (hissləri, fikriləri) doğurur.* |
| **Süjetlə bağlı** | *Bu hekayə ........ haqqındadır.*<br>*Süjet belə qurulmuşdur, ..................*<br>*Əsas süjet xətti ..........*<br>*Müəllifin diqqət mərkəzində ......* |
| **Personajlar haqqında** | *Təhkiyəçi-qəhrəman izah etmək istəyir ki, ..............*<br>*Müəllif əsərində ............ qəhrəmanları canlandırmşdır.*<br>*Qəhrəmanların yaşadığı dünya....*<br>*Əsas qəhrəman .....................* |
| **Əsər haqqında təəssüratlar** | *İlk təssürat...........*<br>*İlk baxışda elə gəlir ki, ...............*<br>*Hekayə atmosferi..............*<br>*Əsər təsirləndirir (təəccübləndirir)....*<br>*Müəllifin toxunduğu mövzunun əhatə dairəsi çox genişdir.*<br>*Əsas mövzu .....* |

| | |
|---|---|
| | *Müəllif ........... haqqında yazır.*<br>*Əsas ..... problemə yer verilmişdir.*<br>*Problematikanı .................. kimi müüəyyənləşdirmək olar.* |
| **Müəllif mövqeyi haqqında** | *Müəllifin ............ bağlı mövqeyi aydın deyil.*<br>*Müəllif ....... məqsədəuyğun görür.*<br>*Müəllif diqqətlə ............... analiz edir.*<br>*Müəllif .................... açıqlayır.*<br>*Nəticə gözlənilməzdir.*<br>*Müəllifin .......... haqqında təkilifi maraqlıdır.*<br>*Müəllif ehtimal edir (əmindir, inandırıcı olaraq sübut edir).* |
| **Ədəbiyyatşünaslıq terminologiyasından istifadə** | *Əsərin üslubunu nəzərə alaraq....*<br>*Kompozisiya uğurludur.*<br>*Müəllif hekayə əvəzinə ..... janra üstünlük vermişdir.*<br>*Hekayə poetik dillə yazlmışdır.*<br>*Qəhrəmanların nitq xarakteristikası maraqlıdır.* |
| **Tənqidi qeydlər** | *Bütün fikirlərlə razılaşmaq olmaz.*<br>*Müəlliflə razılaşmaya bilərəm ki, ....*<br>*İstisna olaraq (Nəzərə almamaq olmaz ki),............*<br>*Müəllifdən fərqli olaraq mən düşünü-* |

| | |
|---|---|
| | *rəm ki, ..........*<br>*Ola bilsin ki, hamısı doğru deyil (doğrudur, dəqiqdir)........*<br>*Mövzuya laqeyd olmayan oxucunu təəccübləndirməyə bilməz, .....*<br>*Təsssüf ki, müəllif fikirlərini nümunələrlə əsaslandırmır.*<br>*Müəllif diqqətdən qaçırır (nəzərə alır).....* |

Şagirdləri **rəyin növləri** haqqında aşağıdakı məlumatlarla tanış etmək olar:

1) Geniş annotasiya – əsərin məzmunu açıqlanır, kompozisiyanın əsas xüsusiyyətləri göstərilir.

2) Kiçik tənqidi və ya publisistik məqalə (adətən, polemik xarakterli) - əsər aktual ictimai və ədəbi problemlərin müzakirəsi üçün nəzərdən keçirilir.

3) Esse-təəssürat – rəy müəllifinin əsər haqqında ekspressiv mühakimələri, təhlildən daha çox təəssürata əsaslanan düşüncələrini əhatə edir.

4) Müəllif rəyi - müəllifin öz əsərinə baxışını əhatə edir.

5) Xülasə - tematik, süjet, xronoloji və ya digər əlamətlərə görə qruplaşdırıla bilən bir neçə əsərə yazılmış rəydir.

**Rəyin səviyyələri:**

1. Bir əsərə yazıçının ümumi yaradıcılığı kontekstindən kənar rəy;

2. Yazıçının yaradıcılığı kontekstində bir əsərinə rəy;
3. Bir əsərə dövrün ədəbi prosesi kontekstindən rəy.

**Rəy yazılması qaydaları haqqında tövsiyələr:**

• Rəydə bədii əsərin yazı keyfiyyətləri nəzərə alınmalıdır:

- süjetin cəlbediciliyi,
- müəllif nitqi ilə əsərin qəhrəmanlarının nitqinin uyğunluğu;
- üslubun uyğunluğu.

• Rəydə bütün qrammatik səhvlər göstərilməsi tövsiyə olunur. Bunu etmək müəllifin xeyrinədir.

• Müəllifin uğurlarının və bədii tapıntıların qeydə alınması vacibdir. Bu, müəllifi yeni əsərlər yaratmağa ruhlandırmaq üçündür.

• Rəy müəllifi əsəri oxuduğu zaman keçirdiyi hissləri qeyd edə bilər.

• Əhatəli və əsaslandırılmış fikirlərlə çıxış edilməlidir. Rəy yazarkən "Bəyənirəm!", "Əhsən!", "Əla!" ifadələri ilə qiymətləndirmək uyğun deyil.

• Ədəbi dil normalarına riayət etmək tələb olunur. Fikirləri təkrarlamaq, israrçılıq etmək uyğun deyil.

**Rəyin yazılmasında tipik səhvlər:**

• analiz və interpretasiyanın əvəzinə əsərin məzmununun verilməsi;

• rəyin qısa şərh və qeydlərlə qarışdırılması;

• arqumentlərin göstərilməməsi;

• müəllifin soyadının ata adı ilə, yaxud təxəllüslə əvəzlənməsi (kitabda yazılmadığı halda);

• «orijinallaşma» naminə rəyin çərçivələrini pozmaq;

• rəyçinin mövqeyinin aydın olmaması;

• rəyin ikinci dərəcəli məsələlərlə yüklənməsi (məsələn, təhlül üçün əsas məlumatlardan kənar bioqrafik, tarixi məlumatlar);

• mətnin ideya-tematik xarakeristikasının yarımçıq təhlili;

• ədəbi terminlərdən və anlayışlardan yanlış və ya formal istifadə.

## ESSE-MÜHAKİMƏ

**Mühakimə xarakterli esse nədir?**

Mühakimə xarakterli esse - problem əsasında müəllifin mövqeyini əks etdirən yaradıcı yazıdır. Yaxşı mühakimə mətnində müəllif öz mühakimələrini yürüdərək, onları isbat edən sübutlar gətirərək oxucularını fikrinin doğruluğuna inandırır.

Esse-mühakimə - yuxarı sinif şagirdləri və tələbələr üçün geniş istifadə edilən tapşırıqdır.

Mühakimə xarakterli essenin mövzuları elm, texnika, siyasət, səhiyyə, təhsil və s. problemlərlə bağlı olur.

**Mühakimə xarakterli essenin planını 4 addımla necə yazmaq olar?**

Mühakimə xarakterli esse sadə quruluşa malik olmalıdır ki, oxucu fikirlərin ardıcıllığını rahat izləyə bilsin. Çün-

ki esse-mühakimənin məqsədi – müəllifin nəzər nöqtəsini, arqumentləri və sübutları dəqiq ifadə etməkdir.

Yaxşı mühakimə mətni aşağıdakı quruluşa malik olur:

**Giriş abzası**

**Birinci abzasda** mətnin mövzusu aydın olmalı, tezisi əsaslandıran arqumentlərin anlaşılması üçün açar informasiya verilməlidir.

**Əsas hissənin abzasları.** Tipik mühakimə xarakterli esse mətni tezisi əsaslandıran 3 və ya 4 abzasdan ibarət əsas hissəyə malik olur. Hər bir abzas ayrıca bir köməkçi fikri və onu isbat edən dəlilləri əhatə edir ki, bu da oxucunun sizin fikrinizlə niyə razılaşmalı olduğunu izah edir.

Əsas hissə mühakimələr aşağıdakı dəlillərlə isbat olunur:

- nümunələr;
- statistika;
- mənbələr;
- mətndən sitatlar və s.

Əks nəzər nöqtələrinə müraciət edilə bilər və onlarla niyə razılaşmadığınızı izah edə bilərsiniz. Faktların müxtəlif yanaşmalara əsasən təqdim edilməsi əminlik yaradar və oxucunun güvənini qazanmağa kömək edər.

**Nəticə**

Qısa esse mətnində nəticə, adətən, sonuncu bir abzasdan ibarət olur. Burada mətnin tezis məzmunca təkrarlanır və əsas abzaslarda göstərilmiş fikirlər ümumiləşdirir. Esse üçün yaxşı nəticə oxucunun hisslərinə də təsir etməklə yazıla bilir. Esse sərbəst kompozisiyaya malik olduğu

üçün bəzi hallarda yazıçılar mətni yumorla da yekunlaşdıra bilirlər.

**Mühakimə xarakterli essedə tezis**

Tezis essenin əsas fikridir və mətnin qarşısında duran problematik sualın cavabıdır. Essedə tezis ya arqumentlərlə əsaslandırılmış bir cümlədən ibarət olur, ya da tezisdən sonra arqumentləi əks etdirən cümlə yazılır. Tezisin yerləşdiyi abzas mühakimə essesinin ən vacib məqamıdır.

Eccə mətnində tezisin yeri sərbəstdir, lakin bəzi qiymətləndirmə modellərində tezisin giriş abzasında verilməsi meyar ola bilir.

**Tezisi 3 addıma necə yazmaq olar?**

Bu addımlar sizə öz mövqeyinizi dəqiq və qısa ifadə etməyinizə kömək edəcək:

1. **Mövzunu suala çevirin və ona cavab verin.** Əgər sizə esse yazmaq üçün başlıq formasında mövzu verilibsə, essenin giriş hissəsində və ya ilk cümləsində əhatəli bir sual qoyun. Sonra öz tezisinizdə buna dolğun cavab verin.

Məsələn, bizə belə bir mövzu verilir: *"Məktəbdənkənar fəaliyyətin təhsildə rolu"*

Essenin giriş hissəsində və ya elə ilk cümlədə belə sual qoya bilərsiniz: ***«Məktəbdənkənar fəaliyyət şagirdin fənnə marağını artıra bilərmi?» Sonra isə öz tezisinizi yazın: «Məktəbdənkənar fəaliyyət şagirdi məktəbə gəlməsi üçün stumullaşdırır və onun dərslərə marağını artırır».*** Bu metod səmərəlidir, çünki mətndə qoyulmuş suallar oxucuları cəlb edir və onları cavabla tanış olmağa sövq edir.

4. **Arqumentinizi formalaşdırın və sonra ona əks mövqedən baxın.** Sizin fikrinizə qarşı olan ideyanı da verin və onunla niyə razılaşmadığınızı izah edin.

Məsələn: ***"İnsan elastik bacarıqaları sayəsində hər cür yeniliklə ayaqlaşmaq vərdişi qazana bilər, lakin günümüzdə biliyin sürətlə dəyişilməsi, inkişafı öyrənmənin sürətini şərtləndirdiyi üçün, əksərən, məktəblərdə şagirdin estetik, fiziki, mənəvi inkişafı kölgədə qalır."*** Bu metod səmərəlidir, çünki əks mövqeyə qarşı qətiyyətli cavab verilir və həmin dəqiqə sizin nüfuzunuzu nümayiş etdirir.

**5. Əsas məqamları qısa ifadə edin. Öz əsas fikrinizi təqdim edin və onu necə əsaslandıracağınızı izah edin.**

Məsələn: ***"Şagirdlərin elastik bacarığı müxtəlif fiziki, emosional fəaliyyətlərdə daha çox inkişaf etdirildiyi üçün məkətbdənkənar fəaliyyət şagirdi məktəbə gəlmək üçün stimullaşdırır və dərslərə marağını artırır."*** Bu metod səmərəlidir, çünki oxucuya essenizdə müzakirə etdiyiniz bütün məsələlər haqqında aydın təsəvvür yaradır. O, həmçinin təşkilatlandırıcı funksiyanı yerinə yetirir, əsas istiqamətdən yayınmamaq üçün xəritə rolunu oynayır.

**Nümunə**

> **"Məktəbdənkənar fəaliyyət şagirdin fənnə marağını artırır". Bu fikirlə razısınzımı? Fikrinizi əsaslandırın.**
>
> **Könül Aydın**

*İnsan elastik bacarıqları sayəsində hər cür yeniliklə ayaqlaşmaq vərdişi qazana bilər, lakin günümüzdə biliyin sürətlə dəyişilməsi, inkişafı öyrənmənin sürətini şərtləndirdiyi üçün, əksərən,*

*məktəblərdə şagirdin estetik, fiziki, mənəvi inkişafı kölgədə qalır. Bəs məktəbdənkənar fəaliyyət şagirdin fənnə marağını artıra bilərmi? Şagirdlərin elastik bacarığı müxtəlif fiziki, emosional fəaliyyətlərdə daha çox inkişaf etdirildiyi üçün məkətbdənkənar fəaliyyət şagirdin məktəbə gəlməsini stimullaşdıra bilər və dərslərə marağınız artırar.*

*Orta məktəbdə müəllim vəzifəsinə yeni təyin olunmuşdum. Mənə ibtidai sinifdə bilik və bacarıq baxımından qənaətbəxş formalaşdırılmamış beşinci sinfin Azərbaycan dili və ədəbiyyat dərsləri həvalə edildi. Birinci rübün sonunda sinfim monitorinq olundu və çox aşağı nəticə nümayiş etdirdi. Səbəbi göz önündə idi: sinfimdə müxtəlif həssas qruplara aid şagirdlər çox idi. Yarımçıq, imkansız ailələr, həmçinin xroniki xəstə valideynin övladlarının dərsə cəlb edilməsində çətinlik çəkdiyim üçün sinfin ümumi vəziyyəti qənaətbəxş deyildi. Strategiyanı dəyişmək lazım olduğunu anlayırdım. Amma necə?*

*Sinfim üçün tədbir proqramları hazırladım. Nəzərimdə olan bütün şagirdlərə tədbirlərdə ən önəmli rolları tapşırdım. Nitq bacarığı, göz kontaktı zəif olan, utancaq şagirdlərimdən birinə aparıcı rolunu həvalə etdim. Dərsə davamiyyəti zəif olan və xəstəliyini bəhanə gətirən şagirdimə bir ssenaridə baş rolu tapşırdım. Musiqi bacarıqları olan şagirdlərimi də fəaliyyətə cəlb etdim. Şagirdlərimlə mütəmadi olaraq öz rollarını ifa etmələri üçün məşqlər keçirdim. Rolları ilk aldıqlarında böyük həyəcan keçirən bu şagirdlər tədbirlərdə bütün məktəb heyətini öz məharətləri ilə təəccübləndirdilər. Bu tədbirlərdən sonra sinfim məktəbin ən fəal və bacarıqlı sinifləri siyahısına daxil edildi.*

*Tədbirdən sonra nə baş verdi? Göz kontaktı və nitqi zəif olan şagirdimin ünsiyyət bacarıqaları inkişaf etdi. Davamiyyəti*

*zəif olan şagird məktəbə mütəmadi və vaxtında gəlməyə başladı, fənlərimi böyük həvəslə oxuyaraq sinfin qabaqcıl şagirdləri sırasına qoşuldu. Sinifdə müxtəlif sənətlərə həvəs artdı. Bu kimi fəaliyyətlər sayəsində şagirdlər öz bacarıqalrını kəşf edib gələcək peşələrini müəyyənləşdirdilər.*

*Beləliklə, sinfimlə birgə nail olduğumuz uğurlu nəticə yalnız şagirdlərin qazancı deyil, məktəb üçün də təcrübə oldu: şagirdlər məktəbdənkənar fəaliyyətlərə nə qədər çox cəlb edilərsə, məktəbə, fənnə maraqları daha çox artır.*

**Arqumentin 5 tipi**

Esse–mühakimə yazarkən siz nə haqqında müzakirə edəcəyinizi və tezisinizi müyyənləşdirdikdən sonra öz arqumentlərinizi necə verəcəyinizi düşünün. Sizin essenizin əsası ola biləcək arqumentlər müxtəlif formalarda ola bilər:

Fakt: Mühakimənin yanlış və ya doğru olduğunu sübut edir.

Tərif (anlayışın izahı): müzakirə etdiyiniz anlayışın lüğət tərifi və sizin şəxsi interpretasiyanızı ifadə edir.

Dəyər: müzakirə obyektinin əhəmiyyətini ifadə edir.

Səbəb və nəticə: essenizdə problem yaradan səbəbləri və onun nəticəsini əks etdirir.

Strategiya: oxucunun niyə həyəcanlanmalı olduğunu və problemdən çıxış yollarını izah edir.

**Arqumentləşdirmənin 3 əsas üsulu**

Mühakimə xarakterli esseni tərtib etməyin 3 əsas üsulu var. Onlardan bir variantı seçin və mühakimə xarakterli esse yazmaq üçün istifadə edin.

**Klassik**

Əsas arqumentinizi gətirin, öz fikrinizi izah edin və oxucunu mövqeyinizə inandırmaq üçün əlinizdən gələn hər şeyi edin. Aristotelsayağı adlanan bu üsul əsaslandırmanın ən tanınmış strategiyasıdır. Bu üsul oxucu auditoriyanız sizin mövzunuz haqqında çox məlumata  və ciddi fikrə  malik olmadığı halda səmərəlidir, çünki faktları aydın və qısa sadalayır.

**Rocersayağı**

Problemi təqdim edin, əks arqumentləri göstərin, öz mövqeyinizi açıqlayın və oxucu üçün sizin möövqeyinizin niyə daha faydalı olduğunu izah edin. Bu əsaslandırma üsulu mövzuya hərtərəfli baxmağa imkan verir, hər iki tərəfi işıqlandıır və qızıl ortanı tapmağa kömək edir.

**Tulmin**

Öz iddianızı irəli sürün, onun dəstəklənməsi üçün əsaslarınızı təqdim edin, sonra isə bu əsasların iddianızla bağlarını izah edin. Bu əsaslandırma tipi də mövzunu hərtərəfli işıqlandırmaq baxımından səmərəlidir, lakin hər iki tərəfi təqdim etməkdənsə, bir mövqeni işıqlandırır və faktlardan elə istifadə edir ki, mübahisə etmək çətin olur.

***QƏHRƏMANLIQ NƏDİR?***
***(şagird essesi)***

***Dəniz İsmayılova***
***VII sinif şagirdi***

*Mənim fikrimcə, dar ayaqda olanın, əzabçəkənin xilası, xalqının müdafiəsi üçün fikirləşmədən özünü qurban verən adama qəhrəman demək olar. İnsan hünərli ola bilər, igid ola bilər, bu xarakterik cəhətdir, amma bu,*

*hələ qəhrəmanlıq deyil. Qəhrəmanlıq nə isə çox yüksək bir hissdir. Bütün ömrü boyu qoçaq, mübariz adam kimi tanınanların təhlükənin qarşısında gerilədiyini çox eşitmişik. Amma ən yaxınlarının belə laqeyd, sakit, hətta bəzən çəkingən kimi tanıdığı adamlar olur ki, təhlükə zamanında bir an düşünmədən kimisə qurtarmaq üçün özünü fəda edir. Yəni insanın qəhrəman olub-olmaması bir anın məsələsidir.*

*Məsələn; "qoçu" sözü məndə də çoxumuz kimi, əksər vaxtlarda neqativ, hətta bəzən ironik assosiasiya yaradırdı. Uşaq vaxtımdan seyr etdiyim "O olmasın, bu olsun" filmindəki Qoçu Əsgərə çox gülmüşəm. Amma bilmirdim ki, onun prototipi Qoçu Nəcəfqulu əsl qəhrəman olub. Bakıda məşhur keçisiylə, özbaşına davranışıyla tanınan bu adam, yeri gələndə "saymazlıq" göstərdiyi xalqının yolunda ən böyük fədakarlıqlara qadir olmağı bacarıb.*

*Qoçu Nəcəfqulunun rəhbərliyi ilə 1918-ci il martın 30-u və 31-də Bakıda başlanan qırğınların qarşısının alınması və Bakı milyonçularının, başda millət atası Hacı Zeynalabdinin dəstəyi ilə şəhər əhalisinin silahlandırılmış müqaviməti təşkil edilib. Beş gün ərzində minlərlə erməni daşnak və rus bolşevikləri məhz bu qoçuların əzmi ilə məhv edilib. Bakı kəndləri və köhnə Bakı küçələri müzəffər Qafqaz-İslam Ordusunun şəhərə daxil olmasına qədər onların sayəsində əsl müqavimət ocağına çevrilib. Köhnə Sovetski, Qubanin ətrafları, Bazarnı küçəsi Bakı qoçularının sayəsində həmin günlər ermənilərin ən çox itki verdiyi ərazilər olub. Erməni daşnaklarının və rus bolşeviklərinin birləşmiş qoşunlarının hücumunun qarşısı Qoçu Nəcəfqulunun rəhbərliyi ilə yaradılmış "Maştağa dəstəsi" tərəfindən Maştağanın yaxınlığında yerləşən körpüdən bir qədər aşağıda, Zabrat yolunda alı-*

*nıb. Qafqaz-İslam Ordusu Bakı kəndlərinə daxil olandan sonra dəstə silahlı heyətini genişləndirərək "Maştağa qarnizonu" adını alıb və Bakı üzərinə həlledici hücum zamanı bu qarnizon böyük rəşadət göstərib. Nuru Paşa Qoçu Nəcəfqulunu göstərdiyi igidliklərə görə ordenlə təltif edib.*

*Lakin o, kommunist işğalından sonra bolşeviklər tərəfindən həbs edilib. 1920-ci ilin may ayının 28-dən 29-na keçən gecə saat 2:30-da Bayıl qazamatının iç həyətində mart qırğınları zamanı daşnak-bolşevik birləşmələrinə qarşı müqavimət təşkil etmiş 15 qoçu, o cümlədən də Nəcəfqulu güllələnib. Bu zaman onun cəmi 28 yaşı var idi...*

*Bu şəxs qəhrəman deyilmi? Biz yolumuzda canını fəda edib, şəhid olan oğullarımızı tanıyırıqmı? Ümumiyyətlə, qəhrəmanlıq anlayışını tam mənasıyla dərk edirikmi?*

*Mənim nəzərimdə Koroğlu dəliqanlılığın, hünərin, igidliyin simvoludur, bədii obrazdır. Onu qəhrəman kimi görürüksə, öz sinəsini güllə qarşısına verən, ehtiyacı olanlara qapısı həmişə açıq olan, millətini son nəfəsinə qədər qoruya bilən Qoçu Nəcəfqulu öz qiymətini almamış xalq qəhrəmanıdır.*

*Mənə elə gəlir ki, qəhrəmanlıq vəziyyətin yaratdığı psixoloji haldır. Onu əvvəlcədən bilmək olmur. Yaxşı bir məsəl var: "Sonunu düşünən qəhrəman olmaz"– deyiblər. Qəhrəmanlığı dərk etmək üçün düşüncə kifayət deyil, burada cəsarət və altruizm böyük iş görür. "Mən qəhrəman ola bilərəmmi?" sualının cavabını isə, məncə, hər birimizin həyatında ancaq vəziyyət təyin edə bilər.*

**KƏDƏR HAQQINDA**
**(ədəbi-fəlsəfi esse)**
**Mişel Monten**

*Bütün dünya sözləşiblmiş kimi, xüsusi diqqətə alsa da, mən bu hissə ən az qapılan insanlardanam. Ona geyindirdikləri müdriklik, xeyirxahlıq və vicdan donu əcaib, dəhşətli görünüşdədir! İtalyanlar hiyləgərlik və qəddarlığı bu kəlməylə daha uğurlu şəkildə ifadə etmişdirlər. Çünki hər zaman zərər gətirən bu hiss şüursuzdur, həmçininn xırdaçı və dəyişməzdir. Stoiklər müdriklərə bu hissə qapılmağı yaraşdırmırlar.*

*Misir çarı Psammenit haqqında belə rəvayət edilir ki, fars çarına məğlub olduqdan sonra əsir düşmüş qızını qul paltarında su ardınca göndərildiyini görür. Yanında dayanmış bütün dostları həmin dəqiqə hönkürüb ağlamış və zarımışdılar, o özü isə inanılmaz dərəcədə təmkinli qalmış, nəzərlərini yerə dikərək bir kəlmə söz söyləməmiş, həmçinin bu sakitliyini oğlu edama aparıldığı zaman da saxlamışdır. Önündə qovularaq keçən əsirlərin içində öz silahdaşlarından birini görəndə isə o, başına döyməyə başlamış və kədərini ifadə etmişdir.*

*Bunu yaxın zamanda bizim zadəganlardan birinin başına gələnlər ilə müqayisə etmək olar. Triyentdə olduğu zaman o, bütün nəslinin fəxri və arxası olan böyük qardaşının vəfatı haqqında məlumat alır. Müəyyən müddətdən sonra həmçinin ümid yeri olan kiçik qardaşının da ölümündən xəbər tutur. Bu iki zərbəni nümunəvi möhkəmliklə qarşıladıqdan sonra yaxınlarından biri öldüyü zaman bədbəxtlik onu sındıra bildi, mənəvi möhkəmliyini itirərək qəmə və qüssəyə təslim oldu. Və bu, belə düşünməyə əsas verir ki, sanki canlı olduğunu sonuncu zərbəni aldıqda xa-*

*tırladı. Lakin həqiqətdə isə bu ona görə baş verdi ki, kədər üçün bir neçə göz yaşı damlası da bəs edərdi ki, onun səbirini daşırsın.*

*Psimmenit Kambizin də oğlunun və qızının faciəsinə səbirlə dözdüyü halda dostlarının birinin başına gələn faciəni ürəyinə daha yaxın tutması görüntüsünü də heç bir əlavə etmədən bu şəkildə izah etmək mümkündür. Psammenit demişdir: "Mənə dəyən ilk iki zərbəni ifadə edə biləcək üsul olmadığı üçün bu sonuncu kədər gözümdən axa bildi".*

*Burada qədim rəssamın fəndini xatırlamaq yerinə düşər ki, o, İfiqeniyanın edamını izləyənlərin hər birini bu günahsız və cazibədar qızın ölümündən necə təsirləndiklərini təsvir etmişdirsə də, atasına gəlincə, onun kədərinin ifadəsinin mümkün olmadığını nəzərə çarpdırmaq üçün üzünü qapalı göstərərək öz istedadının imkanlarının son həddini nümayiş ettirməyə nail olmuşdur. Şairlərin bədəxt Niobeya ananın əvvəlcə yeddi oğlunu, sonra isə qızlarını itirərək nəticədə sərt qayaya dönməsi düşüncəsini yaratmaları da bunun ifadəsidir.*

*Onlar bu obrazları bədbəxtliklərin bizim gücümüzü işğal edərək üzərimizdə hökm etdiyi vəziyyətimizdə tutqun, lal və kar hislərimizi ifadə etmək üçün yaratmışdırlar.*

*Və həqiqətən, həddindən artıq iztirab gözə görünmədən ruhumzu bürüyür, yeni təəssüratlar altında özümüzü iflic olmuş vəziyyətdə hiss edirik. Müəyyən müddətdən sonra isə göz yaşı və şikayətlərlə yoluxub ruhumuzun qandalları necə atdığını, doğrulub özünü yüngül və azad hiss etdiyini görürük.*

*{Və nəhayət, qüssə çətinliklə səsin yolunu açdı.)*

*Korol Ferdinandın Venqriya korolu İohanın dul qadını ile Bdev uğrunda apardığı müharibədə alman hərbçisi Reyşax hər kəsin gözü önündə böyük şücaətlə döyüşən atlının cəsədi gətiri-*

*lərkən hamı ilə bərabər bu atlının kimliyinə maraq göstərərək təəssüfləndiyi anda atlının dəbilqəsi çıxarıldıqda məlum oldu ki, bu, onun öz oğluymuş. Bu zaman onun ətrafındakı hər kəsin ağladığı anda tək o, bir kəlmə söz söyləmədi. Bir damla yaş axıtmamış, bütün bədəni boyunca dikələrək orada dayananlarla bərabər durub nəzərləri ölü bədənə dikili qalmış, kədərin gücü həyat hissini donduraraq onu yerə düşməyə qoymamışdı..*

*{Yandığını təsvir edə bilənlər zəif atəşlə yanır.}*

*Sevgiliər ehtirasın iztirablarını təsvir etməyə çalışaraq danışırlar:*

*(Təəssüf ki, sevgi məni bütün hislərimdən məhrum edib. Lesbiya, səni görmək yetər ki, mən şüurumu itirəm, nə isə söyləyə bilməyəm. Mənim dilim quruyur, zərif atəş bütün bədənimə yayılır, qulaqlarım öz-özünə küylə qapanır və gözlərim qaralır).*

*Beləliklə, bizi canlı və yandırıcı ehtiras bürüyəndə şikayət etmək və yalvarmaq iqtidarında olmuruq, bizim ruhumuz dərin fikirlərlə ağırlaşır, cismimiz isə heysizləşir və sevgidən iztirab çəkir.*

*Bu dəfə də burada gözlənilməz mümkünsüzlük ləzzətin ən qaynar çağında hədsiz çılğınlıq səbəbindən sevgililərin vücudunu vaxtsız bürüyən buz soyuqluğu şəklində təzahür edir. Sezdirmə və düşüncəyə yer qoymuş hər cür ehtiras güclü ehtiras deyil.*

*{Yalnız kiçik qüssə danışır, böyüklər laldır.)*

*Gözlənilməz sevinc və ya məmnunluq da hissizləşdirir bizi.*

*{Elə ki, o mənim gəldiyimi gördü və heyrət içində gördü ki, ətrafımda troya döyüşçüləri var, böyük möcüzədən dəhşətə gələrək dondu, həyat atəşi onun sümüklərini tərk etdi, o yıxıldı və uzun müddətdən sonra özünə gəldi.)*

*Kanna ətrafındakı məğlubiyyətdən sonra sağ qalaraq dönən oğlunu görərkən gözlənilməz sevincdən ölən o rumlu qadından başqa, sevincdən ölən Sofokl və tiran Dionisdən başqa, nəhayət, Roma senatının təltifi haqqındakı məktubu oxuyaraq Korsika adasında ölən Talvadan başqa, bizim əsrə aid nümunələri də göstərə bilərik: belə ki, səbirsizliklə gözlədiyi Milan işğalının elanını eşidən Papa X Lev qızdırmaya yaxalandı və tezliklə öldü. İnsanın boşluğunun daha tutarlı misalını gətirmək üçün qədimdən qeyd edilmiş bir hadisəni göstərəcəyik: məhz Diodor dialektik elmi mübahisədə ona qarşı qoyulmuş arqumentə cavab verə bilmədiyi üçün tələbələri və dinləyicilər önündə dərin xəcalətdən ölmüşdür..*

*Mənə gəlincə, mən iztirabın şiddətinə çox da həssas deyiləm. Məni fikrimdən yayındırmaq asan deyil, təbiətim belədir, daimi təfəkkür sayəsində günbəgün daha çox bərkiyirəm, sərtləşirəm.*

| Esse üçün ən çox verilən tapşırıq formaları | |
|---|---|
| **Müqayisə edin** | İki və daha çox obyekti, fikri, şəxsi və s. təhlil edin, oxşarlıq və fərqli cəhətlərini müəyyən edin. |
| **Səciyyələndirin** | Predmeti fərqli xüsusiyyətlərinə görə səciyyələndirin.<br>Uyğun tapşırıqlar: "fərqləri müəyyən edin", "fərqləri səciyyələndirin". |
| **Tənqidi yanaşın** | Dəyərləndirin: müsbət cəhətlərini və qüsurlarını mühakimə edin.<br>Uyğun tapşırıq: "tənqidi yanaşaraq dəyərləndirin". |
| **Müəyyən edin** | Məğzini və ya mövcud xüsusiyyətlərini izah edin. |
| **Təsvir edin** | Xarici görünüşü, mahiyyəti, əlamətləri və s. haqqında informasiya verin. |
| **Mühakimə edin** | Arqument, şərhlərdən istifadə edərək təhil edin, fikirlərinizi yürüdün və s.: mübahisə edin: problemin həlli variantlarını nəzərdən keçirin. |
| **Sadalayın** | Müxtəlif hadisə, əşya, təsvir, ideyaları və s. sadalayın. |

| | |
|---|---|
| **Qiymətləndirin** | İdeya, şərhlərin və s. dəyərini qiymətləndirin və öz yanaşmanızı əsaslandırın. |
| **İzah edin** | Hər hansı bir obyektin mahiyyətini aydın, sadə, ağlabatan formada izah edin. |
| **İllüstrasiyalaşdırın** | Mövzunu açmaq üçün xüsusi nümunələr və ya analogiyalardan istifadə edin. |
| **İnterpretasiya edin** | Parafraz, tərcümə və ya şərhlərdən istifadə edərək öz fikrinizin əsasında hər hansı bir predmetin mahiyyətini izah edin. |
| **Əsaslandırın** | Hökmü və ya qənaəti müdafiə edin. Uyğun tapşırıq: "nəzər nöqtəsini təsdiq edin". |
| **Danışın** | Müəyyən hadisələr haqqında xronoloji ardıcıllıqla təfərrüatlı danışın. Bənzər tapşırıq: "təsvir edin", amma zamanın müxtəlif anlarında hadisənin gedişatını "danışmaq" nəzərdə tutulur. |
| **Qısa təsvir edin** | Yalnız ən mühüm xüsusiyyətlərini ümumi olaraq əks etdirməklə kitab, mövzu və ya layihəni təsvir edin. |

| | |
|---|---|
| **Sübut edin** | Sübut və arqumentlərin həqiqiliyini və davamlılığını təmin edin.<br>Uyğun tapşırıq: "göstərin", "səbəbini izah edin", "nümayiş etdirin". |
| **Uyğunlaşdırın** | Bir-biri ilə əlaqələndirərək hadisə və ya vəziyyələri təsvir edin. |
| **Nəzərdən keçirin** | Mövzu, hadisə, ideyanı ümumi olaraq tənqidi analiz elementlərindən istifadə edərək təsvir edin. |
| **Təqdim edin** | Faktları lakonik və aydın formada təqdim edin.<br>Uyğun tapşırıqlar: "adlarını çəkin", "göstərin", "sıralayın", müəyyən edin", "sitat gətirin". |
| **Qısa təqdim edin** | Nümunə və təfərrüatlara yol vermədən faktları qısa şəkildə təqdim edin. |
| **İzləyin** | İdeya, hadisələrin təzahür prosesini və ya tarixini təsvir edin. |

**Mənbə:** Рон Фрай. Как писать? Все про доклады, рефераты, курсовые и сочинения. Москва, 2017

# IV FƏSİL

# MƏTN TƏRTİBİNDƏ SƏMƏRƏLI ÜSULLAR

## SİNKVEYN

Sinkveyn tədris metodu olaraq universal xarakter daşıyır. Onu müxtəlif fənn proqramlarının mövzularına tətbiq etmək olar. Bu metod şagirdləri maraqlandırmağa, öyrənilən materialı daha yaxşı anlamağa və mühakimə yürütməyə, esse yazı işində məzmunu yığcam şəkildə əks etdirməyə kömək edir. Beş sətirlik şeir olan sinkveyni yazmaq asan olduğu üçün onun bütün siniflərdə tətbiqi mümkündür.

Sinkveyn – məlum olan və ya yeni əldə edilmiş məlumatların analizi və sintezi nəticəsində yazılan öyrədici şeirdir.

Təlim prosesində sinkveyndən müxtəlif məqsədlərlə istifadə olunur:

1. Dərsin giriş hissəsində şagirdləri yeni mövzu ilə tanış edərkən;

Şagirdlər təklif olunmuş mövzu üzrə təsəvvürlərini əks etdirən şeir tərtib edirlər. Bu, müəllimə şagirdlərin mövzu ilə tanışlıq dərəcəsini müəyyənləşdirməyə imkan verir. Sonra isə o, yeni məlumatlarla materialın daha doğru mənimsənilməsini təmin edir.

2. Məlumatların müzakirəsi mərhələsində;

Bu mərhələdə sinkveyn tərtib etmək müəllimə şagirdlərin öyrənilən mövzunu necə anladıqlarını təhlil etməyə imkan verir. Dərsi daha maraqlı edir, çünki sinkveyn həm də əyləndirici metoddur.

3. Refleksiya mərhələsində;

Fikirlərin yığcam şəkildə açar sözlər və açar cümlə ilə ifadəsi müəllimə şagirdin öyrənilən materialı mənimsəmə səviyyəsini müəyyənləşdirməyə imkan verir. Sinkveyn refleksiyanın sürətli və güclü alətidir.

4. Yazı işinin təşklilində;

Azərbaycan dili və ədəbiyyat dərslərində müəyyən bədii əsərin təhlili ilə bağlı essenin yazılmasında, hekayə quruculuğunda, ifadə yazı işi zamanı qeydlərin aparılmasında sinkveyndən istifadə etmək olar.

5. Sinkveyndən bütün fənlərin tədrisində istifadə etmək olar;

Sinkveynin tərtibi yaradıcı fəaliyyətdir və çox zaman humanitar fənlərin öyrənilməsində tətbiq edilir. Lakin təlim prosesini zənginləşdirmək, daha maraqlı və interaktiv etmək üçün texniki və təbiət fənlərində də bu metodu tətbiq etmək olar.

**Ədəbiyyat fənni üzrə**

"Qarğa və tülkü" əsərinin obrazlarının xarakterini açan sinkveynlər:

*Qarğa.*
*Ağılsız, müştəbeh*
*inanır, aldanır, uduzur.*

*Tərif qarğaya xoş gəlir.*
*Sadəlövhlük.*

*Tülkü.*
*Bic, fəndgir.*
*Yaltaqlanır, aldadır, qazanır.*
*İstədiyini əldə edə bilir.*
*Hiyləgərlik.*

**Azərbaycan dili fənni üzrə**
*Nitq.*
*Ardıcıl, məntiqli;*
*Düşündürür, ümumiləşdirir, ifadə edir.*
*"Danış, mən səni görüm".*
*Mətn.*

*Yazı.*
*Maraqlı, heyrətamiz.*
*Təəccübləndirir, düşündürür, sevdirir.*
*Yazı - insanın özünüifadə vasitəsidir.*
*Yaradıcılıq.*

## Sinkveyn əsasında şagird essesi

***SİNKVEYN***
***Turqut Nəhmətli***
***7-ci sinif şagirdi***

*Sinkveyn.*
*Obrazlı, qısa.*
*Düşündürür, aydınlaşdırır, izah edir.*
*"Az söylə, söz söylə".*
*Mühakimə.*

*Sinkveyn mövzunu oxucuya yığcam şəkildə çatdıran üsuldur. Bəs sinkveyni yığcamlaşdıran nədir və sinkveyn digər üsullardan nə ilə fərqlənir?*

*Sinkveyndə mövzu oxucuya obrazlı çatdırılır, həmçinin fikirlər qısa və yığcam şəkildə ifadə edilir. Buna görə də sinkveyndə digər üsüllardan fərqli olaraq sözün səmərəli istifadə edilməsi böyük əhəmiyyət kəsb edir. "Səmərəli istifadə" dedikdə isə mövzunun oxucuya qısa və konkret olaraq çatdırılması nəzərdə tutulur.*

*Sinkveyn mövzunu nə qədər konkret çatdırırsa, oxucunu o qədər də düşünməyə və üzərində düşündüyü məqamları aydınlaşdırmağa sövq edir.*

*Sinkveyn üsulu "az söylə, söz söylə" fikrini öz "fəlsəfəsi" kimi qəbul edir. Dahi sənətkar Nizami Gəncəvinin dediyi kimi:*

*"Sözün də su kimi lətafəti var,*
*hər sözü az demək daha xoş olar."*

*Sinkveyn az sözlə dərin mühakimədir.*

## MƏNTİQİ TƏFƏKKÜRÜ İNKİŞAF ETDİRMƏYİN QISA YOLU - MİNN

**MİNN –** şagirdlərin refleksiya və mühakimə qabiliyyətini formalaşdırmaq üçün səmərəli və optimallığına görə əvəzedilməz üsuldur. Bu interaktiv üsul Cənubi Afrikalı, hüquq üzrə professor Devid Makkoyd-Meyson tərəfindən yaradılmışdır.

İngiliscə belə yazılır: PRES – Position – Reason – Explanation or Example-Summary. Rus dilinə isə POPS – (Позиция – Обоснование – Примеры - Следствие) kimi tərcümə olunur. Bu texnoloji üsulun əhəmiyyəti ondadır ki, hər hansı mövzuyla bağlı qısa zaman çərçivsində dörd-beş cümlə ilə ətraflı şəkildə şagirdlərə öz mövqelərini bildirmək imkanı verir.

Müəllim dərsin sonunda öyrənilən materialın şagirdlər tərəfindən nə qədər keyfiyyətli mənimsənildiyini yoxlamalıdır. Suallar, sərbəst işlər, testlər bunun üçün ya çox vaxt tələb edir, ya da şagirdin materialı hansı səviyyədə mənimsədiyini müəyyənləşdirməyə imkan vermir. Bu zaman şagirdlərə MİNN formulunun dörd məqamını əks etdirən dörd cümlə yazmaq təklif edilir:

**M** – Mövqe

**İ** – İzah

**N** – Nümunə

**N –** Nəticə

Əgər mətnin yazılması üçün şagirdə struktur təklif edilməsə, bunu texnoloji üsul adlandırmaq olmaz. Bunun

üçün də şagirdlərin MİNN-in strukturu ilə tanış edilməsi vacibdir.

**MİNN-in strukturu**

Birinci cümlə (məsələyə öz münasibətini bildirir): *«Mən düşünürəm ki, .....».*

İkinci cümlə (mövqeyinin səbəbini izah edir): ***"Çünki...."***

Üçüncü cümlə (mövqeyinin doğrulunu sübut etmək üçün faktlara, sitatalara, şəxsi təcrübəsinə və s. istinad edir):

***"Mən bunu ................................................... nümunələrlə isbat edə bilərəm".***

Dördüncü cümlə (fikirlərini ümumiləşdirir, qənaətini bir cümlə ilə ifadə edir): ***"Bundan çıxış edərək belə qənaətə gəlirəm ki, ..................."***

Beləliklə, müəllim az müddət ərzində şagirdlərin mövzunu qavramasının, faktların, təzahürlərin, hadisələrin dəyərləndirməsi səviyyəsini öyrənmək üçün imkan qazanır.

MİNN üsulu debat və müzakrələrin aparılmasında da istifadə edilir.

MİNN şifahi mühakimə üsulu kimi tətbiq olunmaqla yanaşı, yazı işinin təşkilində də əvəzolunmaz texnologiyadır.

**MİNN formulu – mühakimə xarakterli essenin sxemidir.** Tədris prosesində bu üsulun tətbiqi vasitəsilə esse yazı işinin alqoritmi daha səmərəli və tez mənimsəniləcək. MİNM yuxarı sinif şagirdlərinin esse yazı işinə hazırlaşması prosesində ən səmərəli üsuldur. Çünki essenin strukturunun əsasında MİNM-in strukturu durur.

| **Essenin strukturu** | **MİNN formulu** | Şablon |
|---|---|---|
| 1. Mövzunun məğinin açıqlanması (tezisin verilməsi); | **M – Mövqe** (Sizin mövqeyiniz nədən ibarətdir?). | Mən düşünürəm ki, .... |
| 2. Müəllif mövqeyinin səbəbi və arqumentləşdirilməsi (mövzunun nəzəri əsaslarına və əsas anlayışlarına, tarixi faktlar, müasir ictimai həyat, şəxsi təcrübələrə əsaslanaraq); | **İ - İzah** (Niyə belə düşünürsünüz? Düşüncənizə səbəb olan amilləri göstərirsiniz.) | Çünki… |
| 3. Mühakimələrin və arqumentlərin səviyyəsi (ictimai anlayışlarla və terminlərlə ifadə olunan biliklərə, ümuniləşdirilmiş qənaətlərə, əsaslanaraq) və ya məişət təfəkkürünün səviyyəsi (gündəlik həyatda formalaşmış təsəvvürlərə əsaslanaraq); | **N – Nümunə** (Səbəbləri əks etdirən faktları sadalayırsınız) | Məsələn. … … |

| | | |
|---|---|---|
| 4. Fikirlərin ümumiləşdirilməsi (tezisdə qoyulan problemin həlli yolunun göstərilməsi və ya girişdə qoyulmuş suala cavab verməklə). | **N – Nəticə** (Mövqeyinizin dəqiq ifadə olunması üçün qənaətinizi açıqlayırsınız). | Belə nəticəyə gəlirəm ki, .... |
| Esse = MİNN | | |

**MİNN üsulunun praktikada istifadəsindən nümunə**

**J.Joresin deyimi haqqında esse**

***«İnqilab – inkişafın barbar üsuludur»***
***J.Jores***

(Esse MİNN əsasında yazılmışdır)

*Mən J.Joreslə razılaşıram. Zorakılığa və öz xalqı üçün faciəli aqibətlərə əsaslanmış ictimai inkişaflar sivil ola bilməz.*

*Çünki ilk növbədə, tarixin təbii davamı pozulur. İkincisi, inqilablar dəhşətli ölümlərə səbəb olur, xalqları vətəndaş müharibəsinə sövq edir, taleləri qırır, çox zaman da bir neçə günə yekunlaşmır.*

*Nümunə olaraq, Böyük Fransız inqilabının nəticəsində beş illik hakimiyyəti və Rusiyada Oktyabr inqilabının sayəsində yetmiş iki illik rejim altında insanların həyatını düşünmək kifayətdir. Həmçinin inqilab dövrünün "kəşf"ləri və metodları da – saysız-hesabsız olaraq insanların həyatını əlindən almış gilyotinlər, repressiyalar da unudulmazdır. İstənilən inqilabın nəticə-*

*sində nə zamansa cəmiyyət yenidən öz inkişafında geriyə - zorən qoparıldığı dövrə dönmüş olur.*

*Buna görə də Jores qeydsiz və şərtsiz haqlıdır. İnsanlıq öz inkişafı üçün təkamül yolunu seçməlidir. Zorakı yolla sosial inkişaf isə demokratiya və sülh uğrunda yaşayan cəmiyyətə deyil, barbarlara məxsusdur.*

***İNKLÜZİV TƏHSİL***
***(müəllim essesi)***

**MİNN əsasında esse nümunəsi**

**MİNN**

I Mən hesab edirəm ki, inklüziv təhsilə keçid müəllimin fəliyyətinə çətinlik gətirəcək.

II Çünki atipik uşaqlarla işləmək müəllimdən xüsusi yanaşma, əlavə diqqət, vaxt, səbir, bacarıq tələb edir. Həm də başqa uşaqların valideynləri şikayət edərək narazılıqlarını bildirirlər.

III Mən bunu öz təcrübəm əsasında sübut edə bilərəm.

IV Bundan çıxış edərək mən bu nəticəyə gəlirəm ki, belə uşaqların ictimaiyyətə buraxılması hələ tezdir.

*Yaşadığımız bu problemlərlə dolu həyatda müəllimlərin qarşısında bir çox çətinliklər durur. Şagirdlərlə işləmək, onları qaranlıqdan işıqlığa, aydınlığa çıxarmaq biz müəllimlərin ən ümdə vəzifəsi, borcudur. Bu gün artıq cəmiyyətimiz və təhsilimiz Avropa mədəniyyətinə, təhsilinə inteqrasiya edir. Hazırda xüsusi qayğıya ehtiyacı olan uşaqların ictimaiyyətə buraxılması gündəmə gəlmişdir. Fikrimcə, bu keçid təhsilin keyfiyyətində çətinliklər yaradacaq. Atipik uşaqlarla işləmək müəllimdən əlavə diqqət, vaxt , bacarıq tələb edir. Lakin problem bununla bitmir.*

*Şagirdlərimdən biri belə uşaqlardan idi. Uzun illərdən sonra doğulmuş, ailənin "çox əzizlənmiş", tək və qüsurlu övladı olan şagirdim sinif yoldaşlarına qarşı aqressiv münasibət bəsləyirdi. Valideyni isə övladı haqqında yüksək fikirdə idi. Oğlunun qüsurlarını nəzərə almayan ana onun mütləq dərs əlaçısı olmasını tələb edirdi.*

*Şagirdin zəif yaddaşı və qavrama qabiliyyəti, tamamilə yox dərəcəsində olan oxu və yazısı, qüsurlu nitqi onun irəliləməsinə imkan yaratmırdı. Böyrək çatışmazlığından əziyyət çəkdiyinə görə tez -tez bayıra çıxmağa icazə istəyirdi. Bu da birinci sinif şagirdlərinin diqqətinin yayınmasına səbəb olurdu. Sinif şagirdlərinin və valideynlərin mütəmadi narazılıqlarına gətirib çıxaran bu hərəkətlərin müəllim tərəfindən tənzimlənə bilməməsi sübut edir ki, cəmiyyətimiz hələ inklüziv təhsilin tətbiqinə hazır deyil. Bunun üçün bizə zaman lazımdır.*

**Nümunə 2**

***Empatiya quraq***
***(müəllim essesi)***
***Qurbanova Kəmalə***

**MİNM**

• Mən hesab edirəm ki, inklüziv təhsil sinfə xüsusi hazırlıq keçmiş yardımçı müəllim təyin edilərsə, müəllim fəaliyyətinə mənfi təsir göstərməyəcək.

• Çünki əlilliyi olan uşaqların çox diqqət tələb etməsi sinfi idarə olunması istiqamətində müəllimə köməyin vacibliyini şərtləndirir.

• Mən bunu öz təcrübəmdə görməsəm də, eşitdiyim faktlardan çıxış edərək sübut edə bilərəm.

• Bundan çıxış edərək mən bu nəticəyə gəlirəm ki, inklüziv təhsil sinfə yalnız xüsusi hazırlıq keçmiş yardımçı müəllim təyin edilərsə, müəllim fəaliyyətinə mənfi təsir göstərməyəcək.

*Hər kəsin taleyi eyni olmur. Biz tez-tez əlilliyi olan insanlarla rastlaşırıq. Belə insanlar cəmiyyətə adaptasia olmaqda çətinlik çəkir. Düşünürəm ki, əlilliyi olan insanların həyatda öz yerini tutması və cəmiyyətə adaptasiası üçün erkən yaşlarından təhsilinə xüsusi diqqət ayırmaq lazımdır.*

*Heç kəsə sirr deyil ki, belə insanlar bir qədər çəkingən olur. Ona görə də əlilliyi olanların təhsilinin sağlam şagirdlərlə birgə aparılması məqsədəuyğun olar. Lakin, bu işi aparmaq üçün xüsusi hazırlıq keçmiş yardımçı müəllimlər siniflərə təhkim olunmalıdır. Çünki əlilliyi olan uşaqlara daha çox diqqət və nəzarət tələb lazımdır. Bu isə digər şagirdlərdə nəzərdə tutulan nəticəni əldə etməkdə və müəllimin fəaliyyətində çətinlik yaradacaq.*

*Mən bunu öz təcrübəmdə görməsəm də, yaxından tanıdığım müəllimin təcrübəsini nümunə gətirərək sübut edə bilərəm. Aşağı ətraflarında problem olan uşaq öz həvəsi və valideynlərinin xahişi ilə ona dərs deyən müəllimlə birgə həftədə iki dəfə tipik şagirdlərlə birgə sinifdə əyləşirdi. Bu uşağın müalicəsinə və ətrafdakılarla ünsiyyətinə xeyli müsbət təsir göstərmişdi.*

*Bir gün dərsarası fasilədə müəlliminin diqqətinin bir qədər yayınması nəticəsində sağlamlıq məhdudiyyəti olan şagird həyat təhlükəsi ilə üzləşdi. Həm uşaq, həm müəllimi, həm də valideynləri bu hadisədən xeyli həyəcan keçirdi və bir müddət məktəbə gəlmədi. Lakin, bir müddətdən sonra o, iradəsini nümayiş etdirərək öz istəyi ilə yenidən məktəbə gəlməyə davam etdi.*

*Düşünürəm ki, əlilliyi olan uşaqları cəmiyyətdən təcrid etmək olmaz. Çünki inklüziv təhsil əlilliyi olan uşaqların cəmiyyətə adaptasia olunmasına, digər uşaqlarda isə mərhəmət, qayğıkeşlik, sevgi, yardımlaşma kimi nəcib hisləri formalaşmasına köməklik edəcək.*

*Bundan belə nəticəyə gəlmək olar ki, əgər sinfə xüsusi hazırlıq keçmiş yardımçı müəllim sinfə təhkim olunarsa, inklüziv təhsili reallaşdırmaq mümkündür. Müəllim fəaliyyətinə də mənfi təsir göstərməyəcək. Əksinə, onun özünü fərqli istiqamətdə inkişafına səbəb olacaq.*

*Gəlin, inklüziv təhsilə qarşı çıxmazdan əvvəl empatiya quraq. Biz özümüz və ya ailəmizdən biri əlilliyi olan şəxs olsaydı, bəs onda necə? Unutmayaq ki, bütün insanlar bərabərhüquqludur.*

## TASA – TƏHLİL
## (Oxuyub-anlama üsulu)

Esse sərbəst yaradıcı yazıdır, lakin şagird mətn əsasında esse yazmaq tapşırıqları ilə də qarşılaşır. Mətn əsasında esse yazmaq şagirddən yüksək səviyyədə oxuyub anlama bacarıqları tələb edir. Müəllim şagirdlərə belə bir tapşırıq verməzdən öncə şagirdlərlə oxuduqları mətni təhlil etməlidir. Mətn təhlilini həyata keçirmək üçün səmərəli üsullardan biri TASA-təhlildir.

Oxuyub-anlama üzrə metodik üsullardan biri TASA – təhlildir. TASA – "Tezis – Təhlil – Sintez – Açar" sözlərinin abreviaturasıdır. Bu üsulun funksiyası mətnin müxtəlif məqamları üzərində sərbəst düşünməyə kömək etməkdir.

Bu üsul oxu zamanı üzərində düşünüləcək on ardıcıl sualı əhatə edən cədvəlin tərtibi və tətbiqindən ibarətdir. Cədvəldə öz əksini tapan suallara mümkün qədər rasional cavab vermək tələb olunur. Burada biz hər hansı bir mətnin tezis və antitezislərinin çıxarılması bacarığı ilə qarşılaşırıq.

| **Sual** | **Cavab** |
|---|---|
| 1. Hansı mövzu müzakirə edilir? | |
| 2. Mətndə əsas fikir nədən ibarətdir? | |
| 3. Ehtimallarınızı irəli sürün: verilmiş fikrin təsdiq və ya inkarı üçün tərəf-müqabiliniz (müəllif) nə söyləyə bilərdi? | |
| 4. Əsas fikir və onun təkzibi nəyi dəstəkləyir? Sübutlarınızı ayrı-ayrı xanalarda sadalayın. | |
| 5. Mətndə anlaşılmaz, çətin, yeni söz və ifadələr işlənibmi? Əgər cavabınız təsdiqdədirsə, həmin sözləri müəyyənləşdirin və izah edin. | |
| 6. Əsas fikrin müdafiəsi və təkzibinin qiymətləndirməsini aparın. Mübahisəli nəticələri, diqqətdən kənarda qalan məqamları, yanlış nəticələri və digər zəif hissələri müəyyənləşdirin, | |
| 7. Əsas fikirdə və ya onun sübutlarında boşluqlar, dəyərlərin vurğulanması və ya ideoloji | |

| | |
|---|---|
| təsir görürsünüzmü? Onları tapın və fikrin obyektivliyinə təsirinin dərəcəsini müəyyənləşdirin. | |
| 8. Əsas tezis mübahisəlidirmi və ya müdafiə üçün uyğundurmu, yaxud uyğun deyil, mürəkkəbliyinə görə anlaşılmaz deyil ki? | |
| 9. Nitqinizi ardıcıllığa uyğun qurun:<br>Baxmayaraq ki, ....(müəllifin əsas fikri), ...(sizin nəzər nöqtəniz), çünki ... (müəllifin fikrinin obyektivliyinə inanmamağa əsas verən səbəblər).<br>Yaxud:<br>Müəllifə görə, .....(müəllifin əsas fikri), həqiqətən, .... (sizin nəzər nöqtəniz), çünki.... (müəllifin fikrinin obyektivliyinə inanmağa əsas verən səbəblər). | |
| 10. Lazım olarsa, əsas fikrinizi bir daha nəzərdən keçirin və TASA-nın bütün mərhələlərini təkrar edin. | |

Təklif edilən üsul şagirdi mətnə həm oxucu, həm də həmmüəllif simasında yanaşmağa sövq edir ki, bu, ona oxuyub-anlama və sübutlarla iş arasında əlaqəni qurmağa kömək edir. Bundan başqa, TASA oxucunun əsərdəki dəyərlər və fikirlərə xoşməramlı, lakin tənqidi münasibtini formalaşdırır.

TASA-dan istifadə şagirdlərin öxuma və oxuduqlarını qiymətləndirmə bacarığını əhəmiyyətli dərəcədə inkişaf

etdirir. Bu isə qrup müzakirəsinə hazırlaşarkən mətndə zəif yerləri aşkarlamaq, material çatışmazlığını müyəyn-ləşdirmək, yanlış mülahizələr, əsassız istinadlar üzərində işləyərkən özünü aydın şəkildə göstərir. Bununla da, öyrə-nənlərdə sübut etmə bacarığını formalaşdırır.

## İKİHİSSƏLİ GÜNDƏLİYİN MÖVZUNUN TƏHLİLİNDƏ ROLU

İkihissəli gündəlik – yazılı nitqi inkişaf etdirən pedaqoji üsuldur, mətn əsasında esse yazı işinin aparılmasında sə-mərəlidir.

Mətni araşdırmağa, oxucunun informasiyaları öz təcrü-bəsi ilə əlaqələndirməklə qavradığını yazılı şəkildə ifadə etməyinə şərait yaradır.

Məqsədi:

- öyrənilən mövzuya maraq yaratmaq;
- yazılı nitqi inkişaf etdirməkdir.

**Üsulun mərhələli təsviri**

Şagirdlərə öncədən müəyyənləşdirilmiş oxu materialı təqdim edilir.

Hamının mətnlə tanış olduğuna əmin olduqdan sonra dəftər vərəqinin şaquli istiqamətdə iki hissəyə ayrılması xahiş olunur.

Sonra şagirdlərdən sol hissəyə əsərdən bəyəndikləri və ya bəyənmədikləri sitatları (ideya, fikir) sol hissəyə yaz-maları istənilir.

Sağ tərəfdə isə həmin sitatlara şərhlər yazaraq öz seçim-lərini və mətndən çıxardıqları nəticəni əsaslandırırlar.

Bu mərhələdə şagirdlərə könüllü olaraq seçdikləri sitatları və onlara verdikləri şərhləri oxumaq təklif olunur. Fikirlərlə tanışlıq prosesində müəllim sual verə bilər, yaxud öz variantını təklif edə bilər, digər alternativləri istəyə bilər.

Növbəti mərhələdə şagirdlər cütlərə və ya kiçik qruplara ayrılaraq eşitdiklərini müzakrə edə bilərlər və yoldaşlarının işində bəyəndiklərini və ya razılaşmadıqları fikirləri qeyd edə bilərlər.

Müəllimə tövsiyə:

Siz öncədən mətnin həcmindən asılı olaraq sitatları (2-3 sitat) seçə bilərsiniz.

Mətni mütləq şəkildə məktəb proqramına uyğun seçmək lazımdr.

Şagirdlərə öz mühakimələrini (müzakirədən sonra) esse şəklində ifadə etməyi təklif etmək olar.

**Üsulun tətbiqi üzrə tapşırıq**

***Mətni oxuyun və ikihissəli gündəliyin müvafiq sütunlarını doldurun.***

## Nizami Gəncəvi. "Leyli və Məcnun"
## Kitabın yazılmasının səbəbi
## *(ixtisarla)*

| | |
|---|---|
| *Bir gün nəşəliydim, aləm şad kimi,<br>Dəmlər içindəydim Keyqubad kimi.<br>Qaşlarım açıqdı, sanki bir kaman,<br>Qarşımda dururdu yazdığım divan.<br>Bayraq qaldırmışdım söz zirvəsinə,<br>Hünər lövhəsini yazırdım yenə.<br>Qəlbim deyirdi ki, söz əməyimdir,<br>Səadət yoldaşım, bəxt köməyimdir.<br>Yenəmi dünyada boş nəfəs alım?<br>Yenəmi aləmdən kənarda qalım?<br>Dövran şadlıq bəzmi qurandan bəri<br>Qovdu məclisindən boş gəzənləri.<br>Mədəsi ac olan işsiz bir köpək<br>Boş-boş oturmaqla taparmı çörək?<br>Bu dünya səsiylə səsləşənindir,<br>Dövranla düz gəlsən, dövran sənindir.<br>Başını yuxarı tutmaq istəsən,<br>Hava tək hamıyla sazişə gir sən.<br>Güzgü tək hər yerə qoyulsa əgər,<br>Yalandan özündə bir şey göstərər.<br>Hər zəhmət sonunda bir səadət var,<br>Bəxti olanlar da xəzinə tapar.<br>Bu zaman bir elçi gəldi eyvana,<br>Şahın məktubunu gətirdi mana<br>On-on beş sətirdi şahın bu sözü<br>Gözəl xətti ilə yazmışdı özü.* | *Hər hərfi bağ kimi güllər açmışdı,<br>Bir şəbçıraq kimi şəfəq saçmışdı:<br>"Ey söz dünyasına hakim Nizami,<br>Qulluğa məhrəmsən tut ilticamı.<br>Səhər yuxusunun pərdəsini at,<br>Yenə söz oynadıb bir sehir yarat.<br>Əqli heyran qoyan söz meydanında<br>Min şirinlik göstər hər dastanında.<br>Istərəm Məcnunun böyük eşqinə<br>Bir söz xəzinəsi açasan yenə.<br>Bakirə Leyli tək, ey böyük ustad!<br>Şerdə iki-üç bakir söz yarat.<br>Bu təzə gəlinə, çəkəndə zəhmət,<br>Fars, ərəb diliylə vur ona zinət.<br>Türk dili yaramaz şah nəslimizə,<br>Əskiklik gətirər türk dili bizə.<br>Yüksək olmalıdır bizim dilimiz,<br>Yüksək yaranmışdır bizim nəslimiz".<br>Qulluq halqasına düşdü qulağım,<br>Qan vurdu beynimə, əsdi dodağım.<br>Nə cürətim vardı ki, evdən qaçam.<br>Nə də gözüm vardı, xəzinə açam.<br>Ömrüm viran oldu, solub saraldım,<br>Bu əmrin önündə cavabsız qaldım.* |

**Sual:**

**Şair əsərinin bu parçasında dövrünün hansı problemlərini qaldırırdı?**

| İkihissəli gündəlik | |
|---|---|
| **Sitat: Mətndən suala cavab vermək üçün nümunələr seçin.** | **Şərhinizi yazın: Niyə bu beytləri seçdiniz?** |
| *1. Mədəsi ac olan işsiz bir köpək<br>Boş-boş oturmaqla taparmı çörək?* | *Nizami Gəncəvinin dahiliyi ondandır ki, əsərlərində qaldırılan problem hər dövr üçün aktualdır. Bu misralarda müəllif əməyi təbliğ edir, işsiz, boş-bikar dayanmağı tənqid edir. Müəllif demək istəyir ki, əgər çalışmasan , boş otursan, heç nə əldə edə bilməyəcəksən.* |
| *2. Bu dünya səsiylə səsləşənindir,<br>Dövranla düz gəlsən, dövran sənindir.* | *Bu misralarda müəllif vurğulayır ki, əgər cəmiyyətdən kənarda qalmaq istəmirsənsə, zamanın nəbzini tutmağı, bacarmalısan. Dövrlə ayaqlaşsan, bu zaman uğur da qazana bilərsən.* |

**Tapşırıq 2. Aşağıdakı suala cavab verərək MİNN tərtib edin. Gündəlikdə apardığınız qeydlərdən istifadə edin.**

**(müəllim essesi)**

**Gülnar Hümbətova**

**Sual**: Şeir parçasına əsasən, Nizami Gəncəvinin əsərlərini fars dilində yazmağına haqq vermək olarmı?

***Düşünürəm*** *ki,*

*əsərlərini fars dilində yazması müəllifin maddiyyatı mənəvi dəyərlərdən üstün tutması anlamına gəlmir.*

***Çünki** müəllif "Bu dünya səsiylə səsləşənindir, Dövranla düz gəlsən, dövran sənindir" misraları ilə zamanın nəbzini tutmağın önəmli olduğunu vurğulayır, əks halda cəmiyyətdən kənarda qalacağını anlayırdı.*

***Bu qənaətə gəlirəm ki,** əsərlərini fars dilində yazsa da, düşüncəsi türk düşüncəsi olduğu üçün, türkləri daim üstün tutduğu üçün onun xalqına xidmətini yüksək dəyərləndirmək lazımdır.*

***Esse***

*Müasir dövürmüzdə də bir çox sənətkarlar var ki, oxunma miqyasını nəzərə alıb əsərlərini beynəlmimləl dillərdə yazırlar. Nizami Gəncəvinin yaşadığı dövründə hökmdarların və dövrün tələbini nəzərə alıb əsərlərini fars dilində yazmışdır. **Düşünürəm** ki, əsərlərini fars dilində yazması müəllifin maddiyyatı mənəvi dəyərlərdən üstün tutduğu anlamına gəlmir.*

*Nizami Gəncəvi "Leyli və Məcnun" poemasının əvvəlində vurğulayır ki, "söz əməyimdir". Bu ifadədən anlamaq olar ki, müəllif öz keçimini, yaşayışını təmin etmək üçün hökmdarların sifarişlərini qəbul edirdi. Həmin sifarişlərin qarşılığında aldığı qonorarla öz maddi ehtiyaclarını ödəyir. Həmçinin müəllif "Bu dünya səsiylə səsləşənindir, Dövranla düz gəlsən, dövran sənindir" misraları ilə zamanın nəbzini tutmağın önəmli olduğunu vurğulayır, əks halda cəmiyyətdən kənarda qalacağını anlayırdı.*

*Hökmdarın məktubundakı "əskiklik gətirər türk dili bizə" sözlərini oxuyanda "dodağı əsir, qan beyninə vurur", amma müəllifin "nə cürəti vardı ki, evdən qaçsın". Aydın olur ki, fars dilində yazmaq müəllifin öz seçimi deyildi.*

*Nəzərə alsaq ki, XII əsrdə saray dili, poeziya dili fars dili idi. Digər tərəfdən dövrün tələbi idi. Bu baxımdan dahi sənətkara əsərlərini fars dilində yazdığı üçün haqq vermək olar.* ***Bu qənaətə gəlirəm ki,*** *əsərlərini fars dilində yazsa da, düşüncəsi türk düşüncəsi olduğu üçün, türkləri daim üstün tutduğu üçün onun xalqına xidmətini danmaq olmaz.*

## TƏNQİDİ TƏFƏKKÜRÜN İNKİŞAFI ÜÇÜN RAFT ÜSULU

**RAFT –** müəyyən mövzuda müxtəlif janr və formalarda yazılı mətnlərin tərtibi üçün istifadə edilən pedaqoji üsuldur. Bu üsul şagirdlərin mövzuya müxtəlif nəzər nöqtələrindən baxmaq və yazılı nitq vərdişlərini formalaşdırır.

RAFT üsulunun əsas vəzifəsi:

- Mühakimə sistemini formalaşdırmaqdır.

Şagirdin:

- diqqətini tədris mövzusuna yönəldir;
- yaradıcılıq qabiliyyətini üzə çıxarır;
- improvizasiya bacarığını formalaşdırır;
- təhlil və dəyərləndirmə bacarığını inkişaf etdirir.

**RAFT-ın açılışı:**

| Rol | Auditoriya | Forma | Tema (Mövzu) |
|---|---|---|---|
| Rolun müəyyənləşdirilməsi üçün mövzunu kimin aça biləcəyi izah olunur. | Verilmiş mövzunun kimlərə ünvanladığı izah olunur. | Janr və təhkiyə forması seçilir. | Mövzu seçilir, əsas ideyalar müəyyənləşir. |

**Məşğələyə hazırlıq**

RAFT üsulu üzrə təlimin təşkili seçilmiş mövzu üzrə dərin biliklər, fantaziya və aktyorluq bacarıqları tələb edir. Üsulun işləməsi üçün mövzu həm də maraqlı və aktual olmalıdır.

Məşğələdən öncə cədvəli hazırlamaq lazımdır, bunu cədvəli lövhəyə çəkməklə etmək olar. Dərs boyunca hər bir sütun təhlil olunub doldurulacağı üçün cədvəli hər kəsin görə biləcəyi səviyyədə təqdim etmək vacibdir.

**RAFT üsulunun mərhələləri**

- **Giriş mərhələsi**

Bu mərhələnin əsas məqsədi iştirakçıları prosesə cəlb etmək, fəaliyyəti motivləşdirməkdir. Geniş tətbiq edilən təlim üsulları assosiasiya və beyin həmləsidir.

Seçilmiş rolun icrası üçün şagirdlər bütün mümkün sosial qrupları təklif edirlər. Rolu müəllim də təklif edə bilər. Cədvələ 4-5 mövqe qeyd olunur.

İkinci sütuna mətnin hədəf auditoriyasını təşkil edən insanlar, insan qrupları, təşkilatlar qeyd edilir.

Sonra isə sosial rollara və mümkün oxucu auditoriyalarına ünvanlanacaq yazı üçün uyğun olan janr müəyyyənləşir və növbəti sütunda əks etdirilir.

Sonuncu sütunda mətnin əsas fikirləri və ideyası yazılır.

Cədvəl üzrə işin nəticəsi müəllim tərəfindən dəyərləndirilir.

İştirakçıalar arasında sosial rollar bölüşdürülür və onlar öz mətnlərini tərtib etməyə başlayırlar. Bu zaman onlara seçilmiş obyekti hiss etməyin, anlamağın, personajın üzləşəcəyi şərtləri nəzərə almağın nə qədər vacib olduğunu izah etmək lazımdır.

İş qrupla və ya fərdi aparıla bilər. Tapşırıq yerinə yetirildikdən sonra mətnlərdən bir neçəsi oxunur. Yazılarını oxumaq üçün şagirdlərin seçilməsi könüllü və ya püşk yolu ilə aparıla bilər. Tamamlanmış işlərin çox olmadığı təqdirdə bütün mətn sahiblərini dinləmək olar.

- **Mühakimə mərhələsi**

Şagirdlər dərslikdə olan mətnə baxır və ya əlavə materialla təmin edilirlər. Bu mərhələdə şagirdlər yeni informasiyalar alır, fikirlərini söyləyir və dəftərlərində qeydlərini aparırlar.

- **Refleksiya mərhələsi**

Refleksiya mərhələsi keçilmiş materialın analizini, təhlilini tələb edir. Şagirdlər onlara məlum və yeni olan infor-

masiyaları müzakirə və müqayisə edirlər, eşitdikləri əsasında təhlillər aparırlar. Daha artıq səmərə əldə etmək üçün verilmiş mövzu üzrə əyani vəsaitlərdən istifadə təklif olunur: fotoqrafiya, slayd, nümunələr və s.. Bu, müzakirə olunan obrazın şagirdlərin təsəvvüründə formalaşmasına və əldə edilmiş biliklərin möhkəmlənməsinə kömək edir.

**RAFT üsulunun tətbiqi sahələri**

RAFT üsulunu  müxtəlif fənlərdə istifadə etmək olar. Məsələn:

Tarix dərslərində "feodal", anlayışlarının izahı, müəyyən təbəqələrin və ictimai qrupların öyrənilməsi;

- ədəbiyyat dərslərində müxtlif bədii əsərlərin obrazlarının təhlili. "yazıçı", "şair" anlayışlarının mahiyyəti, bədii əsərlər əsasında kiçik ssenarilərin yazılması;
- müxtəlif  peşə sahələri nümayəndələrinin xarakteristikasının  təhlili (jurnalistik, həbçilər. müəllimlər və s.).

## "SƏBƏB-FAKT-NƏTİCƏ" ÜSULU

Bu üsul faktların səbəb-nəticə əlaqəsini müəyyənləşdirməklə kiçik araşdırma aparmağa şərait yaradır. Perspektivləri açmaqla hadisənin  gedişatını müəyyənləşdirməyə imkan yaradaraq şagirdlərin tapşırığı yerinə yetirmələrinə kömək etdiyi üçün yazıdan əvvəl mövzunun müzakirəsi mərhələsində tətbiq oluna bilər.

Məntiqi ardıcıllığı  davam etdirmək üçün  komponentlərdən yalnız biri təklif edilir. Şagirdlər verilmiş faktla bağlı səbəbi (və ya səbəbləri) seçirlər və onun nəticəsini

müəyyənləşdirirlər, yaxud göstərilmiş səbəbə uyğun faktı və onun nəticəsini araşdırırlar.

Nümunə:

Fakt: "Mən imla yazıdan üç aldım".

Səbəb: Qaydanı öyrənməmişdim.

Nəticə: Bu qayda üzrə bir çox səhvlərə yol verdim. Növbəti imlanı yaxşı yazmaq üçün bu qaydanı öyrənməli və diqtə altında onu tətbiq etməyi bacarmalıyam (korreksiya ilə bağlı məsələ belə qeyd edilir).

İbitidai siniflərdə və orta təhsilin aşağı siniflərində esse yazdırmaq üçün bu üsulun tətbiqi səmərəlidir.

## "YAXŞI-PİS" ÜSULU

Üsul dərsdə şagirdlərin ziddiyətlər haqqında təsəvvürlərini formalaşdırmaq üçün tətbiq edilir.

Üsulun formalaşdırdığı bacarıqlar:

- şifahi nitqin sərbəst və düşünülmüş ifadəsi;
- obyekti, situasiyanı müxtəlif aspektlərdən qiymətləndirmək;
- səbəb-nəticə əlaqəsinin qurulması;
- mühakimənin məntiqi ardıcıllıqla aparılması;
- istənilən obyektdə, situasiyada müsbət və mənfi tərəfləri görə bilmək;
- ziddiyyəti həll etmək bacarığı.

Üsuldan ziddiyyətlər əsasında tezislərin yazılması və esse yazı işində ziddiyyətlərin həlli üçün istifadə oluna bilər.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1.Абзац. https://petr-panda.ru/copywriting-terms/abzac/

2.Абзац.https://dic.academic.ru/dic.nsf/enc_literature/16/%D0%90%D0%B1%D0%B7%D0%B0%D1%86

3. И.М.Лейфман «Карточки для дифференцированного контроля знаний по литературе 11 класс часть 1

4. Как написать рецензию. https://www.sunhome.ru/help/1120

5. Как написать эссе. https://natalibrilenova.ru/kak-napisat-esse/

6. Как оформить эссе. http://ru.solverbook.com/stati/esse/kak-oformit-esse/

7. Как работать над сочинением-рецензией. https://edunews.ru/school/info/kak-napisat-recenziyu.html

8. Лейфман И.М. «Карточки для дифференцированного контроля знаний по литературе 11 класс часть I.-М.Материк –Альфа, 2004

9. Международная программа ПИСА: Примеры заданий по чтению, математике и естествознанию. https://www.innove.ee/wp-content/uploads/2019/02/Pisa2009-vene.pdf

10. Методические рекомендации по написанию эссе. Государственное автономное образовательное учреждение среднего ik образования Республики Коми, «Ухтинский медицинский колледж», Ухта, 2013

11. Повторяем приемы сжатия текста. https://mtv-rus.ru/zadanie-1-kak-pisat-szhatoe-izlozhenie/

12. ПОПС-формула: что собой представляет и как используется на уроках. . https://multiurok.ru/files/pops-formula-chto-soboi-priedstavliaiet-i-kak-ispo.html

13. Секреты редактирования. https://marketing.wiki-reading.ru/10658

20. Уроки развития речи: Дидактические материалы для учащихся по прграмме «Речь»: 6 кл. /Под общ. ред. Г.И.Канакиной, Г.В. Пранцавой. – М.: Гуманит. Изд.центр ВЛАДОС, 2000

21. Уроки развития речи: Дидактические материалы для учащихся по прграмме «Речь»: 6 кл. /Под общ. ред. Г.И.Канакиной, Г.В. Пранцавой. – М.: Гуманит. Изд.центр ВЛАДОС, 2002

22. Уроки развития речи: методические пособие для учителей-словесников по программе «Речь» 6 кл. /Под общ. ред. Г.И.Канакиной, Г.В. Пранцавой. – М.: Гуманит. Изд.центр ВЛАДОС, 2000

23. Уроки развития речи: методические пособие для учителей-словесников по программе «Речь» 6 кл. /Под общ. ред. Г.И.Канакиной, Г.В. Пранцавой. – М.: Гуманит. Изд.центр ВЛАДОС, 2002

24. Уроки развития речи: методические пособие для учителей-словесников по программе «Речь» 6 кл. /Под общ. ред. Г.И.Канакиной, Г.В. Пранцавой. – М.: Гуманит. Изд.центр ВЛАДОС, 2003

26. Уроки развития речи: методические пособие для учителей-словесников по программе «Речь» 8 кл.

27. Уроки развития речи: методические пособие для учителей-словесников по программе «Речь» 8 кл. /Под

общ. ред. Г.И.Канакиной, Г.В. Пранцавой. – М.: Гуманит. Изд.центр ВЛАДОС, 2002

28. Цукерман Г.А. Оценка читательской грамотности. Москва, 2010. http://2020strategy.ru/data/2011/07/15/12-14720557/4.pdf
29. Что такое рецензия и как ее писать. https://rus.1sept.ru/article.php?ID=199900801
30. Что такое тезис и примеры тезисов для сочинения. https://ktonanovenkogo.ru/voprosy-i-otvety/tezis-chto-ehto-takoe-primery-tezisov-sochinenij.html
31. Что такое эссе и как его писать. https://stud-work.org/spravochnik/oformlenie/esse/esse-kak-ego-pisat
32. Что такое эссе, как его написать самому – примеры. https://xn----7sbbaar5acc1ard1a0beh.xn--p1ai/chto-takoe-ehsse

**İngilis dilində**

B) A Visual Guide To Essay Writing: 2007 Valli Rao, Kate Chanock, Lakshmi Krishnan https://www.tcd.ie/disability/assets/doc/pdf/essayWritingVisualGuide.pdf

2. Academic Essay Writing For students at Charles Darwin University: https://www.cdu.edu.au/sites/default/files/acike/docs/academic-essay-writing-resource.pdf
3. Academic writing: the essay 2012: https://www.researchgate.net/publication/263863946_Academic_writing_the_essay
4. Basic Essay and Paragraph Format: https://www.uvu.edu/writingcenter/docs/handouts/writing_process/basicessayformat.pdf

5. Descriptive Essay. http://ortbinyaminaenglish.yolasite.com/resources/Descriptive%20Writing%20.pdf

6. Essay Examples: https://examples.yourdictionary.-com/essay-examples.html

7. Essay Structure: https://writingcenter.fas.harvard.-edu/pages/essay-structure

8. Essay Wrıtıng: https://www.anu.edu.au/files/guidance/Essay%20Writing%20Booklet%20%28FINAL%29%20Web%20Version.pdf

9. Essay Writing Workbook: http://kent.edu.au/kent/-wp-content/uploads/2014/04/Essay-Writing-Workbook-T1-2014.pdf

10. Essay Writing, 2016 THE UNIVERSITY OF NEWCASTLE: https://www.newcastle.edu.au/__data/assets/-pdf_file/0004/333760/Essay-Writing-lv-from-web.pdf

11. Essay: Introduction, Types of Essays, Tips for Essay Writing: https://www.toppr.com/guides/english/writing/-essay/

12. General Essay Writing Tips: https://www.internationalstudent.com/essay_writing/essay_tips/

13. Narrative Essay. https://literarydevices.net/narrative-essay/

14. How to Write a Good Essay: https://bowvalleycollege.libguides.com/essays

15. How to Write Great Essays: https://www.nclor.org/-nclorprod/file/e3476e91-6740-d289-c98d-fce107874ddb/1/157685521X.pdf Lauren Starkey, 2004 LearningExpress

16. How to Write a Narrative Essay

https://www.google.com/search?q=Structure+of+narrative+essay&oq=Structure+of+narrative+essay&aqs=chrome..69i57j0i22i30l9.3565j0j4&sourceid=chrome&ie=UTF-8

17. How to Write a Descriptive Essayhttp://www.grammarcheck.net/how-to-write-a-descriptive-essay/

18. How to Write a Descriptive Essay on any Topic-http://www.scoolwork.com/EssayWritingGuide/how_to_write_a_descriptive_essay_on_any_topic.aspx

19. How to Write a Descriptive Essay. https://essaypro.com/blog/ descriptive -essay/

# *Kitabın içindəkilər:*

**Giriş**
**Esse – tədrisdə yazı növü kimi**

**I fəsil**
**Esse – düşünməyi öyrədən yazi növüdür9**
**Essenin strukturu və kompozisiyasi12**
**Tezisin növləri17**

**II fəsil**
**Esse yazı işinin təşkili metodikası**
**Esse yazı işinin təşkili necə aparılır?23**
**Essenin qiymətləndirilməsi üzrə ümumi meyarlar27**
**Şagird essesi əsasinda yoxlama üsulu və qiymətləndir-mə nümunəsi  "Rəngli sahələr" üsulu30**
**Xarici təcrübədə essenin qiymətləndirilməsi üzrə nümunələr37**

**III fəsil**
**Essenin yazi tiplərinə görə növləri**
**Essenin yazi tiplərinə görə növlərinin səciyyələndirilmə-si49**
**Təsviri esse64**
**Təsviri esse: bir şəxsin təsviri**
**Mənim babam71**
**Təsviri esse: bir yerin təsviri**

**Bohol adası83**
**İnformativ / izahedici esse88**
**Analitik esse91**
**Rəy**
**Rəyi necə yazmalı99**
**Esse-mühakimə107**

**IV fəsil**
**Mətn tərtibində səmərəli üsullar**
**Sinkveyn123**
**Məntiqi təfəkkürü inkişaf etdirməyin qısa yolu -minn127**
**Tasa – təhlil (oxuyub-anlama üsulu)134**
**İkihissəli gündəliyin mövzunun**
**Təhlilində rolu---**
**Tənqidi təfəkkürün inkişafi üçün**
**RAFT üsulu---**
**"Səbəb-fakt-nəticə" üsulu---**
**"Yaxşı-pis" üsulu---**
**İstifadə olunmuş ədəbiyyat---**

*Qeyd:*

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Səma Qasımova

Çapa imzalanmış 13.11.2022
Şərti çap vərəqi 10. Sifariş № 411
Kağız formatı 60x84. 1/16. Tiraj 500

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4